Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
"Mədəniyyət" qəzetinin xüsusi buraxılışı

# Nizami Gəncəvi 880

## Söz dünyasının günəşi





Sənətin bayraqdarı ucalar kainatda,
Aydan da, günəşdən də öc alar kainatda.

*"Sirlər xəzinəsi"*

Çalış öz xalqının işinə yara,
Geysin əməlinlə dünya zərxara.

*"Yeddi gözəl"*

# Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

**Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdəndir. Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır.**

Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb-yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirmişdir. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoymuşdur. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan vermişdir.

Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olmuşdur. Ölkəmizdə Nizami sənətinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanmış, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilmişdir. Nizaminin ədəbiyyatda və incəsənətdə yaddaqalan obrazı yaradılmışdır. Mütəfəkkir şairin doğma şəhəri Gəncədə məqbərəsi, Bakıda, Sankt-Peterburqda və Romada heykəlləri ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu və Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Nizami Gəncəvinin adını daşıyır. Böyük Britaniyanın Oksford Universitetinin Nizami Gəncəvi Mərkəzi uğurla fəaliyyət göstərir.

Nizami Gəncəvinin yubileyləri ölkəmizdə hər zaman təntənə ilə keçirilmişdir. Dahi şairin 800 illik yubileyi onun irsinin tədqiqi və təbliğində əsaslı dönüş yaratmışdır. Azərbaycanın klassik ədəbi-mədəni irsinə həmişə milli təəssübkeşlik və vətənpərvərlik mövqeyindən yanaşan ümummilli lider Heydər Əliyev Nizami irsinə də xüsusi diqqət yetirmişdir. Heydər Əliyevin təşəbbüsü ilə 1979-cu ildə qəbul olunmuş "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" qərar Nizami yaradıcılığının tədqiqi və təbliği üçün yeni perspektivlər açmışdır. Ölməz sənətkarın 1981-ci ildə Ulu Öndərin bilavasitə təşəbbüsü və iştirakı ilə keçirilən 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatının əlamətdar hadisəsinə çevrilmişdir. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş qeyd edilmişdir.

2021-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi tamam olur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qüdrətli söz və fikir ustadının insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığının bəşər mədəniyyətinin nailiyyəti kimi müstəsna əhəmiyyətini nəzərə alaraq qərara alıram:

1. 2021-ci il Azərbaycan Respublikasında "Nizami Gəncəvi İli" elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Nizami Gəncəvi İli" ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 5 yanvar 2021-ci il.**

# Ədəbi-mədəni irs xalqı yaşadan dəyərdir



"Hər bir ölkənin mədəni həyatı onun səviyyəsini göstərir. Azərbaycanın müstəqil ölkə kimi yaşaması üçün mədəniyyət, incəsənət çox böyük əhəmiyyət kəsb edir" – Prezident İlham Əliyevin bu sözləri, ölkəmizin keçdiyi mədəni inkişaf yolunun dəyərini diqqətə çatdırmaqla yanaşı, mədəniyyətə dövlət qayğısının nə dərəcədə vacib olduğunu da vurğulayır.

Dövlət başçısının mədəni irsə davamlı diqqət və qayğısı Azərbaycan ədəbiyyatının korifey simalarına münasibətdə də özünü ifadə edir. 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" kimi qeyd olunması və 2021-ci ilin "Nizami ili" elan edilməsi, bu mütəfəkkir şairlərin zəngin irsinin yaşadılması və təbliğinə böyük töhfə olmaqla bərabər, Azərbaycan xalqının çoxəsrlik tarixə malik mədəniyyət və ədəbiyyatının təntənəsidir. Əsrlər boyu milli-mədəni dəyərlərimiz, eləcə də dünya söz xəzinəsini zənginləşdirmiş ədəbiyyatımız bizi xalq olaraq yaşadıb, milli identikliyimizin təmin olunmasında mühüm rol oynayıb.

Prezident 2021-ci il yanvarın 5-də yeni mədəniyyət naziri Anar Kərimovu videoformatda qəbul edərkən bunu bir daha diqqətə çatdırıb: "Azərbaycanın zəngin və təkrarolunmaz mədəniyyəti bizim qürur mənbəyimizdir. Uzun illər ərzində Azərbaycan müstəqillikdən məhrum idi, xalqımız başqa dövlətlərin tərkibində yaşayırdı. Buna baxmayaraq xalqımızın iradəsi, milli köklərə bağlılığı imkan vermədi ki, xalqımız assimilyasiyaya uğrasın. Bizim mədəniyyətimiz milli mənsubiyyətimizi qorumaq üçün başlıca rol oynayıbdır...

Bizim zəngin ədəbiyyatımız dünyada tanınır və biz haqlı olaraq öz dahi şairlərimizlə fəxr edə bilərik. 2021-ci il mənim sərəncamımla "Nizami ili" elan olunur... 2019-cu il isə digər dahi Azərbaycan şairi "Nəsimi ili" olmuşdur. Bu, onu göstərir ki, dövlət tərəfindən və şəxsən Prezident tərəfindən bizim ədəbiyyatımıza, bizim dahi şairlərimizin xatirəsinə çox böyük hörmət var, qayğı var...".

Bu xüsusda sözünün qüdrəti ilə, tərənnüm etdiyi ali dəyərlərlə insanlığa yol göstərən Nizami Gəncəvinin müstəsna yeri var. Zəngin irsi əsrlərdən əsrlərə, nəsillərdən nəsillərə əmanət olan Nizaminin dühası bəşəriyyətin önünü aydınladan işıq selinin ən parlaq və tükənməz qaynaqlarından biridir...

Günəşin ordusu boy versə əgər,
Xəlvəti çəkilər qaçaq kölgələr.

"Leyli və Məcnun"

Birlikdən yaranıb zəfər döyüşdə,
Dostların birliyi gərək hər işdə.

"İskəndərnamə" ("Şərəfnamə")

**Baş redaktordan**

# Zəfərdən sonrakı İntibah...

*Nizaminin şeiri oxunan zaman,*
*O da hər bir sözdə görünər əyan.*
*Yüz il sonra sorsan, bəs o hardadır?*
*Hər beyti səslənər: "Burda, burdadır".*

Yüz deyil, iki yüz deyil, vəfatından səkkiz yüz il ötsə də, Nizami dühası bütün cahanı aydınladan sözünün qüdrəti ilə bizimlədir, əsrlər sonra da olacaq. Nizami sözünün əsrlərdir insanlığa bəxş etdiyi ziya 2021-ci ildə daha parlaq hiss olundu. Bu parlaqlıq təkcə o sözün işığından qaynaqlanmır. Bu il xalqımızın onilliklərdir intizarında olduğu tarixi Zəfərdən sonra ürəkdolusu nəfəs aldığımız, sərhədləri bütöv Vətənin qürurunu yaşadığımız bir il oldu.

Nizaminin 880 yaşı və Zəfərimizin ilk ildönümü. İllərin bir-birini belə tapması təsadüf də olsa, yaşadığımız şanlı tarixin naxışı məhz belə olmalı idi. Çünki hər Zəfərdən sonra bir İntibah var. Qarabağ qalibiyyətli 2020-ci il də Nizami dühalı mədəniyyət ili ilə davam etməli idi.

2021-ci il otuzillik ayrılıqdan sonra ayaq basdığımız Qarabağda dirçəlişin və bu torpaqla bərabər ruhumuzun da yüksəlişinin yeni sayım nöqtəsi oldu. Xalqımızın əsrlər boyu Qarabağ torpağında yaratdığı, yaşatdığı və son otuz ildə işğalçılar tərəfindən məhv edilən tarixi-mədəni irsimizin bərpası ümumilikdə mədəniyyətimizin bütövləşməsi deməkdir. Sərhədləri bütövləşən ölkəmizdə bu dirçəlişə, milli ruhun yüksəlişinə ən parlaq işığı dünya mədəniyyətinə bəxş etdiyimiz böyük dühа – Gəncəli Nizami dühası sala bilərdi.

2021-ci ildə otuz ilin əsarətindən sonra yurd yerlərimizdə quruculuq işləri başlandı. Qarabağa Böyük Qayıdış təkcə insanlarımızın doğma yurdlarına dönüşü deyil, eyni zamanda bu torpaqlarda geniş anlamda mədəniyyətin yenidən bərqərar olması deməkdir. Mədəniyyət təkcə abidə, mədəniyyət ocağı, sənət əsəri deyil. Mədəniyyət mədəni təfəkkür, insaniyyət, bəşəri dəyərlər və bu dəyərlərə sadiqlikdir. Biz Qarabağı dirçəltməklə orada otuzillik işğalın yox etdiyi mədəniyyəti bu geniş anlamda da bərpa edəcəyik.

Təsadüfi deyil ki, Mədəniyyət Nazirliyinin 2020-ci ilin Zəfər soraqlı günlərində başlanan və bu il davam edən layihələrinin əsas devizi də budur: Qarabağa mədəniyyətlə qayıdırıq!

Azərbaycan xalqı bu bəşəri dəyərləri hələ XII əsrdə Nizaminin misraları, beytləri ilə dünyaya bəyan etmişdi. Nizami hikmətinin inciləri əsrlərdir bəşəri düşüncəyə nur səpir, çünki qaynağı tükənməzdir, göydəki Günəş kimi. Bu dühanın çağdaş dünyaya layiqincə tanıdılması ümumilikdə Azərbaycan mədəniyyətinin beynəlxalq miqyasda təqdimatının mühüm tərkib hissəsidir.



Bu işdə hələ ötən əsrin 70-80-ci illərində mədəniyyətimizin böyük hamisi, ulu öndər Heydər Əliyev müstəsna xidmətlər göstərib. Məlum olduğu kimi, Nizaminin əsərlərinin Azərbaycan dilində ilk nəşri, bir sıra sanballı tədqiqatlar şairin 800 illik yubileyi ilə əlaqədar 1940-cı illərdə həyata keçirilsə də, sonra bu proses nisbətən səngimişdi. Heydər Əliyevin təşəbbüsü ilə respublikanın o vaxtkı ali rəhbər qurumu – Azərbaycan KP MK-nın "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərarının qəbul edilməsi Nizami irsinin tərcümə və təbliğinə, nizamişünaslığın yeni inkişaf dövrünə təkan verdi. Nizaminin 840 illiyinin – dövrün konyunkturası ilə yuvarlaq sayılmayan yubileyin SSRİ miqyasında qeyd olunması Heydər Əliyevin vətənpərvərliyinin göstəricisi, sovet rəhbərliyi yanında nüfuzunun nəticəsi idi.

Ulu öndər 1993-cü ildə, artıq müstəqil Azərbaycanın rəhbəri olarkən həmin dövrü belə xatırlamışdı: "Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tuturdular ki, 840 il yuvarlaq tarix deyildir. Ancaq biz sübut etdik ki, Nizami Gəncəvi elə bir şəxsiyyətdir, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər... Bu, Azərbaycanı, onun tarixini bir daha dünyaya tanıtmaq üçün imkandır".

Həqiqətən də, Nizami Azərbaycanı dünyada tanıdan ən böyük mədəni dəyərdir. Bu, dünən də belə idi, sabah da belə olacaq. Nizami adı ilə şərəflənən 2021-ci ildə də böyük mədəniyyət tədbirlərinə hikmət ziyası bəxş etdi.

"Nizami ili"ndə söz-sənət beşiyimiz Şuşanın artıq rəsmən Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi ədəbi-mədəni irsimizlə tarixi Zəfərimizin birgə təntənəsi oldu. Heydər Əliyev Fondunun Şuşanın əsrarəngiz düzündə təşkil etdiyi "Xarıbülbül" festivalı mədəniyyətimizin Qarabağa qayıdışının



başlanğıcı oldu. Prezident İlham Əliyevin dediyi kimi, qədim torpağımızdan biz bütün dünyaya mesaj verdik. Bu, sülh, mədəniyyət, birgəyaşayış, tolerantlıq, milli həmrəylik mesajıdır. Festivalda ölkəmizdəki xalqların mədəni zənginliyinin nümayişi olan konsert proqramı da bu mesajlar üzərində köklənmişdi. Bu il 880 yaşlı Nizaminin 3 əsri arxada qoymuş xələfi Vaqifin söz şəfəqi də Şuşada bərpa olunan poeziya günləri ilə "Nizami ili"nin mədəniyyət işığına qovuşdu...

***

Nizami Gəncəvinin 880 illiyi, yaşadığımız pandemiyanın bəlli şərtləri də nəzərə alınmaqla, qüdrətli söz ustadının adına və şanına layiq şəkildə qeyd edildi. 2021-ci il mədəniyyətlə, Nizami sözü ilə başladı, davam etdi. İl bitsə də, söz bitməyəcək.

Bu tarixin yazıldığı mətbu səhifələrdə imzası olmaq həm məmnuniyyət, həm də məsuliyyət deməkdir. Dahi şairin 880 illiyinə kiçik töhfə saydığımız bu nəşrdə də "Nizami Gəncəvi İli"nin mədəni mənzərəsini yığcam, məcmu halda diqqətinizə təqdim edirik. Sonda üç nöqtə qoyaraq...



Hər zaman rəiyyətin diləyinə qulaq as,
Ürəkdən məzlumların ürəyinə qulaq as.

*"Sirlər xəzinəsi"*

Qohumdan mehriban yadlar az deyil,
Həm vəfalı, sadiq, həm də şirindil.

*"Xosrov və Şirin"*

# Nizami irsi dünya üçün ədəbi xəzinədir

## TÜRKSOY-da "Nizami Gəncəvi İli"nin açılışı



**Dahi Azərbaycan şairi və mütəfəkkirinin 880 illiyi şərəfinə elan olunmuş "Nizami Gəncəvi İli" çərçivəsində Mədəniyyət Nazirliyinin bilavasitə təşkilatçılığı, eləcə də yaxından iştirakı və dəstəyi ilə təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da silsilə tədbirlər, layihələr həyata keçirilib. Bu silsilənin ilk böyük tədbiri qardaş Türkiyədə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY ilə birlikdə təşkil edilib. Türk dünyasının görkəmli şəxsiyyətlərinin tanıdılması və təbliğini fəaliyyətinin mühüm istiqaməti sayan TÜRKSOY "Nizami Gəncəvi İli"nə də böyük diqqət ayırıb.**

Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimovun Türkiyəyə rəsmi səfəri gedişində 2 mart 2021-ci il tarixində Ankarada – TÜRKSOY-un qərargahında Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş kitab və rəsm sərgilərinin açılış mərasimi keçirilib. Azərbaycanın Türkiyədəki Səfirliyi və Azərbaycan Milli Kitabxanasının da iştirakı ilə gerçəkləşən tədbirdə əvvəlcə mütəfəkkir şairin həyat və yaradıcılığı barədə məlumat verilib.

Nizami yaradıcılığını bütün dünya üçün tükənməz ədəbi xəzinə kimi dəyərləndirən TÜRKSOY-un Baş katibi Düsen Kaseinov vurğulayıb ki, əsrlər ötdükcə dahi şairin bədii irsi daha geniş yayılır və sevilə-sevilə oxunur. Nizami "Xəmsə"si ilə təkcə Azərbaycan və türk ədəbiyyatını deyil, bütün dünya ədəbi coğrafiyasını əhatəsinə, təsiri altına almış bir şairdir.

Nizami irsini, onun tərənnüm etdiyi ideyaları nəsillərə nümunə kimi dəyərləndirən Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim bildirib ki, əvvəl olduğu kimi, bu gün də, gələcəkdə də biz qardaş xalqlar olaraq bir yerdə öz mənəvi xəzinəmizi dünyaya tanıdacaq və qürur duyacağıq.






Mədəniyyət naziri Anar Kərimov Prezident İlham Əliyev tərəfindən elan edilmiş "Nizami Gəncəvi İli"nin dahi şairin zəngin irsinin öyrənilməsi və təbliğinə əlavə zəmin yaratdığını vurğulayaraq qeyd edib ki, dünyada rəğbətlə oxunan Nizami yaradıcılığı əbədilik qazanıb. Nizami Gəncəvi bir çox Avropa klassiklərindən əsrlər öncə ədalət, tolerantlıq, birgə yaşama, humanizm, insan hüquqları, qadın azadlığı kimi bəşəri dəyərləri təbliğ edən əsərlər yaradıb.

Mədəniyyət naziri Anar Kərimov Türk dünyasının mədəniyyətini təbliğ edən və bu sahədə mühüm işlər görən TÜRKSOY-un qərargahında olmaqdan məmnunluğunu bildirərək bu məkanda Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş sərginin, eləcə də 2021-ci ildə 100 illik yubileyi tamam olan Azərbaycanın Xalq rəssamı Mikayıl Abdullayevin Nizami irsinə həsr olunmuş əsərlərindən ibarət sərginin təşkilinə görə baş katib Düsen Kaseinova, həmçinin göstərdiyi dəstəyə görə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinə təşəkkürünü bildirib.

Sonra tədbir iştirakçıları Azərbaycan Milli Kitabxanasının fondundan Nizami Gəncəvinin əsərləri və onun haqqında nəşrlərdən ibarət kitab sərgisi ilə tanış olublar. Milli Kitabxananın direktoru Kərim Tahirov təqdim olunan nəşrlər haqqında məlumat verib. İştirakçılar həmçinin Xalq rəssamı Mikayıl Abdullayevin Nizami əsərlərinin motivləri əsasında yaratdığı rəsmlərin və mozaik tabloların, tanınmış rəssam Vaqif Ucatayın "Nizami işığında" tablosunun fotoreproduksiyası və "Xəmsə" motivlərinə çəkilmiş miniatürlərin nümayiş olunduğu sərgiyə baxıblar.

Mərasimin bədii hissəsində böyük bəstəkar Üzeyir Hacıbəylinin Nizaminin qəzəllərinə bəstələdiyi məşhur "Sevgili canan" və "Sənsiz" romansları səslənib.

***

Xalq rəssamı Mikayıl Abdullayevin dahi şairin "Xəmsə"sinin motivləri əsasında çəkdiyi rəsmlərin və məşhur mozaik tabloların reproduksiyalarından ibarət sərgi martın 3-də İstanbulda – Maltəpə Bələdiyyəsinin Türkan Saylan Mədəniyyət Mərkəzində də nümayiş olunub. Qeyd edək ki, sözügedən mozaik tablolar Bakı metrosunun "Nizami" stansiyasının divarlarını bəzəyir. Sərginin açılış lentini TÜRKSOY-un Baş katibi Düsen Kaseinov, mədəniyyət naziri Anar Kərimov və Maltəpə Bələdiyyəsinin başqanı Əli Kılıç kəsiblər.






Ovçu səbirsizlik göstərsə əgər,
Oxu nişanəyə dəyməz, yan gedər.

*"Yeddi gözəl"*

Həyasız adama qarşı sərt rəftar
Yumşaq davranmaqdan faydalı olar.

*"İskəndərnamə" ("İqbalnamə")*

# Nizami ünvanlı kitabların sərgisi

**Ölkəmizin kitabxanalarında Nizami Gəncəvinin əsərlərindən və zəngin irsinə həsr olunmuş tədqiqatlardan ibarət yüzlərlə adda kitablar toplanıb. Dahi şairlə bağlı nəşrlərin ən zəngin saxlanc yeri Azərbaycan Milli Kitabxanasıdır. Yanvarın 22-də Milli Kitabxanada açılışı olan "Böyük Azərbaycan şairi və mütəfəkkiri – Nizami Gəncəvi" mövzusunda kitab sərgisi "Nizami ili"nin ilk tədbiri kimi də əlamətdar idi.**

Tədbir çərçivəsində həmçinin görkəmli şərqşünas Yevgeni Bertelsin rus dilində yazdığı "Böyük Azərbaycan şairi Nizami" kitabının Londonda işıq üzü görən ingilis dilində nəşrinin və "Azərbaycan əlyazmaları Praqa Milli Kitabxanasında" adlı kataloqun təqdimatı da keçirildi.




Bildirildi ki, kitab Oksford Universiteti nəzdindəki Nizami Gəncəvi Mərkəzi İdarə heyətinin üzvü, AMEA-nın vitse-prezidenti, akademik Nərgiz Paşayevanın təşəbbüsü ilə həmin mərkəz tərəfindən nəşr olunub. "Azərbaycan əlyazmaları Praqa Milli Kitabxanasında" adlı kataloq isə Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə həyata keçirdiyi "Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində reallaşıb. Kataloq Nizami "Xəmsə"sinin XIV-XV əsrlərə aid əlyazmalarını da əhatə edir.

Mərasimdə çıxış edən mədəniyyət naziri Anar Kərimov Prezident İlham Əliyevin Azərbaycanın tarixi irsini, mədəniyyətin, elm və ədəbiyyatın inkişafını daim diqqətdə saxladığını dedi. Qeyd etdi ki, dövlət başçısı tərəfindən dahi şəxsiyyətlərimiz ilə bağlı xatirə illərinin elan olunması, görkəmli ədəbiyyat və mədəniyyət xadimlərinin yubileylərinin keçirilməsi haqqında sərəncamların imzalanması ümumilikdə mədəni irsimizə böyük qayğının təzahürüdür. 2021-ci ilin ölkəmizdə "Nizami Gəncəvi İli" elan olunması da bu ənənənin əyani nümunəsidir.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva, Xalq yazıçısı Elçin, millət vəkili, Azərbaycanda Atatürk Mərkəzinin rəhbəri, akademik Nizami Cəfərov, Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla, AMEA-nın Əlyazmalar İnstitutunun direktoru, akademik Teymur Kərimli və digər çıxış edənlər "Nizami ili"nin əhəmiyyətindən bəhs etdilər. Xalq artisti Mələykə Əsədova və Əməkdar artist Elşən Rüstəmov Nizami Gəncəvinin şeirlərindən nümunələr söylədilər.

# Ermitajda tarixi yubileyin ildönümü

**1941-ci il oktyabrın 19-da, İkinci Dünya müharibəsinin qızğın çağında, blokadaya alınmış Leninqrad (indiki Sankt-Peterburq) şəhərində, Dövlət Ermitajında Nizami Gəncəvinin 800 illik yubileyinə həsr olunmuş toplantı keçirilmişdi. Toplantıya məşhur şərqşünaslar, tanınmış ədəbiyyat, mədəniyyət xadimləri qatılmışdı...**

80 il sonra eyni gündə Ermitajda Nizami Gəncəvinin 880 illik yubileyi qeyd olunub. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və ölkəmizin Sankt-Peterburqdakı Baş Konsulluğunun təşkilatçılığı ilə keçirilən tədbir bu məkanda 80 il əvvəl baş tutmuş tarixi yubileyi bir daha yada salıb.

Ermitajın direktoru Mixail Piotrovski Nizami Gəncəvi dühasından danışaraq bildirib ki, böyük Azərbaycan şairinin yaradıcılığı Yaxın və Orta Şərqdə fəlsəfi cərəyanların, ədəbi məktəbin əsasını qoyub. O xatırladıb ki, 80 il öncə, Böyük Vətən müharibəsi dövründə və Sankt-Peterburqun – o vaxtkı Leninqradın blokadasının 42-ci günündə Nizaminin 800 illik yubileyi Ermitajda qeyd olunub.

Tədbirdə çıxış edən Azərbaycan mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva Ermitajda "Nizami ili" çərçivəsində belə bir tədbirin keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. Vurğulanıb ki, 1941-ci ilin 19 oktyabr tarixində, şəhərin blokadada olduğu bir vaxtda Dövlət Ermitajında Nizaminin 800 illik yubileyinin qeyd olunması Azərbaycanın böyük şairinə verilən yüksək dəyərin təzahürü idi və şairin 880 illiyinin də eyni tarixdə Ermitajda qeyd edilməsi əlamətdar hadisədir.

Tədbirdə Ermitajın fondunda saxlanılan Nizami Gəncəvinin "Xəmsə"sinin nadir nüsxəsi nümayiş olunub, şairin yaradıcılığına dair məruzələr dinlənilib, əsərlərinin motivləri üzrə çəkilmiş və hazırda Ermitajda və Sankt-Peterburqdakı Rusiya Milli Kitabxanasında saxlanılan miniatürlər haqqında təqdimatlar keçirilib. Sonda konsert proqramı təqdim olunub.



## Xalça eskizi müsabiqəsi

**"Nizami ili"nin diqqətçəkən layihələrindən biri də dahi şairin 880 illiyinə həsr edilən beynəlxalq xalça eskizi müsabiqəsi olub. Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Milli Xalça Muzeyinin təşkilatçılığı ilə keçirilən müsabiqədə yaşı 20-dən çox yaradıcı şəxslər iştirak edib.**

Beynəlxalq münsiflər heyəti tərəfindən 43 iştirakçı arasından iki nəfər – "Düşüncələr" adlı eskizin müəllifi, azərbaycanlı rəssam Eldar İbadullayev və "İntikalun" (ərəb dilindən tərcümədə "keçid") adlı eskizin müəllifi, rusiyalı tekstil dizayneri Olqa Laşenko qalib seçilib.





Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə.

"İskəndərnamə" ("Şərəfnamə")

Çox gözəl olsa da, eybi gizləmək,
Dost dostun eybini örtməsin gərək.

"Leyli və Məcnun"

# Əlamətdar ilə töhfə – Nizami festivalı



**"Nizami Gəncəvi İli", sözün geniş anlamında, Azərbaycan mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin bayramı oldu. Əlamətdar ilin yaddaqalan tədbirlərindən biri də 15-26 noyabr tarixində Mədəniyyət Nazirliyi, AMEA, Gəncə Şəhər İcra Hakimiyyəti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi və Azərbaycan Yazıçılar Birliyinin təşkilatçılığı ilə gerçəkləşən Nizami Gəncəvi Beynəlxalq Festivalı idi. Bakıda və böyük şairin doğma yurdu Gəncədə reallaşan festival "Nizami ili" haqqında dövlət başçısının müvafiq sərəncamının icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planına əsasən keçirildi.**

***

Festivalın ilk günündə Bakıda, Beynəlxalq Muğam Mərkəzində Nizaminin sözlərinə yazılmış əsərlərdən ibarət vokal musiqisi axşamı keçirilib.

Mədəniyyət naziri Anar Kərimov qonaqları salamlayaraq bildirib ki, Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı ilə əlamətdar illərin elan edilməsi ölkəmizdə klassik ədəbi irsimizə nə qədər böyük diqqət olduğunu göstərir: "Hər bir cəmiyyətin inkişafına böyük mütəfəkkirlərin təsiri olur. Nizami Gəncəvi o dahilərdəndir ki, Azərbaycan fəlsəfi fikrinin və milli dəyərlərinin dünyada tanıdılmasına xidmət edib. Onun XII əsrdə əsərlərində bəyan etdiyi ideyalar XXI əsrdə də aktualdır".

Konsert proqramında Ü.Hacıbəyli, Q.Qarayev, Ə.Bədəlbəyli, C.Cahangirov, Ə.Hüseynzadə, A.Rzayeva, S.Ələsgərov, müasir bəstəkarlar D.Əliyeva, P.Axundova, C.Allahverdiyev və G.Abdullazadənin Nizaminin sözlərinə yazdıqları əsərlər səsləndirilib.



Tanınmış vokalçılar – Xalq artistləri Gülnaz İsmayılova, Samir Cəfərov və Əməkdar artist İlham Nəzərovu konsertmeysterlər Svetlana Əhmədova, Dilşad Əliyeva və Ülviyyə Kazımova müşayiət edib. Əməkdar müəllim Təranə Yusifovanın rəhbərliyi ilə Azərbaycan Milli Konservatoriyası tələbə xorunun çıxışı da maraqla qarşılanıb.

***

Noyabrın 15-də Gəncə şəhərində festivalın açılış mərasimi keçirilib. Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) rəhbərliyi və mədəniyyət işçiləri Nizaminin məqbərəsini ziyarət ediblər. Sonra Nizami Gəncəvi Muzeyi ziyarət olunub.

F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Xalq çalğı alətləri orkestri və Dövlət Kamera Orkestrinin iştirakı ilə konsert proqramı təqdim olunub.

Festivalın ikinci günü Gəncə şəhərindəki Nizami Poeziya Teatrının "Nizami işığında" tamaşası nümayiş olunub. Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyasının qarşısında Gəncə Dövlət Dram Teatrı aktyorlarının ifasında Nizaminin poemalarının motivləri əsasında "Xəmsə" ədəbi-bədii kompozisiyası təqdim edilib. Filarmoniyanın "Xəmsə" estrada ansamblının çıxışı gecəyə rəng qatıb.

Konsertdən sonra mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev və Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk çıxış edərək festivalın əhəmiyyətini vurğulayıb, incəsənət ustalarına təşəkkürlərini bildiriblər.

***

Noyabrın 16-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Nizaminin "Yeddi gözəl" poeması əsasında böyük bəstəkar Qara Qarayevin yazdığı balet nümayiş olunub. Q.Qarayev yaradıcılığının parlaq nümunəsi olan "Yeddi gözəl" (1952) baletinin libretto müəllifi İsmayıl Hidayətzadə, Yuri Slonimski və Sabit Rəhman, quruluşçu baletmeysteri Pyotr Qusev, məsləhətçi və ayrı-ayrı rəqslərin quruluşçusu Qəmər Almaszadə, rəssamları Ənvər Almaszadə, Fyodr Qusak olub.

Tamaşada Əməkdar artistlər Anar Mikayılov (Bəhram şah), Nigar İbrahimova (Gözəllər gözəli), Cəmilə Kərimova (Bizans gözəli), Elmira Süleymanova (Slavyan gözəli), Samir Səmədov (Səməndər), həmçinin balet artistləri Samirə Məmmədova (Hind gözəli), Nigar Əliyeva (Xarəzm gözəli), Yuliya Ferştand (Çin gözəli), Ayan Eyvazova (Məğrib gözəli) iştirak ediblər.

***

Noyabrın 17-də M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Gənclər Kamera Orkestrinin (Baku Chamber Orchestra) konserti keçirilib. Orkestrin ifasında (dirijor – Əməkdar artist Fuad İbrahimov) Ü.Hacıbəylinin "Arazbarı" əsəri səsləndirilib. Opera müğənnisi, Vətən müharibəsi iştirakçısı, Prezident mükafatçısı Ataş Qarayevin ifasında Üzeyir bəyin "Sevgili canan" romansı maraqla qarşılanıb. Orkestrin ifasında Ü.Hacıbəylinin "Sənsiz" (solist – beynəlxalq müsabiqələr laureatı Mahir Tağızadə) və F.Əmirovun "Nizami" simfoniyası (bədii qiraət – Xalq artisti Zəhra Quliyeva) gecəyə rəng qatıb. Musiqi axşamına Q.Qarayevin "Yeddi gözəl" baletindən valsla yekun vurulub.

***

Gəncə şəhərinin Heydər Əliyev meydanında noyabrın 18-də fləşmob təşkil olunub. Gəncə RMİ, şəhər İcra Hakimiyyəti və Təhsil İdarəsinin dəstəyi, Gəncə Şəhər İctimai İştirakçılıq Məclisinin təşəbbüsü ilə hazırlanan fləşmob zamanı 8800 nəfərin iştirakı ilə Nizaminin portreti və 880 rəqəminin təsviri yaradılıb.

***

Su artıb həddini aşarsa əgər,
İçəni doyurmaz, mütləq qərq edər.

*"Xosrov və Şirin"*

Kamalına görədir şan-şöhrətin dünyada,
Onsuz adın, hünərin olar çətin dünyada.

*"Sirlər xəzinəsi"*

Noyabrın 19-da festival çərçivəsində Gəncə Dövlət Kukla Teatrı Nizaminin "Yeddi gözəl" poemasından məşhur "Xeyir və Şər" əhvalatı əsasında eyniadlı tamaşa nümayiş etdirib. Səhnə əsərinin quruluşçu rejissoru teatrın direktoru, Əməkdar artist Fərmail Paşayev, quruluşçu rəssamı Əntiqə Bədirovadır. Nizami rolunda Əməkdar artist Xudayət Əsgərov çıxış edib.

***

Nizami festivalı çərçivəsində daha bir tədbir noyabrın 20-də Milli Kitabxanada keçirilib. Nizaminin əsərlərinə çəkilmiş miniatürlərdən ibarət sərgi Mədəniyyət Nazirliyi, TÜRKSOY və Milli Kitabxananın birgə təşkilatçılığı ilə ərsəyə gəlib. Kitabxananın direktoru Kərim Tahirov, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli, Xalq rəssamları Arif Hüseynov və Sirus Mirzəzadə çıxış ediblər. Bildirilib ki, sərgidəki miniatürlərin bir qismi ilk dəfə nümayiş olunur.





Həmin gün Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı "Nizami ili"nə və festivala ən yaxşı töhfələrdən birini – Fikrət Əmirovun "Nizami" baletinin premyerasını təqdim etdi. "Nizami" baleti ilk dəfə 1991-ci ildə tamaşaya qoyulsa da, sonra uzun müddət səhnədən uzaq qalmışdı. Tamaşanın musiqi rəhbəri və dirijoru, Əməkdar artist Əyyub Quliyev, quruluşçu baletmeyster, Xalq artisti Kamilla Hüseynova və libretto müəllifi Əjdər Ulduz üçlüyünün işbirliyi sənətsevərlərə böyük bəstəkarın ecazkar musiqisi ilə süslənən səhnə əsərindən zövq almaq imkanı yaradıb. Nizami obrazını (şairin gənclik və ahıl dövrü) iki artist – Anar Mikayılov və Gülağası Mirzəyev, digər partiyaları Nigar İbrahimova (Afaq), Samir Səmədov (Əjdaha), Elmira Süleymanova (Tovuzquşu), Ayan Eyvazova (Şahin quşu), Timur Oduşev (Fərhad) və başqaları ifa ediblər.

***

Noyabrın 22-də Beynəlxalq Muğam Mərkəzində (BMM) TÜRKSOY-un nəşr etdiyi "Nizamini oxuyaq" ("Reading Nizami Ganjavi") və Azərbaycan Milli Kitabxanasının nəşr etdiyi "Nizami Gəncəvi. Biblioqrafiya" kitablarının təqdimatı keçirilib. Qonaqlar əvvəlcə mərkəzin foyesində "Nizami əlyazmaları dünya kitabxanalarında" adlı sərgi ilə tanış odublar.

Mədəniyyət naziri Anar Kərimov çıxış edərək deyib ki, Nizami Gəncəvi bütün Türk dünyası üçün bir işıq mənbəyi, bir örnəkdir. Nazir yeni nəşrlərin ərsəyə gəlməsində zəhməti keçənlərə öz təşəkkürünü bildirib.




TÜRKSOY-un Baş katibi Düsen Kaseinov bildirib ki, "Nizamini oxuyaq" kitab-albomunda Türk dünyası rəssamlarının Nizaminin əsərlərinə çəkdikləri miniatürlər də yer alıb.

Sonra AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli, M.Füzuli adına Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli, Milli Kitabxananın direktoru, professor Kərim Tahirovun çıxışları dinlənilib.

Tədbirdə həmçinin TÜRKSOY-un əlamətdar il münasibətilə təsis etdiyi "Nizami" xatirə medalının da təqdimatı olub. Konsert proqramında Nizaminin sözlərinə bəstələnən romanslar səsləndirilib.

***

AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda noyabrın 22-də keçirilən "Nizami Gəncəvi irsi əlyazmalarda, miniatürlərdə və musiqidə" mövzusunda elmi konfrans da festivalın yaddaqalan tədbirlərindən olub. TÜRKSOY-un




Baş katibi Düsen Kaseinovun da iştirak etdiyi konfransda maraqlı məruzələr dinlənilib. Tədbir çərçivəsində həmçinin institutda Nizami Gəncəvi əlyazmalarının tədqiqi şöbəsinin açılış mərasimi də olub.

***

Həmin gün Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində Gəncə RMİ-nin dəstəyi ilə şəhər uşaq rəssamlıq və incəsənət məktəblərinin şagird və müəllimlərinin Nizami "Xəmsə"sinin motivləri əsasında ərsəyə gətirdiyi 70-dən çox rəsm əsərinin yer aldığı sərgi nümayiş etdirilib.

***




Noyabrın 23-də festival çərçivəsində Milli Kitabxanada "Sözləri Nizaminindir" adlı disk-albomun təqdimatı keçirilib. Alboma şairin "İskəndərnamə" poeması əsasında radiotamaşanın lent yazısı, Nizaminin sözlərinə yazılmış mahnı və romanslar, F.Əmirovun "Nizaminin xatirəsinə" simli simfoniyası və Q.Qarayevin "Yeddi gözəl" baleti daxildir. Çıxışlardan sonra konsert proqramı təqdim olunub.



Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyir olmuş, kinindən ziyan.

*"İskəndərnamə" ("Şərəfnamə")*

Kim ki, xalqı bir gecə ədli ilə şad etdi,
O, demək, öz sabahkı evini abad etdi.

*"Sirlər xəzinəsi"*

# Mədəniyyətlər arasında körpü yaradan dühа

**Böyük söz ustadının adı ilə rövnəqlənən 2021-ci ilin iştirakçı dairəsi və əhəmiyyət baxımından ən irimiqyaslı tədbiri 15-26 noyabr tarixində Mədəniyyət Nazirliyinin təşkilatçılığı və Bakı Şəhər İcra Hakimiyyətinin dəstəyi ilə keçirilən Nizami Gəncəvi Beynəlxalq Forumu oldu. Forum həm Nizami Gəncəvi Beynəlxalq Festivalının, həm də ümumilikdə "Nizami ili"nin yekunu sayılacaq layihə idi.**



"Nizami Gəncəvi: mədəniyyətlər arasında körpü" mövzusuna həsr olunmuş tədbirdə 15 ölkədən rəsmilər, beynəlxalq təşkilatlar və diplomatik korpusun nümayəndələri, ümumilikdə 40-dan çox alim və ekspert iştirak edirdi.

Forumun "Fairmont Baku-Flame Towers" hotelində gerçəkləşən açılış mərasimində öncə Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə çıxış edərək tədbir haqqında məlumat verdi. Qeyd etdi ki, "Nizami Gəncəvi İli" münasibətilə Mədəniyyət Nazirliyi müxtəlif layihə və tədbirlər həyata keçirib. Nizami Gəncəvi Beynəlxalq Forumu bu silsilənin ən böyük tədbiridir.

Açılış mərasimində çıxış edən Baş nazirin müavini Əli Əhmədov bildirdi ki, böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığı ümumbəşəri dəyərlərə xidmət edir. Şairin yaradıcılığında tez-tez rast gələnən xeyir və şər, ədalətli cəmiyyət kimi anlayışlar bəşəriyyətin bütün dövrlərinə aiddir.

Mədəniyyət naziri Anar Kərimov çıxışında bildirdi ki, bu gün Azərbaycan dünyada mədəniyyətlərarası dialoq, tolerantlıq, sülh, əməkdaşlıq və dayanıqlı inkişaf kimi mütərəqqi ideyaların fəal təbliğatçısı kimi çıxış edir. Xalqımızın mədəniyyətinin, multikultural dəyərlərinin və baxışlarının formalaşdırılmasında Nizami Gəncəvinin müstəsna rolu olub. Şərqin böyük şairi və mütəfəkkiri olan Nizami dünya ədəbiyyatında dərin iz qoymuş dahi şəxsiyyətdir.

Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy çıxışında Nizami Gəncəvini dahi şair olmaqla yanaşı, astronomiya, fəlsəfə, coğrafiya, tibb və riyaziyyatı, eyni zamanda bir neçə dili mükəmməl bilən alim kimi səciyyələndirdi.

Özbəkistanın mədəniyyət naziri Ozodbek Nazarbekov Türk dünyasının iki böyük ədəbi şəxsiyyəti – Nizami Gəncəvi və Əlişir Nəvai yaradıcılıqlarını müqayisə etdi. Bildirdi ki, bu il Özbəkistan Prezidentinin sərəncamı ilə özbək xalqının dahi şairi və mütəfəkkiri, dövlət xadimi Əlişir Nəvainin 580 illiyi yüksək səviyyədə qeyd olunur.

Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy dedi ki, Nizami Gəncəviyə Moskvada və Sankt-Peterburqda heykəl qoyulub. Rusiyada hətta rus əsilli bir şairin hər iki şəhərdə heykəlinə az təsadüf olunur. Nizami Gəncəvi bu şəhərlərdə adının əbədiləşdirilməsinə layiqdir. O təkcə Azərbaycanın deyil, Şərqin dahi oğludur. Nizami Gəncəvi İslam dünyasında və daha geniş məkanda maarif işığı yandırıb. Həmin işıq bu gün də bizim üzərimizdədir.

Açılış nitqlərindən sonra Nizami Gəncəvi Beynəlxalq Forumunun Kommünikesi qəbul edildi. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev sənəd haqqında məlumat verdi. İştirakçılar sonra "Nizami əsərlərinin motivləri miniatür sənətdə" mövzusunda sərgi ilə tanış oldular.

## Nizaminin qəzəl və kəlamları fransız dilində

Forum çərçivəsində noyabrın 24-də fransız dilində nəşr edilmiş "Nizami Gəncəvi: qəzəllər və kəlamlar" ("Nîzâmî Gandjavî: Ghazals suivis de Aphorismes") kitabının təqdimatı oldu.

Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin (CNRS) əməkdaşı, islamşünas alim Kərim İfrak, Azərbaycanda Fransız İnstitutunun icraçı direktoru Conatan Hakan Ünlü, Azərbaycan Dillər Universitetinin Fransız dili leksikologiyası və üslubiyyatı kafedrasının müdiri Gülnarə Sadıxova kitab barədə fikirlərini bölüşdülər. Bildirildi ki, kitabda mərhum azərbaycanlı professor, filologiya elmləri doktoru Əli Musayev tərəfindən 1990-cı illərdə Nizami Gəncəvinin fransız dilinə tərcümə olunmuş 50 qəzəli və 50 kəlamı yer alıb.




***

Forumun ilk iş günü iki panel iclas keçirildi.

"Nizaminin Orta əsr Şərqində siyasi və ictimai ənənələrə təsiri" mövzusunda ilk panel iclası Bakı Slavyan Universitetinin kafedra müdiri, professor Rəhilə Qeybullayevanın moderatorluğu ilə gerçəkləşdi.

İclasda Fransanın "Musuomans en Franse" jurnalının baş redaktoru Jan Mişel Brun Rusiya Milli Kitabxanası Əlyazmalar departamentinin şərqşünaslıq sektorunun müdiri Olqa Vasilyeva, Ərzurum Atatürk Universitetinin professoru Nemət Yıldırım, Kırıkkale Universitetinin professoru Adnan Kara İsmayıloğlu müxtəlif mövzularda məruzə etdilər.

İkinci panel iclas "Nizami Gəncəvi "Xəmsə"sinin dünya ədəbiyyatına və mədəniyyətinə təsiri" mövzusuna həsr olunmuşdu. Fransa Milli Elmi Tədqiqatlar Mərkəzinin əməkdaşı Kərim İfrak, Pakistan Milli Akademiyası Folklor və Maddi Mədəni İrs İnstitutunun professoru Talha Ali Kushavaha, Macarıstanın Karoli Gaspar Uni-

Yaxşılar cilovu verməzlər pisə,
Satmazlar dostları yada, nakəsə.

*"Yeddi gözəl"*

Quyuya salsan da yaxşılığı bil,
Yenə qayıdacaq, o, itən deyil.

*"Leyli və Məcnun"*







versitetinin professoru Miklos Sarkozi, Bakı Slavyan Universitetinin kafedra müdiri, professor Rəhilə Qeybullayeva, kulturoloq, professor Fuad Məmmədov və fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqubun məruzələri dinlənildi.

***

"Nizami Gəncəvi "Xəmsə"sinin dünya ədəbiyyatına və mədəniyyətinə təsiri" mövzulu panel forumun ikinci günü, noyabrın 25-də də davam etdi. "LiFFt" nəşrinin baş redaktoru Marqarita Almuhammedova, Rusiya Milli Kitabxanasının şöbə müdiri Olqa Yastrebova, Şota Rustaveli adına Gürcüstan Ədəbiyyat İnstitutunun əməkdaşı Gaga Lomidze, Tbilisi Dövlət Universitetinin professoru Maka Elbakidze, Daşkənd Dövlət Pedaqoji Universitetinin professoru Erkin Nuriddinov, Ərdahan Universitetinin (Türkiyə) əməkdaşı Hanzade Güzeloğlu, türkiyəli digər araşdırmaçı Zaur Şüküroğlu məruzələrlə çıxış etdilər.

### Xatirə nişanı

Noyabrın 25-də Mədəniyyət Nazirliyi tərəfindən təsis edilən "Nizami Gəncəvinin 880 illiyi (1141-2021)" xatirə nişanı beynəlxalq forumun fəxri qonaqlarına təqdim olundu.

Xatirə nişanını forum iştirakçılarına mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev təqdim etdi. O, çıxışında xatirə nişanının dahi şairin yaradıcılığının təbliği baxımından əhəmiyyətini vurğuladı, onun beynəlxalq aləmdə Nizami irsini tərənnüm edən simvol kimi qiymətləndirdi.




### Nizami "Xəmsə"si özbəkcə

Noyabrın 25-də dahi Azərbaycan şairinin özbək dilində çap olunan "Xəmsə"sinin təqdimatı keçirildi. Nəşr Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi üzrə ərsəyə gəlib.

Təqdimatda çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevə dedi ki, tərcümə birbaşa orijinaldan edilib və bu da əsərin bədii dəyərinin qorunub saxlanılması deməkdir.

Özbəkistanın Azərbaycandakı səfiri Bəhram Əşrəfxanov, "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov, AMEA Əlyazmalar İnstitutunun baş direktoru, akademik Teymur Kərimli və başqaları nəşr layihəsinin əhəmiyyətini vurğuladılar.

Sonda Elnur Əliyev forumda özbək nümayəndə heyətinə "Nizami Gəncəvi – 880" xatirə nişanını təqdim etdi.

***

Forumun sonuncu günü – noyabrın 26-da iki panel iclası keçirildi.

"Xəmsə" dialoqlarının didaktik rolu" mövzusuna həsr olunan panel AMEA-nın Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu Ərəb ölkələri tarixi şöbəsinin müdiri Fərda Əsədovun moderatorluğu ilə gerçəkləşdi. İclasda İtaliyanın Piemonte Universitetinin professoru Stefania Sini, Özbəkistandan professor Bakijon Tukiyev, Daşkənd Dövlət Universitetinin müəllimi İlyas İsmayılov dahi Azərbaycan şairinin hikmət xəzinəsi olan "Xəmsə"sinin mövzu və ideya istiqamətləri haqqında məruzə etdilər.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinovun moderatorluğu ilə keçirilən axırıncı panelinin mövzusu "Sovet dövründə Nizami tədqiqatları" idi. Paneldə Tbilisi Dövlət Universitetinin əməkdaşı İrma Ratiani, Mirzə Uluqbəy adına Özbəkistan Dövlət Universitetinin Özbək ədəbiyyatı kafedrasının müdiri Hamidulla Baltabayev, Özbəkistanın "Darakchi" nəşriyyat evinin direktoru Rustamjon Cabbarov Nizaminin zəngin irsinin keçmiş ittifaq dövründə tədqiqi ilə bağlı məruzələrini təqdim etdilər.

### Nizami çətiri altında yeni görüşədək...

Paneldən sonra forumun bağlanışı oldu. Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək üç gün davam edən foruma qatılan hər kəsə təşəkkürünü bildirdi. Qeyd etdi ki, mədəniyyət həm də bəşəri dəyərdir. Nizami Gəncəvi də bizim mədəni dəyərimizdir. Nizami Gəncəvi Gəncədən doğan bir günəşdir. Səkkiz əsr keçməsinə baxmayaraq, Nizami öz hikmətləri ilə bu gün də böyük bir coğrafiyaya işıq saçır: "Gələcəkdə bir daha Nizami Gəncəvi çətiri altında görüşmək diləyi ilə sizlərə uğurlar arzulayıram".

Bununla da Nizami soraqlı daha bir tədbir tarixə qovuşdu. İnsanlıq var olduqca Nizami ideyaları da yaşayacaq.





Kamalındır dövlətin, kamalına arxalan,
Amalındır comərdlik, amalına arxalan.

*"Sirlər xəzinəsi"*

Heç qorxma acizə zülm edənlərdən,
Yoxsa qul olarsan onlara hökmən.

*"İskəndərnamə" ("İqbalnamə")*

# Kitabla görüş yeri

## Nizami işığında keçən VII Bakı Beynəlxalq Kitab Sərgisi

**2009-cu ildə əsası qoyulan və ənənəvi olaraq (iki ildən bir) təşkil olunan Bakı Beynəlxalq Kitab Sərgisi bu dəfə "Nizami ili"ndə gerçəkləşdi. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 6–10 oktyabr tarixində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi böyük söz ustadının 880 illiyinə həsr edilmişdi. Oxucu ilə kitabçının, yazarla naşirin görüş yeri Bakı Ekspo Mərkəzi idi...**

***

VII Bakı Beynəlxalq Kitab Sərgisinin açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Türkiyə mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan, bir neçə ölkənin Azərbaycandakı səfirləri, millət vəkilləri, elm və mədəniyyət xadimləri iştirak ediblər.

Baş nazirin müavini Əli Əhmədov açılış nitqində qeyd edib ki, bəşər sivilizasiyasını kitabsız və yazısız təsəvvür etmək mümkün deyil. Azərbaycan tarixinin qədim ənənələri də kitab və yazı ilə birbaşa bağlıdır. Nizami Gəncəvi kimi böyük dühalarımızın əsərlərinin günümüzə gəlib çatması da məhz yazı və kitabın sayəsində mümkün olub.

Mədəniyyət naziri Anar Kərimov bildirib ki, mədəniyyətin inkişafına, milli-mənəvi irsə diqqət və qayğı ilə yanaşan dövlətimiz kitaba, mütaliəyə böyük dəyər verir. 14 illik tarixə malik Bakı Beynəlxalq Kitab Sərgisi ölkəmizdə keçirilən müxtəlif sahələr üzrə beynəlxalq tədbirlər sırasında cəmiyyət tərəfindən böyük maraqla qarşılanan və iştirakçı baxımından kütləviliyi ilə seçilən layihələrdən biridir. Diqqətə çatdırılıb ki, builki sərgidə 13 ölkədən 43 qurum (nəşriyyat, kitabxana, səfirlik) və 120-dən çox yerli nəşriyyat-poliqrafiya və kitabla əlaqəli müəssisə iştirak edir. Beş gün ərzində müxtəlif formatda 200-dən çox tədbir təşkil olunacaq.




Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan sərgi çərçivəsində dahi şairin əsərləri ilə bağlı ayrıca guşə yaradıldığını vurğulayan nazir qeyd edib ki, sərginin əsas özəlliklərindən biri də onun qalib xalqın, Zəfər çalmış Azərbaycan dövlətinin təşkil etdiyi ilk beynəlxalq kitab bayramı olmasıdır.



Təhsil naziri Emin Əmrullayev kitabın cəmiyyət həyatındakı rolundan danışıb. Söyləyib ki, kitab təhsilin mərkəzində duran əsas anlayışlardan biridir, kitab mədəniyyətdir.

Türkiyənin mədəniyyət və turizm nazirinin müavini Ahmet Misbah Demircan kitab sərgilərinin keçmişlə bu günü, yazarla oxucuları eyni məkanda birləşdirdiyini vurğulayıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar sərginin əhəmiyyətindən danışıb, kitabın mütaliə vasitəsi kimi hələ də öz dəyərini qoruduğunu qeyd edib.

***

Qeyd edək ki, sərginin sponsoru "BP-Azərbaycan" şirkəti, baş TV tərəfdaşı İctimai Televiziya idi. Təşkilati dəstəyi "Caspian Event Organisers" şirkəti həyata keçirib.

Sərginin zəngin proqramında Nizami ünvanlı, mütəfəkkir şairin irsi ilə bağlı bir sıra tədbir və təqdimatlar da yer alıb.

Oktyabrın 8-də Mədəniyyət Nazirliyinin dəstəyi ilə Milli Kitabxananın reallaşdırdığı iki layihənin – "Nizami Gəncəvi. Biblioqrafiya" kitabının və "Sözləri Nizaminindir" CD albomun təqdimatı keçirilib.

Milli Kitabxananın direktoru, professor Kərim Tahirov çıxış edərək "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunan biblioqrafiyanı, eləcə də CD albomu "Nizami ili"nə töhfə adlandırıb.

Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli deyib ki, Milli Kitabxananın əməkdaşları tərəfindən hazırlanan kitab və CD albom tədqiqatçılar üçün faydalı mənbə olacaq.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və yayımlar baş idarəsinin müdir müavini Taner Beyoğlu bu il Azərbaycanda Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Nizami Gəncəvi İli", Türkiyədə isə Yunus Əmrənin vəfatının 700-cü ildönümü münasibətilə "Yunus Əmrə İli" elan olunmasını Türk dünyası adına mühüm hadisələr kimi xarakterizə edib.

Daha sonra Milli Kitabxananın dəvəti ilə beynəlxalq sərgiyə qatılan Rusiya, Bolqarıstan, Özbəkistan, Qırğızıstan və Gürcüstan milli kitabxanalarının rəhbərləri çıxış ediblər.

***

Beynəlxalq kitab sərgisi çərçivəsində Bakı Expo Mərkəzində Əməkdar rəssam Taryer Bəşirovun müəllifi olduğu "Bəhram Gur və Dürsəti" xalçasının təqdimatı keçirilib.

Müəllif bildirib ki, Nizaminin "Yeddi gözəl" poemasına həsr

*Vəhşi ilə dost olsa insan dünyada,*
*Vəhşi adətincə ömr edər o da.*

**“Leyli və Məcnun”**

*Çarpış dünya ilə şiri-nər kimi,*
*Yoxsa udar səni o, əjdər kimi.*

**“Yeddi gözəl”**

olunan xalça əsərin müxtəlif süjetləri əsasında qurulub. Ara səhnənin mərkəzində tağlı otaqda Bəhram Gur və yeddinci sarayın gözəli Dürsəti təsvir edilib. Sarayın ətrafında isə Dürsəti tərəfindən nəql edilən hekayədən fraqmentlər verilib. Azərbaycan Milli Xalça Muzeyinin Ənənəvi texnologiya şöbəsində ərsəyə gələn xalçanın toxucuları Əminə Əliyeva və Təranə Qasımovadır.





***







Milli Kitabxananın “Nizami Gəncəvi əlyazmaları dünya kitabxanalarında” adlı elektron məlumat bazasının təqdimatı da keçirilib. Vurğulanıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə Mədəniyyət Nazirliyi və Milli Kitabxana “Milli-mənəvi dəyərlərimizin Vətənə qayıdışı” layihəsi çərçivəsində dünyanın milli kitabxanalarında və muzeylərində mühafizə edilən Azərbaycan ədəbiyyatının klassiklərinə aid əlyazmaların müəyyən olunaraq elektron və kağız nüsxələrinin ölkəmizə gətirilməsini həyata keçirir. Layihə çərçivəsində Nizami, Nəsimi, Füzuli və digər klassiklərlə bağlı əlyazmaların nüsxələri Milli Kitabxanaya gətirilib.





***

Sərgi çərçivəsində Bakı Ekspo Mərkəzində “Nizami Gəncəvi və Aleksandr Puşkin bir arada” adlı ədəbi-musiqili kompozisiya təqdim olunub. Bakıdakı Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin (RİMM) təşkil etdiyi tədbirdə Emil İsmayılov “Azərbaycan” (N.Gəncəvinin dilindən), Teymur Kazımov “Мой город Баку” (“Mənim Bakı şəhərim”; A.Puşkinin dilindən) mahnılarını ifa ediblər.

RİMM-in nümayəndəsi Dmitri İqorov Azərbaycan və Rusiya arasındakı mədəni əlaqələrdən söz açıb.

***

VII Bakı Beynəlxalq Kitab Sərgisində Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Mədəniyyət Nazirliyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə əməkdaşlığı çərçivəsində ərsəyə gələn layihənin – N.Gəncəvinin “Yeddi gözəl” poeması əsasında uşaqlar üçün işlənmiş elektron kitabın təqdimat mərasimi də olub. Layihənin məqsədi gənc nəsli Azərbaycanın dahi şairi və mütəfəkkiri Nizami Gəncəvinin zəngin irsi ilə yaxından tanış etməkdir.

Sərgidə həmçinin sözügedən layihənin davamı olaraq, Respublika Uşaq Kitabxanası tərəfindən “Yeddi gözəl” poemasının jest dilində tərcüməsinin təqdimatı keçirilib.

## Köln Universiteti professorunun mühazirəsi

**VII Bakı Beynəlxalq Kitab Sərgisinin davam etdiyi günlərdə paytaxtımızda olan tanınmış alman şərqşünas, Köln Universitetinin professoru Stefan Vaydner (Stefan Weidner) Bakı Dövlət Universiteti (BDU) və Almaniyanın Azərbaycandakı Səfirliyinin reallaşdırdığı “Nizami həftələri” layihəsi çərçivəsində mühazirə oxuyub.**

BDU-nun Şərqşünaslıq fakültəsinin professor-müəllim heyəti və tələbələri, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Bakı Slavyan Universiteti tələbələrinin qatıldığı mühazirədə professor Stefan Vaydner “Şərqşünaslığa yenidən baxış. Niyə Şərq ideyası hələ də faydalıdır” mövzusunda çıxış edib. Qonaq Nizaminin Avropada tədqiqi, onun Qərb ölkələrində yaşamış yazıçı və şairlərə təsiri, tərcümə məsələləri, Şərq və Qərb ədəbi ənənələrinin mübadiləsi, son əsrlərdə ədəbi əlaqələrin təsir dairəsi və s. barədə danışıb, dinləyicilərin suallarını cavablandırıb.



Mərdə təmiz bir ad candan əfzəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir.

*"Leyli və Məcnun"*

Adil ol, şad yaşa ömrünü bütün,
Olmasın əlində açılmaz düyün.

*"İskəndərnamə" ("İqbalnamə")*

# Dünyada "Nizami Gəncəvi İli"

**Qüdrətli söz ustadının 880 illiyi münasibətilə Nizami dühasından nur saçılan dünyanın bir çox yerlərində yubiley tədbirləri keçirilib. Mədəniyyət Nazirliyinin, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi, səfirliklərimizin, mədəniyyət mərkəzlərimizin təşkilatçılığı, yerli qurumların iştirakı ilə sərgi və təqdimatlar, konfranslar, ədəbi-bədii axşamlar, konsert proqramları keçirilib. Onların bir qismini diqqətə çatdırırıq.**

***

**Türkiyədə** "Nizami Gəncəvi İli" münasibətilə reallaşan tədbirlərdə TÜRKSOY təşkilatçı və iştirakçı kimi çıxış edib.




Məlum olduğu kimi, 2021-ci il qardaş ölkədə "Yunus Əmrə İli" elan edilib. Türk dünyasının iki böyük dühası – dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 880 illiyi və böyük türk şairi və mütəfəkkiri Yunus Əmrənin vəfatının 700-cü ildönümü münasibətilə TÜRKSOY tərəfindən silsilə konsert proqramları keçirilib. 15–20 noyabr tarixini əhatə edən konsert turu Ədirnə, Təkirdağ, Bursa və Antalyada gerçəkləşib. "Türk dünyasının şah əsərləri" adlı konsertlərdə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyədən vokalçı və instrumental ifaçılar, Trakya Universiteti Balkan Simfonik Orkestri, Bursa Regional Dövlət Simfonik Orkestri və Antalya Dövlət Simfonik Orkestri çıxış edib.

***

**Rusiyada** – Moskva və Sankt-Peterburq şəhərlərində Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunan tədbirlər keçirilib. Moskvadakı Millətlər Evində keçirilən tədbirdə "Bakılılar" klubunun rəhbəri Cəmil Sadıxbəyov, Maksim Qorki adına Dünya Ədəbiyyatı İnstitutunun aparıcı elmi işçisi, nizamişünas Abuzər Bağırov, tədbirə videobağlantı ilə qoşulan alimlərin çıxışları dinlənilib.

Sankt-Peterburqdakı Dövlət Ermitajında Nizaminin 880 illiyinə həsr olunan tədbirdən əlavə, bu şəhərdəki Rusiya Milli Kitabxanasında da Nizami Gəncəvinin sözləri əsasında konsert proqramı təqdim olunub, "Nizaminin sözünü hiss et" adlı sərgi açılıb. Tədbirdə Azərbaycan mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva və kitabxananın direktoru Vladimir Qronski çıxış ediblər.

***

**Polşada** – Kaliş şəhərində Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri, Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Nizami Gəncəvinin 880 illiyi münasibətilə "Azərbaycan notası – simfonik konsert" təşkil olunub. Kaliş Filarmoniyasının simfonik orkestri və solist, tanınmış viola ifaçısı Kşiştof Timendorf Fikrət Əmirovun "Nizami" və Qara Qarayevin "Yeddi gözəl" baletlərindən parçalar səsləndiriblər.

Daha bir tədbir Varşavada Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və Polşadakı səfirliyimizin təşkilatçılığı ilə gerçəkləşib. Səfir Nərgiz Qurbanova, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Polşa Elmlər Akademiyasının rəhbəri Jeji Duşınski çıxış ediblər. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, AMEA, Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycanın Polşadakı Səfirliyinin birgə əməkdaşlığı çərçivəsində Nizami haqqında polyak dilində nəşr olunan "Kağıza incitək sözlər düzən şahlar şahıyam" kitabı və poçt markaları təqdim olunub.

***




**Özbəkistanda** Nizami Gəncəvinin 880 illiyi dahi Azərbaycan şairini özünə ustad sayan, onun "Xəmsə"sinə nəzirə yazan Əlişir Nəvainin 580 illiyi ilə bir arada qeyd olunub. Nəvainin vətənində Nizamiyə dərin rəğbət bəslənilir. Daşkənd Dövlət Pedaqoji Universitetinin Nizaminin adını daşıması da buna örnəkdir.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) tərəfindən dahi şairə həsr olunan silsilə tədbirlər keçirilib. Tədbirlərin açılış mərasimində Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Universitetinin tələbələri Nizaminin əsərləri əsasında bədii kompozisiyanı təqdim ediblər. AMM-in direktoru Samir Abbasov, Nizami adına DDPU-nun professoru Erkin Nuriddinov çıxış ediblər. Özbəkistanın muğam (makom) ustası Davron Kadırovun Nizaminin qəzəlləri üstündə ifası maraqla qarşılanıb.

Dekabrın 1-də AMM-in təşəbbüsü ilə Daşkənddə keçirilən "Nizami Gəncəvi və Əlişir Nəvai mədəniyyət və ədəbiyyat günləri" çərçivəsində Əbu Reyhan Biruni adına Şərqşünaslıq İnstitutunda "Nizami Gəncəvi və Əlişir Nəvai əsərləri əlyazmalarda" adlı sərgi təşkil olunub.

***

**Misirdə** – məşhur İskəndəriyyə Kitabxanasında Nizaminin 880 illiyinə həsr olunan tədbir keçirilib. Nizaminin İskəndəriyyə Kitabxanasındakı büstünün önünə gül dəstələri qoyulub. Azərbaycanın Misirdəki səfiri Tural Rzayev şairin zəngin irsi barədə danışıb. İskəndəriyyə Kitabxanasının direktoru Mustafa əl-Fəki bildirib ki, Nizami Gəncəvi Şərqin dahi şəxsiyyətlərindən biridir. Misirdə Azərbaycan diasporunun rəhbəri Seymur Nəsirov iki ölkənin tarixi və mədəni irsi ilə bağlı ərəb mənbələrində olan faktlardan söz açıb.

***

**Ukraynada** – bu ölkənin ikinci böyük şəhəri olan Xarkovda Nizami Gəncəvinin abidəsinin açılış mərasimi keçirilib. Sentyabrın 15-də keçirilən mərasimdə

Hər bir dərdə qatlaş, möhkəm duraraq,
Gözlə ki, basmasın yük səni ancaq.

"Xosrov və Şirin"

Mərdə layiq sifət deyildir, inan,
Ki, bal oğurlansın bal arısından.

"Yeddi gözəl"



Azərbaycan mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev, Azərbaycanın Ukraynadakı səfiri Elmira Axundova, Xarkov Şəhər Şurasının katibi, merin səlahiyyətlərini icra edən İqor Terexov, Xarkov Vilayət Dövlət Administrasiyası sədrinin müavini Yevgeni Qritskov, deputatlar, Azərbaycan diasporunun təmsilçiləri, şəhər sakinləri iştirak ediblər.

Abidənin müəllifi həmvətənimiz, Ukraynanın Xalq rəssamı, tanınmış heykəltaraş Katib Məmmədovdur. Abidə şəhərin mərkəzi hissəsində, Feyerbax meydanında qoyulub.

Kiyev Beynəlxalq Kitab Sənəti Festivalı çərçivəsində Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasının Ukrayna dilinə tərcümə olunmuş kitabının təqdimatı olub. Ukraynada "Yaroslavov Val" nəşriyyatında işıq üzü görən kitab Azərbaycan Dövlət Tərcümə Mərkəzinin layihəsidir.

***

**Çində** – Pekin Xarici Dillər Universitetinin (PXDU) Azərbaycan dili kafedrasında "Nizami irsi" layihəsi həyata keçirilib. Kafedranın müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev bildirib ki, layihə üzrə Nizaminin əsərlərinin, nizamişünaslığa aid araşdırmaların Çin dilinə tərcüməsi də nəzərdə tutulur. Qeyd edək ki, Çinin Təhsil Nazirliyinin müvafiq qərarına əsasən, Pekin Xarici Dillər Universitetində 2018-2019-cu tədris ilindən etibarən Azərbaycan dili üzrə kadr hazırlığı başlanıb.

***

**Gürcüstanda** – Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Ni-





zami Gəncəvinin 880 illiyinə həsr olunmuş rəsm sərgisi açılıb. İyulun 8-də keçirilən mərasimdə bu ölkədə səfərdə olan Azərbaycanın mədəniyyət naziri Anar Kərimov, Gürcüstan mədəniyyət nazirinin müavini Kaxa Sixarelidze iştirak ediblər. Anar Kərimov qonşu Gürcüstanda bu cür sərgilərin açılmasının mədəni əlaqələrimizin inkişafına xidmət etdiyini bildirib. Kaxa Sixarelidze bildirib ki, N.Gəncəvinin əsərlərinə Gürcüstanda da böyük maraq var. Onun fəlsəfi fikirləri bu gün də sevilir və gələcək nəsillər üçün elm mənbəyi olacaq. Tədbirdə Azərbaycanın Gürcüstandakı Səfirliyinin Nizaminin 880 illik yubileyi ilə əlaqədar elan etdiyi rəsm müsabiqəsinin qalibləri də təltif olunub.

***

**İtaliyada** Nizami Gəncəvinin 880 illik yubileyi Heydər Əliyev Fondu və ölkəmizin səfirliyinin təşkilatçılığı ilə paytaxt Romanın "Villa Borghese" parkında qeyd olunub.

Xatırladaq ki, 2012-ci ildə "Villa Borghese" parkında Heydər Əliyev Fondunun dəstəyi ilə Nizaminin abidəsi ucaldılıb. Tədbir iştirakçıları abidəni ziyarət ediblər. Sonra parkda yerləşən "Casa del Cinema" kinoteatrında bədii-musiqili tədbir keçirilib. Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə, "Sandro Teti Editore" nəşriyyat evinin rəhbəri Sandro Teti və türkoloq, islamşünaslıq elmləri doktoru Federiko De Renzi çıxış ediblər. Tədbirdə "Sandro Teti Editore" tərəfindən nəşr olunmuş şərqşünas-alim Y.Bertelsin "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" kitabının italyan dilinə ilk akademik tərcüməsi də təqdim olunub.




***

**UNESCO-da** (Paris) Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi, səfir Elman Abdullayev, UNESCO Baş direktorunun mədəniyyət işləri üzrə müavini Ernesto Ottone Ramirez, Türkiyənin UNESCO yanında daimi nümayəndəsi, səfir Altay Cengizer çıxış ediblər.

Ernesto Ottone Ramirez Nizami Gəncəvinin fəlsəfi ideyalarından danışıb: "Nizami Gəncəvi əsərlərində ifadə olunan dəyərlər arasında ən əsası mədəniyyətlərarası dialoqdur ki, o da bu günün çağırışıdır. Onun mədəniyyətlərarası mübadiləyə açıq olan dünyagörüşü insanı valeh edir".

Nizami əsərlərinin motivləri əsasında çəkilmiş miniatürlərdən ibarət sərgi tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb. Azərbaycanlı pianoçu Etibar Əsədli və fransız violonçelçi Albertin Obert şairin sözlərinə yazılmış musiqiləri ifa ediblər.

***

**AŞPA-da** (Strasburq) – qurumun payız sessiyası zamanı Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar sərgi açılıb. Sərgi Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycanın Avropa Şurası yanında Daimi Nümayəndəliyi tərəfindən təşkil edilib. Sərgidə Nizaminin Heydər Əliyev Fondu tərəfindən nəşr edilmiş fransız və ingilis dillərində kitabları, "Xəmsə" motivləri əsasında çəkilmiş miniatürlər nümayiş olunub.



Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz.

*“Leyli və Məcnun”*

Gecə şam nə qədər şən-şən gülümsər,
Pərvanə seyri də o qədər sürər.

*“İskəndərnamə” (“Şərəfnamə”)*

# Paytaxtda “Nizami ili”

**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əhatə etdiyi mədəniyyət ocaqlarında – teatr, konsert müəssisələrində, mədəniyyət mərkəzi və kitabxanalarda “Nizami ili” ilə bağlı müxtəlif təqdimatlar, müsabiqələr keçirilib, şairin yaradıcılığını əks etdirən videomateriallar hazırlanıb, sərgilər təşkil olunub. Əlamətdar il münasibətilə baş idarənin də dəstək verdiyi tədbirlər gerçəkləşib.**



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin F.Əmirov adına 6 nömrəli onbirillik İncəsənət məktəbi və Cövdət Hacıyev adına 3 nömrəli onbirillik Musiqi məktəbinin iştirakı ilə “Nizami Gəncəvinin əsərləri Azərbaycan bəstəkarlarının yaradıcılığında” mövzusunda virtual elmi konfrans keçirilib.

***



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Bakı Uşaq və Gənclər Teatrı (BUGT) “Sözün nizamı” adlı bədii qiraət festivalı keçirib. BUGT-nin “Bir teatr, bir festival” layihəsi çərçivəsində reallaşdırdığı sayca beşinci festivalda aktyorların ifasında Nizami poeziyasından nümunələr teatrın “Youtube” kanalında yerləşdirilib. Ümumilikdə 23 videoçarx tamaşaçılara təqdim olunub. Tamaşaçıların səsverməsinə əsasən, Gülər Ləzgiyeva, Ədalət Ağaverdiyev (“Sənsiz”əm – “Gəl” kompozisiyası) I, Rauf Hüseynli (“Bu gecə yatmaq nədir” qəzəli) II, Türkan Şahmarlı (“Qoy sənə söyləsin” qəzəli) III yerləri tutublar. Festivala 10 mart – Milli Teatr Günündə yekun vurulub, baş idarə tərəfindən qaliblərə diplomlar təqdim olunub.

***

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşkilatçılığı və “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi, Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, Bakı Xoreoqrafiya Akademiyasının dəstəyi ilə Şirvanşahlar sarayında Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

Fondun prezidenti Günay Əfəndiyeva tədbiri açaraq qeyd edib ki, Nizami Gəncəvinin qoyub getdiyi zəngin miras, onun söz hikmətinin dəyəri əsrlərə sığmır. Ona görə də Nizami bütün zamanların müasiri olaraq qalacaq.

Mədəniyyət naziri Anar Kərimov qeyd edib ki, Nizami Azərbaycandan kənara çıxmasa da, əsərləri, fəlsəfi fikirləri Türk dünyasına, Yaxın Şərqə, hətta bütün dünyaya yayıldı, örnək oldu.

Gecədə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun himayəsi ilə yaradılmış “Dədə Qorqud” kamera orkestrinin konsert proqramı təqdim olunub. Xalq artisti Yalçın Adıgözəlovun dirijorluq etdiyi orkestr Üzeyir Hacıbəyli, Qara Qarayev və Fikrət Əmirovun Nizami Gəncəvi irsindən bəhrələnərək yaratdıqları musiqiləri ifa edib.

## Səhnədən keçən irs

**Milli teatr sənətimizin inkişafının bütün mərhələlərində Nizaminin həyat və yaradıcılığı səhnədə ön planda olub. Dahi şairin 880 illiyində də teatrların repertuarına nəzər salarkən bunu görürük.**

Akademik Opera və Balet Teatrının repertuarında uzun səhnə ömrünü yaşayan “Yeddi gözəl” (Qara Qarayev) baletini xüsusi qeyd etməliyik. Bundan başqa, “Leyli və Məcnun” ( Qara Qarayevin eyniadlı simfonik poeması əsasında), “Xeyir və Şər” (Tofiq Bakıxanov) birpərdəli baletlərini, həmçinin dahi şairin “Xəmsə”sindən seçmələrlə ərsəyə gələn “Nizami” (Fikrət Əmirov) baletini də xatırlamalıyıq.

Akademik Milli Dram Teatrının səhnəsində uzun müddətdir oynanılan “Qətibə İnanc” tamaşası M.S.Ordubadinin “Qılınc və qələm” romanının motivləri əsasında səhnələşdirilib. Tamaşanın mövzu və ideya yükü Nizaminin həyat və yaradıcılığıdır.

Akademik Rus Dram Teatrının repertuarında uzun illərdir “Yeddi gözəl” əsəri əsasında hazırlanan eyniadlı tamaşa var.

Akademik Musiqili Teatr şairin 880 illiyinə həsr olunmuş “Sənsiz” adlı xoreoqrafik kompozisiyanı təqdim edib.

Teatrların repertuarlarındakı Nizami mövzulu əsərlər sırasında uşaq və gənclərlə bağlı nümunələr diqqəti xüsusilə cəlb edir. “Sirlər xəzinəsi” poeması əsasında ərsəyə gələn “Xeyir və Şər” tamaşası Dövlət Gənc Tamaşaçılar, A.Şaiq adına Azərbaycan Dövlət Kukla, Bakı Uşaq və Gənclər teatrlarının, eləcə də ölkədəki digər kukla teatrlarının repertuarında yer alıb. Şairin yubiley ilində Gəncə Dövlət Dram Teatrı isə “Xəmsə” adlı kompozisiya hazırlayıb.



photo:sevinj.aslanova

***

Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının (ATXİ) təşkilatçılığı ilə “Nizami Gəncəvi İli” çərçivəsində 29-30 apreldə “Sənsiz” adlı bədii qiraət müsabiqəsi keçirilib.

Münsiflərin qərarına əsasən, birinci yerin qalibi müəyyənləşməyib. II yerə Bakı Uşaq və Gənclər Teatrının aktyoru Niyaz Qasımov, Akademik Rus Dram Teatrının aktyoru Yaroslav Trifonov, III yerə Mingəçevir Dövlət Dram Teatrının aktrisası, Xalq artisti Ella Yaqubova, Şuşa Dövlət Musiqili Dram Teatrının aktrisası Bahar Həmzəyeva layiq görülüb.

Hər kim qənaətlə əgər şad olar,
O, hörmətli olar, sərazad olar.

"Yeddi gözəl"

Sözü nəzmə çəkmək asandır, asan,
Gərək söz üstündə sən can qoyasan.

"Xosrov və Şirin"

# Nizami və musiqi

**Aprelin 30-da Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin təşkilatçılığı ilə "Nizami və musiqi" adlı beynəlxalq onlayn konfrans keçirilib. Konfransa Azərbaycan, Avstriya, Almaniya və Türkiyədən 30-a yaxın tədqiqatçı qatılıb.**

Muzeyin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova konfransı açaraq Nizami yaradıcılığının musiqi sənətində xüsusi yer tutduğunu, şairin poema və qəzəlləri əsasında müxtəlif janrlarda əsərlərin bəstələndiyini deyib.

Konfransda "Nizami yaradıcılığında musiqi", "Nizami Gəncəvi: musiqi alətləri", "Erkən Orta əsrlər dövrünün ünlü ortaq türk alimləri – Fərabi, İbn Sina və Nizami Gəncəvinin musiqi və musiqi tərbiyəsi haqqında fikirləri", "Səhnə əsərlərində Nizami Gəncəvi obrazı" və digər mövzularda məruzələr dinlənilib.

***



Mayın 5-də Bəstəkarlar İttifaqında "Nizami və musiqi" mövzusunda elmi konfrans keçirilib. Əməkdar incəsənət xadimi, professor İmruz Əfəndiyevanın "Azərbaycan musiqişünaslıq elmində dahi Nizamiyə həsr olunmuş əsərlər", sənətşünaslıq üzrə fəlsəfə doktorları Könül Nəsirovanın "Boris Asafyevin "Slavyan gözəli" operasının yaranma tarixi", Bənövşə Rzayevanın "Nizami dövrünün "Rəhab" dəsgahı bəstəkar yaradıcılığında", Həbibə Məmmədovanın "Azərbaycan bəstəkarlarının xor əsərlərində Nizami poeziyası", Aytən Babayevanın "Soltan Hacıbəyovun "İskəndər və çoban" operası", musiqişünas Nərgiz Qulamovanın "Nizami mövzusu Tofiq Bakıxanovun yaradıcılığında ("Xeyir və Şər" baleti)" mövzularında məruzələri dinlənilib.

***

Noyabrın 25-də ABİ-nin Ü.Hacıbəyli adına konsert salonunda gənc bəstəkarların kamera-vokal əsərlərindən ibarət "Nizami və musiqi" adlı konsert keçirilib. Ülkər Aşurbəyovanın "Gözüm aydın, gözümə surəti-canan görünür", Lalə Əhmədovanın "Görünür", Elvin Quliyevin "Gecə", Aydan Əliyevanın, "Olacaqsan", Ümidə Fətəliyevanın "Ey dost", Vəfa Bağırzadənin "Eşq", Hakim Məmmədlinin "Gözüm aydın" və Sara Dilrubanın "Bu qəlbim ahuzar edər" adlı əsərləri səsləndirilib.

***

Azərbaycan Bəstəkarlar İttifaqı (ABİ) "Nizami Gəncəvi İli"ndə qəzəl-romans janrında müsabiqə keçirib. İyunun 29-da müsabiqə qalibləri mükafatlandırılıb.

İttifaqın sədri, Xalq artisti, professor Firəngiz Əlizadə qocaman bəstəkarlarla bərabər gənc bəstəkarların da qatıldığı müsabiqənin əhəmiyyətindən danışıb. ABİ-nin katibi, Əməkdar incəsənət xadimi, münsiflər heyətinin üzvü Zemfira Qafarova müsabiqəyə maraqlı əsərlərin təqdim edildiyini deyib.

Birinci dərəcəli mükafata Xalq artisti Dadaş Dadaşov, ikinci dərəcəli mükafata sənətşünaslıq namizədi Lalə Cəfərova, üçüncü dərəcəli mükafata Xalq artisti Azər Dadaşov layiq görülüb. Bəstəkarlardan Tahir İbişov, Fərid Fətullayev və Kəmalə Əlizadə fəxri diplomla təltif olunublar.

***



Dekabrın 3-də Qara Qarayevin Ev-Muzeyində "Musiqi Nizami "Xəmsə"sinin səhifələrində" kitabının (müəlliflər Alla Bayramova və Rauf Şeyxzamanlı) və "Nizami və musiqi" beynəlxalq onlayn konfransının materialları toplusunun təqdimatı keçirilib.



## Muzey eksponatının hekayəsi

**"Nizami ili" çərçivəsində Mədəniyyət Nazirliyinin "Muzey eksponatının hekayəsini sən danış" layihəsi üzrə növbəti müsabiqə reallaşıb.**

Dekabrın 1-də Milli İncəsənət Muzeyində müsabiqənin yekunlarına həsr olunmuş mərasimdə çıxış edən mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva diqqətə çatdırıb ki, 2020-ci ildə əsası qoyulan layihə cəmiyyətdə muzeylərə marağın artırılması, yaradıcılıq fəaliyyətinin təşviqi və istedadlı müəlliflərin aşkara çıxarılması məqsədi daşıyır. Budəfəki müsabiqə Nizami yaradıcılığının, o cümlədən "Xəmsə" motivli muzey eksponatların təbliğinə xidmət edib.

Müsabiqənin 50-dən çox iştirakçısı arasından üç nəfər qalib seçilib. I yerə Nərgiz Həşimova ("Şəhid ilə Xarıbülbülün məhəbbəti"), II yerə Aişə Səfərova ("Bəhram şah yeddi gözəlin portretinə baxır"), III yerə Ömər Məmmədzadə ("Nakam sevginin xatirəsi") layiq görülüb.

## "Xəmsə" Şərq-Qərb mədəni əlaqələrində

**AMEA Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin təşkilatçılığı ilə 25–27 noyabr tarixində "Nizami Gəncəvi "Xəmsə"sinin Şərq-Qərb ədəbi-mədəni əlaqələri sistemində yeri və yaratdığı yeni istiqamətlər" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**

Hibrid formatda təşkil edilən elmi konfransı muzeyin baş direktoru, akademik Rafael Hüseynov açaraq Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində özünəməxsus yerə malik nadir şəxsiyyət olduğunu söyləyib. Bildirib ki, Nizami yaradıcılığının miqyası, müraciət etdiyi mövzularla bütün dünya xalqlarının şairidir, bütün millətlər Nizami yaradıcılığında özünü tapa bilər. Təsadüfi deyil ki, farsdilli, rusdilli, türkdilli və digər xalqların ədəbiyyatında Nizami Gəncəviyə yüzlərlə nəzirə yazılıb.

Konfransa Azərbaycanın müxtəlif elm, təhsil ocaqları ilə yanaşı, Türkiyə, Qazaxıstan, Özbəkistan və İtaliyadan tanınmış şərqşünas alimlər qatılıb. 11 bölmə iclasında ümumilikdə 100-dən artıq məruzə təqdim olunub.



Xəcalət çəkəni etməzlər zəlil,
Bu zülmkarlıqdır, ədalət deyil.

*"Yeddi gözəl"*

Xalqa rahatlıq istə, əzmə, incitmə onu,
Utanmaqdan başqa şey deyil bu işin sonu.

*"Sirlər xəzinəsi"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Dahi şair və mütəfəkkir Nizami Gəncəvi (1141–1209) Azərbaycan xalqının bəşər mədəniyyətinə bəxş etdiyi ən qüdrətli söz ustadı, bənzərsiz fikir adamıdır. Nizaminin zəngin irsi Azərbaycandan dünyaya açılan ədəbiyyat qapısı, yurddan cahana yayılan söz-sənət, təfəkkür ziyasıdır.**



Nizami Azərbaycanın qədim mədəniyyət və sənət mərkəzlərindən olan Gəncə şəhərində dünyaya göz açıb, burada təhsil alıb, əsrlərdir ideya-bədii təravətini itirməyən hikmət xəzinəsi – "Xəmsə"sini də doğma yurdunda ərsəyə gətirib.

Gəncənin zəngin elm və ədəbi-mədəni mühitinin şairin dünyagörüşünün formalaşmasında necə böyük rol oynaması Nizaminin zəngin ədəbi mirası ilə təsdiq olunur. Gəncə dahi şairin əbədi imzasının, sənət möhürünün məkanıdır. Gəncə deyiləndə Nizami, Nizami deyiləndə Gəncə yada düşür...

***

Prezident İlham Əliyevin sərəncamına əsasən, böyük mütəfəkkirin 880 illiyi münasibətilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi ilə əlaqədar respublikamızın hər guşəsində, eləcə də xarici ölkə və beynəlxalq təşkilatlarda rəngarəng yubiley tədbirləri keçirilir. Gəncə şəhəri isə dünya şöhrətli övladının yubileyini daha möhtəşəm, maraqlı tədbirlərlə qeyd edir. İlin əvvəlindən Gəncə Regional Mədəniyyət İdarəsinin tabe müəssisələrində və digər mədəniyyət ocaqlarında Nizami soraqlı müxtəlif səpkili layihələr həyata keçirilib.

Gəncə Şəhər İcra Hakimiyyətinin dəstəyi, Gəncə Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə Heydər Əliyev meydanında Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ümumşəhər tədbiri keçirilib. Tədbirdə şəhərin rəhbərliyi, millət vəkilləri, Türkiyə və Gürcüstanın Gəncədəki baş konsulları, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Yubiley tədbirinin iştirakçıları əvvəlcə sərgi ilə tanış olublar. Çıxışlarda bildirilib ki, Nizami bütün ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Gəncədə yaşayıb, dünya ədəbi-fəlsəfi düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini burada qələmə alıb. Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin əsərlərinə çəkilən və bu gün ən məşhur kitabxana və muzeyləri bəzəyən miniatürlər Şərqdə incəsənətin inkişafına təkan verib.

Rəsmi hissədən sonra Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə" ədəbi-bədii kompozisiyası nümayiş etdirilib. Gəncə Dövlət Filarmoniyası Xalq çalğı alətləri ansamblının (bədii rəhbər – Əməkdar artist Elçin Elçiyev) hazırladığı konsert proqramı dahi bəstəkar Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" ilə başlayıb. Nizaminin sözlərinə yazılmış mahnı və romanslar, ölkəmizi və dahi şairin yurdunu vəsf edən musiqilər səsləndirilib.

***

"Nizami Gəncəvi İli" çərçivəsində Gəncədə keçirilən növbəti ümumşəhər tədbiri də yaddaqalan olub. İdarə, müəssisə, təşkilat və hüquq mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri Nizami Gəncəvinin abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər.



Şəhərin Cavadxan küçəsi boyunca təşkil edilən mərasim Gəncə Dövlət Dram Teatrının təqdimatında "Xəmsə" adlı ədəbi-bədii kompozisiya ilə açılıb. "Ozan" qədim milli musiqi alətləri ansamblı, "Xəmsə" ritm qrupu, "Göygöl" Dövlət Mahnı və Rəqs Ansamblı, "Gəncə qönçələri" və digər musiqi kollektivlərinin çıxışları tədbirə rəng qatıb.

Şəhərdəki Rəssamlıq və İncəsənət məktəblərinin, eləcə də Uşaq-gənclər inkişaf mərkəzinin yetirmələri və şəhər sənətkarlarının əl işlərindən ibarət sərgi nümayiş olunub.

Gəncə Dövlət Kukla Teatrının kollektivi də tədbirə öz töhfəsini verib. Kollektiv Nizaminin "Yeddi gözəl" poemasından "Xeyir və Şər" nağılını təqdim edib. Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət evi, Samux rayon Sərkar kənd Uşaq musiqi məktəbinin kollektivləri də maraqlı çıxışları ilə tamaşaçıların zövqünü oxşayıb. Daha sonra Gəncə Dövlət Filarmoniyasının önündə konsert proqramı təqdim olunub. Gəncə Urban Mərkəzində isə "Gəncəsənət" və "Gəncəkitab" sərgi-yarmarkası təşkil olunub.

***

Gəncə RMİ-nin təşkilatçılığı ilə dahi şairin məqbərəsi ərazisində "Nizami yurdu – Gəncə" adlı tədbir keçirilib.

İdarənin rəisi Vasif Cənnətov, rəis müavini Asəf Məmmədov, Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun direktoru Cumalik Rəhimov, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Gəncə Regional İdarəsinin rəisi Həsən Mirzəyev və digər iştirakçılar şairin məqbərəsini ziyarət ediblər.

Tədbirin bədii hissəsində Gəncə Dövlət Dram Teatrı aktyorlarının ifasında "Xəmsə"nin motivləri əsasında hazırlanmış ədəbi-bədii kompozisiya təqdim olunub. F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası Xalq çalğı alətləri orkestrinin müşayiəti ilə orkestrin solisti, Əməkar mədəniyyət işçisi Mehparə Cəfərova Ü.Hacıbəylinin Nizaminin sözlərinə yazdığı "Sevgili canan" romansını ifa edib.

Belə misal çəkmiş aqil bir insan:
"Qurd girməz sürüyə, yatmasa çoban".

"İskəndərnamə" ("İqbalnamə")

Poladdan dağ olsa yenə də, inan,
Onu parça-parça dağıdar insan.

"Xosrov və Şirin"



***

Regional idarə və Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu Nizami Gəncəvi məqbərə filialının birgə təşkilatçılığı ilə "Nizami və vətənpərvərlik" mövzusunda tədbir keçirilib.

Öncə Vətən müharibəsi şəhidlərinin əziz xatirəsinə ehtiram olaraq F.Əmirov adına Gəncə Dövlət Filarmoniyası muğam üçlüyünün ifasında "Xudayar təsnifi" təqdim edilib.

Regional idarənin rəisi Vasif Cənnətov çıxış edərək "Nizami ili" çərçivəsində idarənin tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində keçirilən ənənəvi və onlayn tədbirlər haqqında söz açıb.

Tədbir Gəncə Dövlət Filarmoniyası muğam üçlüyünün dahi şairə həsr etdiyi musiqi nömrəsi ilə başa çatıb.

***

Gəncə RMİ-nin təşəbbüsü ilə "Nizami məqbərəsinin tarixi və taleyi" mövzusunda onlayn tədbir təşkil olunub. Tədbirdə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin sektor müdiri Mahir Qəhrəmanov, AMEA Gəncə Regional Bölməsinin şöbə müdiri, professor Xəlil Yusifli, Türkiyənin Səlcuq Universitetinin professoru Ali Temizel və Nizami Gəncəvi Muzeyinin direktor əvəzi Könül Süleymanovanın çıxışları dinlənilib.

Nizami məqbərəsinin tarixi, memarlıq xüsusiyyətləri haqqında söz açılıb.

***

Gəncə şəhər Heydər Əliyev Mərkəzində nizamiganjavi.az saytının təqdimat mərasimi keçirilib. Tədbirdə şəhərin icra başçısı Niyazi Bayramov, Almaniyanın ölkəmizdəki səfiri Volfqanq Maniq, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, millət vəkili Müşfiq Cəfərov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, ictimaiyyət nümayəndələri iştirak ediblər. Məlumat verilib ki, yeni saytda Nizami Gəncəvinin həyat və yaradıcılığı, habelə dahi şair haqqında tədqiqat əsərləri, mətbuat materialları yer alıb.

Təqdimatda Gəncə Dövlət Dram Teatrı aktyorlarının "Xəmsə" motivləri əsasında hazırladığı ədəbi-bədii kompozisiya, Gəncə Dövlət Filarmoniyasının solistləri Mehparə Cəfərova və Ruhiyyə İsgəndərovanın ifasında musiqi nömrələri maraqla qarşılanıb. İncəsənət və Rəssamlıq məktəbləri şagirdlərinin əl işlərindən ibarət sərgiləri nümayiş etdirilib.

***




Gəncə Dövlət Filarmoniyasında keçirilən konsert də Nizami yurdunun yubiley ilinə yaddaqalan töhfələrindən olub. Filarmoniyanın Xalq çalğı alətləri orkestrinin təqdim etdiyi konsert proqramı Gəncə RMİ-nin təşəbbüsü, şəhər İcra Hakimiyyətinin dəstəyi ilə reallaşıb.

Konsert Ü.Hacıbəylinin "Koroğlu" operasından rəqslə başlayıb. Proqramda Xalq artisti Sevinc İbrahimova, Əməkdar mədəniyyət işçisi Mehparə Cəfərova, Əməkdar artist Kəmalə Tağızadə, Milli Konservatoriyanın tələbəsi Günel Hacıyeva və digər solistlər, "Xəmsə" uşaq rəqs ansamblı çıxış edib. "Sevgili canan" (Ü.Hacıbəyli), "Anam Azərbaycan" (O.Rəcəbov), "Ölkəm" (A.Zeynallı), "Gülüm" (F.Əmirov) və s. romans və mahnılar səslənib, "İgidlər", "Naz eləmə" rəqsləri ifa olunub.

Gəncə RMİ Gəncə şəhər Uşaq incəsənət məktəbi "Nizami – 880" adlı musiqili ədəbi-bədii kompozisiya təqdim edib. Ssenari müəllifi Günay Hüseynli, musiqi tərtibatçısı Məsud Kərimov olan kompozisiyada Nizaminin sözlərinə yazılmış mahnı və romanslar ifa olunub, şairin qəzəlləri səsləndirilib. Gəncə Dövlət Kukla Teatrının rəssamı və aktyoru Məhəmməd Hacıyev dahi şairin obrazında səhnəyə çıxıb. Sonda RMİ-nin rəisi kompozisiyanın hazırlanmasına görə məktəbin rəhbərliyinə və pedaqoji kollektivinə minnətdarlığını bildirib.

## Nizami yurdunda kitab bayramı

**26-28 noyabr tarixində "Azərbaycan Nəşriyyatları" İctimai Birliyinin təşkilatçılığı ilə F.Əmirov adına Gəncə Dövlət Filarmoniyasının Urban Mərkəzində I Gəncə Kitab Sərgisi keçirilib. Mədəniyyət Nazirliyi, Gəncə Şəhər İcra Hakimiyyəti, Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə İctimai İştirakçılıq Məclisinin dəstəyi ilə keçirilən sərgi "Nizami ili"nə həsr olunub.**



Kitab bayramının açılış mərasimində xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zeki Öztürk, millət vəkilləri Sabir Rüstəmxanlı, Müşfiq Cəfərov, Pərvin Kərimzadə, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin əməkdaşı Kamran Musayev, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, yazarlar, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak edib.



Xudpəsənd olmayan təmiz bir insan,
Qorxmaz nə yaxşıdan, nə də yamandan.

*“Leyli və Məcnun”*

Fələklərə yüksəldər hünər, cəsarət səni,
Hünərsiz alçalarsan, tapar rəzalət səni.

*“Sirlər xəzinəsi”*

# Bölgələrimiz “Nizami ili”nin işığında

**Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, Nəriman Nərimanov adına şəhər 2 nömrəli və Dəmirçi kənd tam orta məktəbləri müəllim və şagirdlərinin iştirakı ilə “Nizami Gəncəvi irsinin öyrənilməsi və təbliğində Heydər Əliyevin rolu” mövzusunda onlayn konfrans keçirilib.**

Mərkəzin direktoru Dilbər İbayeva bildirib ki, böyük söz ustadının irsinin araşdırılması və təbliği ümummilli lider Heydər Əliyevin diqqət mərkəzində olub. 1979-cu ildə Heydər Əliyevin təşəbbüsü ilə respublikanın ali rəhbər qurumunun – Azərbaycan KP MK-nın Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri ilə bağlı qərarının qəbul edilməsi bu istiqamətdə geniş imkanlar yaradıb.

Heydər Əliyev Mərkəzi və Masallı Dövlət Regional Kollecinin birgə təşkilatçılığı ilə “Mütəfəkkir şair Nizami Gəncəvi irsinin təbliği” mövzusunda tədbir keçirilib. Çıxışlardan sonra kollecin tələbələri dahi şairin qəzəllərini səsləndiriblər.



Heydər Əliyev Mərkəzində “Poeziya dünyasının dahisi – Nizami Gəncəvi yaradıcılığı” mövzusunda daha bir tədbirdə gənc könüllülər tərəfindən şairin qəzəlləri səsləndirilib.

Heydər Əliyev Mərkəzinin 3D kinozalında “Nizami Gəncəvi İli” çərçivəsində rayon gəncləri üçün “Nizami” (1982) bədii filmi nümayiş etdirilib.

Masallı rayon Mərkəzi Kitabxanası Nizaminin 880 illik yubileyi ilə əlaqədar kitab sərgisi təşkil edib.

Tarix-Diyarşünaslıq Muzeyində keçirilən “Azərbaycan ədəbiyyatında Nizami Gəncəvinin rolu” mövzusunda tədbirdə rayonun Xırmandalı kənd tam orta məktəbinin şagirdləri tərəfindən söz ustadının müdrik kəlamları və qəzəlləri səsləndirilib.

Rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı Nizaminin “Sirlər xəzinəsi” poemasından “Kərpickəsən kişinin hekayəti” adlı virtual tamaşa-kompozisiya nümayiş etdirib.

Xalq teatrı həmçinin şairin “Leyli və Məcnun” poemasının motivləri əsasında eyniadlı virtual tamaşa-kompozisiya təqdim edib. Tamaşaya gənc prodüser Mərhəmət Lələyev quruluş verib. Səhnə işində Xalq teatrının yaradıcı kollektivi ilə yanaşı, rayonun Dəmirçi kənd tam orta məktəbinin bir qrup istedadlı şagirdi də rol alıb. Kompozisiyada saf, ülvi hisslər, dövrün əxlaq normaları, valideyn-övlad münasibətləri məktəblilərin ifasında bədii-yaradıcı üsullarla çatdırılıb. Tamaşa izləyicilər tərəfindən maraqla qarşılanıb.





Masallı rayon İncəsənət məktəbində “Nizami ili” münasibətilə şagirdlərin əl işlərindən ibarət sərgi təşkil olunub. Tədbirdə RMİ-nin rəisi Bəxtiyar Qılıncov və ictimaiyyət nümayəndələri iştirak edib.

***

Regional idarənin təşkilatçılığı, Masallı, Cəlilabad və Yardımlı rayonlarında fəaliyyət göstərən mədəniyyət müəssisələrinin iştirakı ilə virtual “Yaz festivalı” keçirilib. “Nizami Gəncəvi İli” çərçivəsində keçirilən, dahi şairin həyat və yaradıcılığını əhatə edən festivalda müvafiq sənət istiqamətləri üzrə I, II və III yerləri tutmuş iştirakçılar regional idarənin diplomu ilə təltif olunub.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində “Nizami Gəncəvi İli” ilə əlaqədar tədbir keçirilib. Mərkəzin rəhbərliyi və əməkdaşları, gənc könüllülərin iştirak etdiyi tədbirdə böyük şairin ideyalar aləmindən, Azərbaycan ədəbiyyatına təsirlərindən söz açılıb.



Ağac əkən zaman elə yerdə ək
Ki, yəqin biləsən o bar verəcək.

*"Xosrov və Şirin"*

Həddən çox yeməyə etməsən adət,
Mədəni doldurmaq zəhmətdir, zəhmət.

*"İskəndərnamə" ("Şərəfnamə")*

# Bölgələrimiz "Nizami ili"nin işığında



**Sabirabad Regional Mədəniyyət İdarəsinin (RMİ) əhatə etdiyi müəssisələrdə "Nizami Gəncəvi İli" münasibətilə müxtəlif tədbir və layihələr həyata keçirilib.**

Regional idarə və Bakı Uşaq və Gənclər Teatrının birgə təşkilatçılığı ilə gerçəkləşən "Sözün nizamı" adlı onlayn tədbirdə şairin bəşəri ideyalarından söz açılıb.

Teatrın direktoru, Əməkdar artist İntiqam Soltan Nizami ədəbi məktəbinin əsrlər boyu davam etdiyini diqqətə çatdırıb. RMİ-nin rəisi Fərid Qurbanzadə ölkə başçısının sərəncamı ilə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsini ədəbiyyat, tarix və mədəniyyətimizə ehtiramın təzahürü olduğunu qeyd edib.

Teatrın ssenaristi Arzu Soltanın onlayn platforma üzərindən təşkil etdiyi Nizami Gəncəvinin həyat və yaradıcılığına aid viktorina maraqla qarşılanıb. Sonda teatrın aktyorları Mehman Piriyev, Niyaz İlyasoğlu, Gülər Ləzgiyeva, Gülnar Əlizadə, Ədalət Ağaverdiyev, Əfruz Əliyeva, Toğrul İsabəyli və Röyal Allahverdiyev Nizami poeziyasından nümunələr səsləndiriblər, şairin əsərləri əsasında kompozisiya nümayiş etdirilib.

***

Sabirabad RMİ-nin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Poeziyamızın nəhəng günəşi" adlı onlayn konfrans keçirilib. Konfransda AMEA-nın vitse-prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun baş direktoru, akademik İsa Həbibbəyli şairin fenomenal bəşəri irsindən bəhs edib.





Milli Məclisin deputatı Əziz Ələkbərli bildirib ki, Nizaminin ədəbi irsi humanizm, yüksək əxlaq və bilik mənbəyi, hikmət xəzinəsi olmaqla bərabər, həm də canlı tariximizdir. Regional idarənin rəisi Fərid Qurbanzadə şairin ümumbəşəri mahiyyət daşıyan poetik yaradıcılığının Şərq bədii təfəkkürünü zənginləşdirdiyini vurğulayıb.

Videokonfransda AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri, professor Rəna Mirzəzadə, Arxeologiya və Etnoqrafiya İnstitutunun şöbə müdiri, professor Arif Məmmədov, Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, memarlıq üzrə fəlsəfə doktoru Nardanə Yusifova və başqalarının çıxışları dinlənilib.

***

Regional idarə "Nizami ili"ndə ağac əkmə aksiyası həyata keçirib. İdarənin rəhbərliyi və əməkdaşlar, mədəniyyət könüllülərinin iştirak etdiyi aksiya çərçivəsində rayondakı tarixi hamamın, Şıxlar kəndində Baba Samid türbəsinin, Nizamikənd kənd Mədəniyyət evinin həyətində ucaldılmış Nizami heykəlinin ətrafında təmizlik-abadlıq işləri aparılıb, müxtəlif növ ağac tingləri əkilib.

***

Sabirabad RMİ və Gənclərin İnkişaf və Karyera Mərkəzi rayon nümayəndəliyinin birgə təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilən "Qızıl beşlik" adlı könüllülərarası bilik yarışması keçirilib. Final mərhələsində daha çox xal toplayan Gənclərin İnkişafı və Karyera Mərkəzinin könüllüləri I, regional idarənin könüllüləri II, Dövlət Aqrar İnkişaf Mərkəzinin könüllüləri isə III yerə layiq görülüblər. Qalib komandaya kubok, fəxri fərman və hədiyyələr təqdim edilib.

***

Sabirabad rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Yeni Güdəcühür qəsəbə Klub-icma mərkəzinin kollektivi Nizami Gəncəvinin yubileyinə həsr olunmuş tədbir keçirib. Mədəniyyət Mərkəzinin əhatə etdiyi Minbaşı kənd Mədəniyyət evi, Əhmədabad kənd Folklor evi, digər mədəniyyət ocaqları da böyük şairin 880 illiyi ilə əlaqədar tədbirlər təşkil ediblər.

M.Ə.Sabir adına Mərkəzi Kitabxanada Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci tələbələrinin iştirakı ilə tədbir keçirilib, Sabirabad rayon MKS və Sabirabad Regional "ASAN Xidmət" Mərkəzinin birgə təşkilatçılığı ilə "Nizami – 880" adlı kitab sərgisi təşkil olunub.

Sabirabad rayon Heydər Əliyev Mərkəzində YAP Gənclər Birliyinin təşkilatçılığı ilə "Xəmsə" respublika intellektual festivalının II regional turu keçirilib. Müsabiqədə Sabirabad, Saatlı, Hacıqabul, İmişli, Beyləqan, Neftçala, Salyan, Şirvan, o cümlədən Xocavənd və Füzuli bölgələrini təmsil edən komandalar iştirak edib.

***

Sabirabad RMİ-nin həyata keçirdiyi "Mədəni kənd – mədəni mühit" layihəsi çərçivəsində Saatlı rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evi, kənd tam orta məktəbi və kənd kitabxanasının təşkilatçılığı ilə "Nizami Gəncəvi – 880" adlı tədbir keçirilib. Tədbir çərçivəsində kitab sərgisi nümayiş olunub, məktəblilər şairin şeirlərindən örnəklər səsləndirib.

Hacıqabul rayon Mərkəzi Kitabxanası və Saatlı rayon Mədəniyyət Mərkəzinin Cəfərxan kənd Diyarşünaslıq evi filialı "Nizami Gəncəvi İli" ilə əlaqədar sərgilər təşkil ediblər.



Məmləkətin dayağı ədalətdir hər zaman,
Ədalətin nəsibi səadətdir hər zaman.

*"Sirlər xəzinəsi"*

İnsan yem dalınca qaçmasın gərək,
Quşdan ayıq olsun, zirəkdən zirək.

*"Yeddi gözəl"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Xaçmaz Regional Mədəniyyət İdarəsi (RMİ) Qusar rayon Heydər Əliyev Mərkəzi, Qusar Rayon İcra Hakimiyyəti və AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun birgə təşkilatçılığı ilə "Nizami Gəncəvinin hikmət xəzinəsi" mövzusunda elmi-praktik konfrans keçirilib.**

Qusar rayon Heydər Əliyev Mərkəzində keçirilən tədbirə videobağlantı ilə qoşulan AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş direktoru İsa Həbibbəyli açılış nitqi ilə çıxış edib. Akademik bildirib ki, sovet dövründə Nizami Gəncəvi kommunizm ideallarına uyğun təbliğ edilib. İndi Nizami Gəncəvi müstəqil Azərbaycan idealları əsasında öyrənilməli və təbliğ olunmalıdır. Nizaminin əsərlərində Azərbaycan coğrafiyasının, xüsusilə Dərbənd, Kəpəz dağı, Bərdə, Gəncə, Marağa, Təbriz və başqa yerlərin adlarının çəkildiyini vurğulayan alim deyib: "Nizami azərbaycanca düşünüb, farsca yazıb. Onun işlətdiyi zərbi-məsəllər, atalar sözləri, frazeoloji birləşmələr və s. azərbaycanlı təfəkkürünü ifadə edir. Azərbaycan xalqı Nizaminin timsalında dünyaya qüdrətli sənətkar verib. Şairin əsərlərində bəşəriliklə yanaşı, vətənpərvərlik ruhunun olması böyük xəzinədir. O, saray şairi olmasa da, Azərbaycan Atabəylər dövlətinin ideoloqu olub, Şirvanşahlar ilə də yaxın əlaqələr qurub. Nizami "Şahnamə" ənənəsini sındırıb, şahın insanlarla münasibətindən, hökmdarların daxili dünyasından yazıb. O, ədəbiyyatı salnaməçilikdən xilas edib".

Konfransda Nizami irsinin müxtəlif aspektlərini əks etdirən məruzələr dinlənilib.



***

Regional idarənin "Kəndlərdə mədəniyyət günləri" layihəsi çərçivəsində Xaçmaz rayon Niyazabad kənd Folklor evində keçirilən tədbirdə Nizami Gəncəvinin yaradıcılığını əks etdirən guşə nümayiş olunub. Qımılqışlaq kənd Folklor evinin bədii rəhbəri Elçin İbrahimovun ifasında dahi şairin "Leyli və Məcnun" poemasından "Oğlum Məhəmmədə nəsihət" hissəsi səsləndirilib. Layihə üzrə rayonun Qalağan kənd Diyarşünaslıq klubunda keçirilən tədbirdə isə klubun fəallarının iştirakı ilə "Kərpickəsən kişinin dastanı" əsəri səhnələşdirilib.






***

Şabran Xalq teatrının kollektivi Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş ədəbi-bədii kompozisiya nümayiş etdirib. Kompozisiyada şairin yaşadığı dövr, yaradıcılığı və mübarizələrlə dolu həyatı əks olunub. Şabran Rayon Pirəbədil Tarix Muzeyində isə "Nizami Gəncəvi – 880" adlı sərgi təşkil edilib.

***

B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin "Art" yaradıcılıq studiyası tərəfindən N.Gəncəvinin "Kərpickəsən kişinin dastanı" mənzum hekayəsi videokompozisiya halında lentə alınıb. Kompozisiya Quba "Könüllülər teatrı" aktyorlarının ifasında hazırlanıb.

Quba Uşaq incəsənət məktəbində Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə Ü.Hacıbəylinin dahi şairin sözlərinə yazdığı "Sənsiz" və "Sevgili canan" romansları məktəbin müəllimlərinin ifasında təqdim olunub. Təhsil ocağının şagirdləri tərəfindən Nizaminin qəzəl, rübai və hikmətli sözlər səsləndirilib, "Kərpickəsən kişinin dastanı" əsəri əsasında səhnəcik göstərilib. Quba şəhər Uşaq incəsənət məktəbində təşkil olunan sərgidə Nizaminin portretləri, "Leyli və Məcnun", "Yeddi gözəl", "Xosrov və Şirin" və başqa əsərlərinə çəkilmiş rəsmlər nümayiş etdirilib.

***

Qusar rayon Uşaq incəsənət məktəbində "Dərin fəlsəfəyə və məntiqə malik bənzərsiz sənətkar – Nizami Gəncəvi" adlı ədəbi-bədii kompozisiya-konsert təşkil olunub. Kompozisiyada "Xəmsə"yə daxil olan poemalar əsasında səhnəciklər nümayiş etdirilib. Konsert çərçivəsində məktəbin Rəssamlıq şöbəsi şagirdlərinin əl işlərindən ibarət sərgi təşkil edilib.

Qusar Dövlət Rəsm Qalereyasında Uşaq incəsənət məktəbi Rəssamlıq şöbəsinin şagirdləri və gənc rəssamların əl işlərindən ibarət "Nizaminin ecazkar və sirli dünyası" adlı sərgi keçirilib.

Xaçmaz RMİ-nin əhatə etdiyi Siyəzən rayonundakı mədəniyyət müəssisələrində də "Nizami Gəncəvi İli" münasibətilə sərgilər, onlayn görüşlər təşkil olunub, kompozisiyalar, videoçarxlar hazırlanaraq sosial şəbəkələrdə yayımlanıb.

Şüşəyə öncə sən vurma daş-kəsək,
Qırılsa, çətindir onu düzəltmək.

*"İskəndərnamə" ("Şərəfnamə")*

Hər kəs ki zülm üçün qılıncı aldı,
Qantökən şir kimi pəncəsiz qaldı.

*"Xosrov və Şirin"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Sumqayıt Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyində fəaliyyət göstərən mədəniyyət müəssisələrində "Nizami Gəncəvi İli" münasibətilə müxtəlif tədbirlər təşkil olunub.**

Sumqayıt Dövlət Rəsm Qalereyası və şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə açıq havada "Xəmsə"dən damlalar" adlı rəsm sərgisi keçirilib.

Sərgidə Sumqayıt Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən uşaq incəsənət məktəbləri şagirdlərinin əl işləri nümayiş olunub. Təqdim edilən rəsmlər arasında Nizami əsərlərinin motivləri əsas yer tutub.

Sumqayıtın Tarixi Muzeyində Nizaminin 880 illiyi münasibətilə şəhər Bülbül adına 2 nömrəli Uşaq incəsənət məktəbi şagirdlərinin əl işlərindən ibarət sərgi keçirilib.

Sumqayıt Poeziya evində "Nizami Gəncəvi – 880" mövzusunda videokonfrans keçirilib. Şair, filologiya elmləri doktoru Vüqar Əhməd, Poeziya evinin direktoru, şair İbrahim İlyaslı, Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Mahmud Allahmanlı və başqaları dahi şairin yaradıcılığının müxtəlif yönlərinə nəzər salıblar.

***

Abşeron rayon Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivi tərəfindən "Nizami ili" münasibətilə dahi şairin "Xəmsə"si əsasında səhnəciklər hazırlanaraq rayon Tarix-Diyarşünaslıq Muzeyində nümayiş etdirilib.

***

Regional idarə tərəfindən dahi şairin 880 illik yubileyi ilə əlaqədar elan edilmiş "Ən qısa film" onlayn müsabiqəsində



Sumqayıt şəhər "Dostluq" Mədəniyyət evi "Eşqi-Nizami" adlı qısa filmlə birinci yerə layiq görülüb. Filmdə Nizami Gəncəvinin poemalarının motivləri əsasında qumla rəsm əsərləri təsvir edilib.



Şəhər Mədəniyyət evi Nizaminin yubileyinə həsr olunan videoçarx hazırlayaraq sosial şəbəkə səhifələrində nümayiş etdirib. Videoçarxda "Veteranlar" xalq xoru Üzeyir Hacıbəylinin şairin sözlərinə bəstələdiyi "Sənsiz" romansını səsləndirib.

Şumqayıt şəhər "28 May" Diyarşünaslıq evi də Nizami Gəncəvi irsindən bəhs edən videoçarxları sosial şəbəkələrdə yayımlayıb. Videoçarxlarda bədii qiraət dərnəyinin üzvü Almaz Rəşidlinin ifasında şairin "Xosrov və Şirin" və "Sirlər xəzinəsi" poemalarından parçalar səsləndirilib.

Sumqayıt şəhər Corat qəsəbə Mədəniyyət evində fəaliyyət göstərən rəsm dərnəyinin üzvləri dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar çəkdiyi rəsm əsərlərini sosial şəbəkə səhifələrində paylaşıblar.

***

Sumqayıt Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Zəngilan Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvinin Azərbaycan ədəbiyyatında rolu" adlı dəyirmi masa keçirilib. Tədbirdə "Xəmsə"yə daxil olan ilk əsər – "Sirlər xəzinəsi" poemasından söz açılıb.

Zəngilan rayon Mədəniyyət evi sosial şəbəkələr üzərindən Nizaminin "Neyləmisən" qəzəli və "İsgəndərnamə" poeması haqqında videomaterial nümayiş etdirib.

Zəngilan kənd klubunda "Nizami-880" adlı ədəbi-bədii gecə təşkil edilib. Tədbirdə Zəngilan rayon 33 nömrəli orta məktəbin şagirdləri dahi şairin qəzəllərini səsləndiriblər.

***

Xızı rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemində (MKS) Nizaminin 880 illiyi münasibətilə "Şərqin parlaq ulduzu" adlı sərgi açılıb. Sərgidə böyük şairin "Sirlər xəzinəsi", "Leyli və Məcnun" və "Xosrov və Şirin" poemalarından fraqmentlərdən ibarət rəsm nümunələri yer alıb.




Xızı rayon Heydər Əliyev Mərkəzində C.Cabbarlı adına Xızı rayon Mədəniyyət Mərkəzi və Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "XII əsrə səyahət" adlı sərgi keçirilib. Sərgidə Nizami Gəncəvinin əsərləri əsasında əl işləri nümayiş olunub. Sərgi çərçivəsində həmçinin rayon Mədəniyyət Mərkəzinin təşkil etdiyi "Xəmsə" onlayn rəsm müsabiqəsinin qalibləri diplomlarla təltif edilib.



Vurub-yıxmaqla deyil ağıllılıq, unutma,
Gücünü ədalətdən heç zaman uca tutma!

*"Sirlər xəzinəsi"*

Yaxşı adamların göz yum eybinə,
Yaxşı şey öyrətməz yaman göz sənə.

*"Xosrov və Şirin"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Lənkəran Regional Mədəniyyət İdarəsi (RMİ) Q.Vəliyev adına Lənkəran şəhər Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş "Hər misram söyləyər: burda, burdadır" adlı teatrlaşdırılmış ədəbi-bədii kompozisiya təqdim edilib.**



Mərkəzin əməkdaşlarının "Vaqif" dram truppasının Mehdi Hüseynin "Nizami" pyesinin motivləri əsasında hazırladığı kompozisiyada Ürgə kənd Yaradıcılıq evinin bədii rəhbəri, müğənni Elgün Əlizadə və "Ay lolo" rəqs qrupunun ifasında musiqi nömrələri izləyicilərin marağına səbəb olub. Tədbir çərçivəsində şəhər Mərkəzi Kitabxanası Uşaq şöbəsinin təşkilatçılığı ilə kitab sergisi də təşkil olunub.



Sonda regional idarənin rəisi Şahin Şahbazov çıxış edərək kompozisiyanın ərsəyə gəlməsində zəhməti olanlara təşəkkürünü bildirib, kollektivə uğurlar arzulayıb.

***

Lənkəran şəhər Heydər Əliyev Mərkəzində tanınmış pedaqoq və ədəbiyyatşünas, Azərbaycan SSR-in ilk mədəniyyət naziri olmuş Məmməd Ələkbərovun (1899-1959) "Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı" monoqrafiyasının təqdimatı keçirilib. Mərhum alimin namizədlik dissertasiyası AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dosenti Əzizağa Nəcəfzadə tərəfindən kitab halında nəşr etdirilib.

Tədbirdə Nizami yaradıcılığına həsr olunmuş ədəbi-bədii kompozisiya təqdim edilib.

Sonda Heydər Əliyev Mərkəzinin rəsm studiyasının hazırladığı "Nizami Gəncəvi əsərləri uşaqların gözü ilə" adlı sərgiyə baxış keçirilib.

C.Cabbarlı adına Lənkəran şəhər 1 saylı Uşaq musiqi məktəbində Nizami Gəncəvinin 880 illiyi münasibətilə tədbir keçirilib. Tədbirdə Nizaminin qəzəlləri və poemalarından fraqmentlər əsasında kompozisiya nümayiş olunub.

Şəhər Gənclər və İdman İdarəsi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Gəncədəki Nizami Gəncəvi Muzeyi və Nizami Gəncəvi məqbərəsinin birgə təşkilatçılığı ilə videokonfrans keçirilib. "Nizami Gəncəvi İli" çərçivəsində təşkil olunan tədbirə Türkiyənin Səlcuq Universitetinin professoru Ali Temizel də qoşulub. Çıxış edənlər Nizami Gəncəvini bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən biri kimi səciyyələndiriblər. Sonra Bakı və Gəncə şəhərlərində yerləşən Nizami Gəncəvi muzeylərinə və Gəncə şəhərindəki Nizami Gəncəvi məqbərəsinə virtual səyahət təşkil olunub.



***

RMİ-nin tabeliyində fəaliyyət göstərən Astara rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Nizami Gəncəvi İli" dahi şairin bəşəriyyətə verdiyi misilsiz töhfələrə yenidən baxış ili kimi tarixə yazılır" mövzusunda videokonfrans keçirilib.

O.Kazımi adına Astara Uşaq musiqi məktəbində muğam sinfinin müəllim və şagirdləri tərəfindən musiqili ədəbi-bədii kompozisiya hazırlanıb. Musiqinin müşayiəti ilə Nizaminin qəzəlləri səsləndirilib, "Sirlər xəzinəsi" poemasından "Kərpickəsən kişinin dastanı" hekayəti ilə bağlı səhnəcik nümayiş olunub. Kompozisiya məktəbin muğam sinfinin müəllimi Elyana Məmmədovanın ifasında "Sevgili canan" romansı ilə başa çatıb.

Astara Dövlət Rəsm Qalereyası Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş onlayn rəsm müsabiqəsi keçirib. Qalereyanı, rayonun ümumtəhsil məktəblərini, Lənkəran və Qazax Rəssamlıq məktəblərini təmsil edən 25 gəncin əl işləri nümayiş etdirilib. Pərvin Qəhrəmanlı (Astara şəhər 1 nömrəli orta məktəb) I, Aysun Cümşüdova (Sərək kənd orta məktəbi) II, Nəzrin Qəhrəmanlı (Astara şəhər 1 nömrəli orta məktəb) III yerləri tutublar.

Heydər Əliyev Mərkəzində Nizaminin yubileyinə həsr olunmuş tədbirdə məktəblilərin ifasında ədəbi-bədii kompozisiya nümayiş etdirilib. Sonra iştirakçılar Nizaminin 880 illik yubileyi münasibətilə hazırlanan sərgi ilə tanış olublar.

Taxtın payəsini o qədər yüksəlt,
Yıxıldığın zaman çəkmə əziyyət.

*“Yeddi gözəl”*

Bir yerdə insafdan olmasa nişan,
Quruyar istidən, çürüyər sudan.

*“İskəndərnamə” (“İqbalnamə”)*

# Bölgələrimiz “Nizami ili”nin işığında

**Kürdəmir Regional Mədəniyyət İdarəsi (RMİ) Kürdəmir rayon Heydər Əliyev Mərkəzində dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyinə həsr edilmiş tədbir keçirilib. Kürdəmir regional “ASAN Xidmət” Mərkəzi ilə birgə təşkil edilən tədbirdə şairin zəngin yaradıcılığından söz açılıb.**



Kürdəmir RMİ, rayon Təhsil Şöbəsi və AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran regional filialının birgə təşkilatçılığı ilə “Xəmsə” möcüzəsi” adlı bədii qiraət müsabiqəsi keçirilib. Müsabiqə gənc nəslə Nizami irsini dərindən mənimsətmək, onların bədii qiraət qabiliyyətlərini inkişaf etdirmək məqsədilə təşkil olunub. İki turdan ibarət olmaqla onlayn formada keçirilən müsabiqədə rayonun 59 ümumtəhsil müəssisəsinin şagirdləri iştirak ediblər. Behbud Alıyev I, Səmra Muxtarova və Təhminə Heydərova II, Həqiqət Məmmədova, Aydan Mənəfova və Tamara Ədilova III yerlərə layiq görülüblər.

Yubiley ilində Kürdəmir RMİ-nin dəstəyi ilə “Nizami Gəncəvinin poetik portreti” (tərtibçi Ramil Əhməd, təqdimat yazısının müəllifi AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, professor Cavanşir Yusifli) və “Nizami Gəncəvinin əsərlərinin el variantları” (tərtibçi Fərid Hüseyn, təqdimat yazısının müəllifi AMEA-nın Folklor İnstitutunun şöbə müdiri, professor Seyfəddin Rzasoy) kitabları nəşr olunub. Hər iki nəşrin layihə rəhbəri və ön söz müəllifi regional idarənin rəisi, fəlsəfə üzrə fəlsəfə doktoru Faiq Xudanlıdır. “Nizami Gəncəvinin poetik portreti” kitabında XX-XXI əsrlərdə Nizami Gəncəviyə ithaf olunan şeirlər ilk dəfə sistemli şəkildə təqdim edilir. “Nizami Gəncəvinin əsərlərinin el variantları” kitabında şairin əsərlərinin folklorda – nağıllarda, dastanlarda özünə həyat qazanmış süjetləri toplanıb. Hər iki nəşrin Azərbaycan Yazıçılar Birliyində təqdimatı keçirilib.

RMİ-nin təşəbbüsü ilə, həmçinin idarənin əhatə etdiyi beş rayon (Kürdəmir, İmişli, Beyləqan, Füzuli, Xocavənd) üzrə müəssisələr üçün Nizami Gəncəvinin 880 illiyi münasibətilə təqdimat bukletləri çap edilib.

***

Kürdəmir RMİ-nin təşkilatçılığı ilə “Nizami Gəncəvi və Yunus Əmrə irsi: tarixilik və müasirlik” mövzusunda dəyirmi masa keçirilib. Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Aran regional filialında təşkil olunan tədbirdə regional idarənin dəvəti ilə İstanbul Universitetinin müəllimləri də iştirak ediblər. İmişli rayon Mədəniyyət Mərkəzinin direktoru Sərvər Şirinov, xanəndə Baxış Babaşov və tarzən Fərrux Xəmmədovun ifasında Nizami Gəncəvinin yaradıcılığı əsasında ədəbi-musiqili proqram təqdim edilib. Regional idarənin rəisi Faiq Xudanlı qonaqları təqdim etdikdən sonra Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran regional filialının müdiri Yaqut Bahadurqızı “Nizami Gəncəvi yaradıcılığının Azərbaycan mədəniyyətinə təsiri”, İstanbul Universitetinin dosenti Mehmet Samsakçı “Türk ədəbiyyatında Yunus Əmrə: dünən və bu gün”, regional idarənin Xocavənd rayonu üzrə baş məsləhətçisi, yazıçı-ədəbiyyatşünas Ramil Əhməd “Modern dünya ədəbiyyatında Nizami Gəncəvi təsiri” mövzularında çıxış ediblər. Yazıçı Əlisəfa Azayev və İstanbul Universitetinin müəllimi Kaan Kapan Nizami Gəncəvi və Yunus Əmrə yaradıcılığı haqqında fikirlərini bölüşüblər.





***

Regional idarənin əhatə etdiyi Xocavənd rayon MKS-nin təşkilatçılığı ilə Xocavənd Mərkəzi Kitabxanasının həyətində Nizami Gəncəvinin hikmət xəzinəsi hesab olunan “Xəmsə”sini simvolizə edən beş çinar tingi əkilib.

İmişli rayon Mədəniyyət Mərkəzində isə Nizami Gəncəvinin qəzəlləri əsasında “Məclisi-üns” adlı musiqili kompozisiya nümayiş olunub. İmişli rayon Uşaq musiqi məktəbinin müəllimləri Fərrux Xəmmədov (tar) və Baxış Babaşovun (xanəndə) ifa etdiyi kompozisiyada Nizami Gəncəvi obrazında rayon Mədəniyyət Mərkəzinin direktoru Sərvər Şirinov çıxış edib.

***

Beyləqan rayon Heydər Əliyev Mərkəzində “Nizami dövrü, ədəbi irsi və məktəbi” adlı tədbir təşkil olunub. Tədbirdə mərkəzin əməkdaşları və Beyləqan şəhər 4 nömrəli tam orta məktəbin müəllim və şagirdləri iştirak ediblər. Tədbirin sonunda məktəblilər dahi şairin şeirlərindən nümunələr söyləyiblər. Mərkəzin əməkdaşı tərəfindən hazırlanan videoçarx nümayiş etdirilib.



Dünyanı namusla olur saxlamaq,
Onunla ucalır dövlət və bayraq.

"İskəndərnamə" ("Şərəfnamə")

Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.

"Xosrov və Şirin"

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Bərdə Regional Mədəniyyət İdarəsi (RMİ) Bərdə Rayon Tarix-Diyarşünaslıq Muzeyi və Sumqayıt Poeziya evinin birgə layihəsi ilə Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş "Bərdə nə gözəldir, necə qəşəngdir..." adlı onlayn ədəbi-bədii tədbir keçirilib. Dahi şair "İskəndərnamə" poemasında qədim Bərdəni bu sözlərlə vəsf edib.**



Bərdə rayon MKS-nin 3 nömrəli şəhər kitabxana filialı "Nizami ili" münasibətilə şairin bənzərsiz məhəbbət abidəsi – "Xosrov və Şirin" poeması əsasında MKS-nin Kolayır kənd kitabxana filialı "Nizami Gəncəvinin qəzəllərindən" adlı videoçarx hazırlayıb.




MKS-nin S.Vurğun adına Mərkəzi Kitabxanası "Bəşəri ideyalar carçısı" adlı sərgi, Hüseynbəyli kənd kitabxana filialı "Nizami Gəncəvi poeziyası" adlı "ucadan oxu saatı" təşkil edib.

Bərdə şəhər 3 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə "İskəndərnamə" adlı ədəbi-musiqili tədbir keçirilib. Çıxış edənlər 2021-ci ilin "Nizami ili" elan edilməsinin ölkə rəhbərliyi tərəfindən milli-mənəvi və mədəni dəyərlərə göstərilən diqqətin təzahürü olduğunu bildiriblər. Sonra Musiqi məktəbinin şagirdləri Nizaminin əsərlərinə yazılmış romanslar, eləcə də muğam ifalarından ibarət kompozisiyalar təqdim ediblər.

***

Tərtər rayon Mədəniyyət Mərkəzi "Nizami Gəncəvi İli" ilə əlaqədar "Şərq poeziyasının "Xəmsə" zirvəsi" adlı silsilə tədbirlər həyata keçirib. Layihə çərçivəsində mərkəzin filiallarında müxtəlif tədbirlər təşkil olunub. Hacıqərvənd kənd Mədəniyyət evinin bədii özfəaliyyət dərnəyi üzvlərinin Nizaminin "Sirlər xəzinəsi" poeması əsasında hazırladığı səhnəcik silsilənin yaddaqalan tədbirlərindən olub.

Tərtər Rayon Tarix-Diyarşünaslıq Muzeyi və rayon Mədəniyyət Mərkəzinin tabeliyində olan Yuxarı Sarıcalı kənd klubu Nizami Gəncəvinin 880 illiyi münasibətilə videoçarxlar hazırlayıblar.

***

Mingəçevir Dövlət Dram Teatrı "Nizami Gəncəvi İli"nə töhfə olaraq "Xırda söhbətlər" adlı nəqli tamaşa nümayiş etdirib. Nizaminin "Sirlər xəzinəsi" poemasından "İki rəqib alimin hekayəti", "Firidunla ceyranın hekayəti", "Harun Ər-Rəşidlə dəlləyin hekayəti" əhvalatlarının səhnə redaksiyası əsasında hazırlanan tamaşanın müəllifi teatrın rejissoru




Cavid Təvəkküldür. Meydan teatrı ənənəsində quruluş verilmiş tamaşada gənc aktyorlar Paşa Salmanov, Turqut Məsimli, Elvin Əkbərli rol alıblar.

Mingəçevir şəhər şəhid F.Qasımov adına Uşaq incəsənət məktəbinin fortepiano müəllimi Əsmər İbrahimli "Nizami Gəncəvi İli"nə həsr olunmuş videoçarx hazırlayıb.

***

Yevlax şəhər Heydər Əliyev Mərkəzi, Ombudsmanın Gəncə Regional Mərkəzi və Yevlax MKS-nin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi və insan hüquqları" mövzusunda videokonfrans keçirilib. Heydər Əliyev Mərkəzinin direktoru Aygün Qasımova Nizami yaradıcılığının bənzərsiz xəzinə olduğunu vurğulayıb. Ombudsmanın Gəncə Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov Nizami əsərlərində insanlara verilən dəyərdən, insan haqlarına həsr olunmuş beytlərdən nümunələr gətirərək mövzu ətrafında geniş məlumat verib. Yevlax rayon MKS-nin müdir müavini Tofiq Həsənov, Heydər Əliyev Mərkəzinin əməkdaşı Sevda Əliyeva və başqaları Nizami irsində gəncliyə verilən dəyərdən danışıblar.

Yevlax şəhər Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları "Nizami Gəncəvi İli" çərçivəsində dahi şairin həyat və yaradıcılığını əks etdirən sərgi təşkil ediblər.



Yevlax şəhər 1 nömrəli Uşaq musiqi məktəbinin müəllimləri isə "Nizaminin həyatı və lirikası" mövzusunda tədbir keçiriblər. Çıxışlarda dahi şairin ömür yolu haqqında məlumat verilib, lirik şeirlərinin əhəmiyyəti vurğulanıb.

Yevlax şəhər Mədəniyyət Mərkəzinin filialı – Xanabad kənd klubu, şəhər Mərkəzi Kitabxanası və MKS-nin Nəmərli kənd kitabxana filialı Nizami irsi ilə bağlı videoçarxlar hazırlayaraq sosial şəbəkələrdə paylaşıblar.

Dünyada çox ləziz, şirin meyvələr
Pis gözə uğrasa torpağa düşər.

*“Leyli və Məcnun”*

Bir dost ki dost ilə hey nifaq eylər,
O, deməк, düşmənlə ittifaq eylər.

*“Yeddi gözəl”*

# Bölgələrimiz “Nizami ili”nin işığında



**Ağdaş Regional Mədəniyyət İdarəsi (RMİ) Ağdaş rayon Heydər Əliyev Mərkəzində regional idarə və ARB telekanalının birgə təşkilatçılığı ilə “Sözün sehri” adlı televiziya müsabiqəsi keçirilib. Müsabiqə RMİ-nin əhatə etdiyi Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarında istedadlı qiraətçilərin aşkar olunması və tanıdılması məqsədilə təşkil edilib.**

Tanınmış pedaqoq Bəylər Bəylərov, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi Aran regional filialının rəhbəri Yaqut Bahadurqızı və şair, qiraətçi Vaqif Yaquboğlunun münsifliyi ilə keçirilən seçim turlarında ümumilikdə 35 nəfər (14 yaşdan yuxarı) iştirakçıdan 12 nəfər seçilib. 7 həftə davam edən müsabiqədə bədii qiraət həvəskarları öz bacarıqlarını nümayiş etdiriblər. Münsiflər heyətinin qərarı ilə Ağdaş rayonundan Turanə Şıxəliyeva I, Göyçaydan İradə Məmmədova II, yenə Ağdaşdan Əfsanə Dostuyeva III yerlərə layiq görülüblər. Qaliblərə diplom və hədiyyələr təqdim olunub. Müsabiqə ARB-nin “ARB Günəş” və regional “EL” kanalları tərəfindən yayımlanıb.

Ağdaş rayon Mərkəzi Kitabxanasının oxu zalında Nizami Gəncəvi əsərlərinin qiraəti üzrə müsabiqə keçirilib. Ağdaş rayon Şıxlı kənd kitabxanası isə Nizami Gəncəvinin “Yeddi gözəl” poemasından “Xeyir və Şər” mənzum hekayəsinin təhlilinə həsr olunmuş tədbir təşkil edib.



Çıxış edənlər dahi şairin bu əsərdə ortaya qoyduğu humanist düşüncələrindən söz açıblar.

Ağdaş Rayon Tarix-Diyarşünaslıq Muzeyinin təşkilatçılığı ilə “Nizami Gəncəvi – bəşəri şair” adlı onlayn tədbir keçirilib. Tədbirdə dahi Azərbaycan şairinin Gəncədə doğulub, burada yaşayıb-yaratmasına baxmayaraq, əsərlərində bütün insanlığı düşündürən ideyalar ortaya qoyduğu vurğulanıb.

Regional idarənin təşəbbüsü ilə Nizami Gəncəvinin Ağdaş şəhərindəki abidəsinin ətrafında təmizlik, bərpa və yenidənqurma işləri həyata keçirilib.

***

Zərdab rayon Mərkəzi Kitabxanasında “Nizami Gəncəvi İli” ilə əlaqədar məlumat günü keçirilib. Rayon Mərkəzi Kitabxanası və MKS-nin 3 saylı Körpükənd kənd kitabxana filialı Nizaminin 880 illiyi ilə bağlı “açıq kitabxana” təşkil ediblər.

Zərdab rayon Heydər Əliyev Mərkəzində “Bəşəriyyətin Nizami dühasından bəhrələnməyə çox böyük ehtiyacı var” adlı tədbir keçirilib. Çıxışlarda bildirilib ki, bəşəriyyət sülh, əmin-amanlıq içərisində yaşamaq istəyirsə, dahi Azərbaycan mütəfəkkirinin ideallarına istinad etməlidir.

Zərdab şəhər Uşaq incəsənət məktəbində Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə tədbir keçirilib. Bildirilib ki, Nizami Gəncəvi Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafında müstəsna xidmətləri olan dahi söz ustadıdır.



Zərdab rayon MKS-nin 4 saylı şəhər kitabxana filialı rayonun Həsən bəy Zərdabi adına istirahət parkında “Dünyanın bir incisi, Nizaminin “Xəmsə”si” başlığı altında kitab sərgisi təşkil edib.

***

Ucar rayon Heydər Əliyev Mərkəzi və Kürdəmir rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə “Nizami Gəncəvinin yaradıcılığında qadın obrazları” mövzusunda videokonfrans keçirilib. Bildirilib ki, səkkiz əsr əvvəlin mövcud şərtləri çərçivəsində Nizami qadına yüksək dəyər verib, yeri gələndə onları baş qəhrəman səviyyəsində təqdim edib. Müəllifin Şirin, Nüşabə və digər qadın qəhrəmanları öz idrakı, məntiqi ilə bu gün də oxucularda rəğbət yaradır.

Ucar rayon Heydər Əliyev Mərkəzində “Nizami dühası” mövzusunda onlayn qəzəl qiraəti müsabiqəsi keçirilib. Müsabiqənin qalibləri diplom və hədiyyələrlə təltif olunublar.

***

Göyçay rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Nizami Gəncəvi dühası” mövzusunda dəyirmi masa təşkil edilib. Çıxışlarda Nizaminin təkcə şair deyil, müxtəlif elmlərin bilicisi olan alim, mütəfəkkir kimi keyfiyyətlərindən də söz açılıb.

Rayon MKS-nin 9 saylı Mırtı kənd kitabxana filialının təşkilatçılığı ilə “Nizami Gəncəvi İli” münasibətilə “açıq kitabxana” keçirilib.

Tarix-Diyarşünaslıq Muzeyində “Bəşəri ideyalar carçısı – Nizami Gəncəvi”, Rəsul Rzanın Ev-Muzeyində isə “Şərq intibahının zirvəsinə baxış – “Nizami Gəncəvi İli” adlı tədbirlər keçirilib.



Bazarın rəvacdır yaxşı işlərlə,
Kasadlıqda qoyma dostunu belə.

*"Xosrov və Şirin"*

Özünə ölüncə özün ol qonaq,
Ağac ol, özündən doğur qol-budaq.

*"İskəndərnamə" ("Şərəfnamə")*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Biləsuvar Regional Mədəniyyət İdarəsi (RMİ) Biləsuvar rayon Mədəniyyət Mərkəzində "Nizami ili" münasibətilə "Klassik irsimizdən" adlı bədii qiraət müsabiqəsi keçirilib. YAP rayon təşkilatının dəstəyi ilə gerçəkləşən müsabiqədə 1, 2 və 3-cü yerlərin qaliblərinə fəxri fərmanlar təqdim olunub. Mədəniyyət Mərkəzinin daha bir layihəsi Gənclərin İnkişaf və Karyera Mərkəzi Biləsuvar rayon nümayəndəliyi ilə birgə hazırlanan "Nizami Gəncəvi" adlı tamaşa olub.**

Biləsuvar Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvi İli"nə həsr edilmiş sərgi təşkil edilib. Sərgidə Nizaminin yaradıcılığını əks etdirən toxuma əl işləri nümayiş olunub.



***

Biləsuvar RMİ-nin əhatə etdiyi Cəbrayıl rayon Böyük Mərcanlı kənd Uşaq incəsənət məktəbində Nizami Gəncəvinin yubileyi ilə əlaqədar tədbir təşkil olunub. Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Fəridə İbayevanın da iştirak etdiyi tədbirdə müəllim



***

Biləsuvar RMİ-nin tabeliyindəki Neftçala rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Gəncəli dahi" mövzusunda onlayn tədbir keçirilib. Rayon Tarix-Diyarşünaslıq Muzeyində isə "Nizami Gəncəvi İli" adlı sərgi təşkil edilib. Rayonun Qədimkənd kənd klubu və Boyat kənd Diyarşünaslıq evi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə videoçarxlar hazırlayıblar.

və şagirdlər Nizaminin sözlərinə yazılmış şeir və musiqilər ifa edib, rəsm əsərləri nümayiş olunub.

Cəbrayıl rayon Mədəniyyət evi və İ.Tahirov adına Mehdili kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirakı ilə keçirilən tədbirdə mədəniyyət evi əməkdaşlarının əl işlərindən ibarət sərgi nümayiş etdirilib.

Cəbrayıl rayon Mərkəzi Kitabxanası "Böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi" adlı kitab sərgisi təşkil edib.

Tədbirdə rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov, ümumtəhsil məktəblərinin pedaqoji kollektivləri, ictimaiyyət nümayəndələri iştirak ediblər. Kitabxana qarşısında təşkil edilmiş sərgidə Nizaminin həyat və yaradıcılığını əks etdirən kitablar nümayiş olunub. Böyük Mərcanlı kənd Uşaq incəsənət məktəbi xanəndələrinin ifasında Nizaminin şeirləri əsasında musiqili kompozisiya nümayiş etdirilib.

***




Salyan Dövlət Rəsm Qalereyasında "Nizami Gəncəvi yaradıcılığı gənc rəssamların fırçasında" adlı rəsm müsabiqəsi keçirilib. Müsabiqəyə regional idarənin əhatə etdiyi rayonlardan 34 gənc rəssam qatılıb. Onlar 3 saat müddətində canlı olaraq Nizami yaradıcılığı üzrə əsərlər çəkiblər. Rəsmlər münsiflər tərəfindən qiymətləndirilib, qaliblər mükafatlandırılıb.

Salyan rayon Mədəniyyət Mərkəzində "Nizami Gəncəvi İli" münasibətilə keçirilən tədbirdə şairin yaradıcılığından, dünya ədəbiyyatının inkişafına verdiyi töhfələrdən söz açılıb. Nizaminin qəzəlləri səsləndirilib, kompozisiyalar nümayiş etdirilib.

Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin 880 illiyi münasibətilə sərgi təşkil olunub. Sərginin açılışında rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, Milli Məclisin deputatı Jalə Əhmədova və Biləsuvar RMİ-nin rəisi Əlisultan Sadıxov iştirak ediblər. Sərgidə heykəltəraş Rauf İbrahimov, rəssamlar Ərkinaz Salmanzadə, Səriyyə Yarıyeva, Fatimə Əliyeva, Turanxanım Cavadova və Vüsalə Kərimzadənin əl işləri nümayiş olunub. Heydər Əliyev Mərkəzi tərəfindən keçirilən şeir qiraəti müsabiqəsində isə 20-yə yaxın məktəbli iştirak edib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvi və muzeylər" başlığı altında dəyirmi masa, "Yeddi gözəl" adlı "nağıl axşamı", "Nizaminin süjet və obrazları" başlığı ilə ədəbiyyatçılarla görüş və "Sirlər xəzinəsi" başlığı altında məktəblilər arasında bilik yarışması keçirilib.

Yaşa ki, dünyaya işıq verəsən,
Torpağa göz dikmə ilan kimi sən.

"Leyli və Məcnun"

Hünər ardınca qoş, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç.

"Yeddi gözəl"

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Ağstafa Regional Mədəniyyət İdarəsi (RMİ) Ağstafa rayon Heydər Əliyev Mərkəzi və rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) birgə təşkilatçılığı ilə "Bəşəri ideyalar carçısı" mövzusunda dəyirmi masa keçirilib. Ağstafa rayon Mədəniyyət Mərkəzi, eləcə də Böyük Kəsik kənd Mədəniyyət evi, Kolxəlfəli, Pirili, Molla Cəfərli, Xılxına kənd klubları Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş onlayn tədbirlər keçiriblər. MKS-nin filialları, rayon Tarix-Diyarşünaslıq Muzeyi də dahi şairə həsr olunmuş onlayn tədbirlər təşkil ediblər.**



Ağstafa Dövlət Rəsm Qalereyasında rəsm dərnəyi şagirdlərinin əl işlərindən ibarət "Nizami Gəncəvi əsərləri gənclərin gözü ilə" adlı sərgi təşkil edilib. Qalereya və rayon MKS-nin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə isə şairin poetik qüdrətindən, əsərlərindən söz açılıb.

***



Ağstafa RMİ-nin əhatə etdiyi Tovuz rayon Heydər Əliyev Mərkəzinin, Tovuz rayon Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyinin, Düz Qırıqlı kənd Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Nizami irsinə həsr olunmuş onlayn tədbirlər keçirilib.

Rayon Dövlət Rəsm Qalereyası tərəfindən "Nizami Gəncəvi yaradıcılığı gənclərin gözü ilə" adlı dərnək üzvlərinin əl işlərindən ibarət virtual rəsm sərgisi təşkil olunub. Tovuz rayon MKS-nin Mərkəzi Kitabxanasının Uşaq şöbəsi "Nizami nəsihətləri" adlı tədbir təşkil edib. Aşıq Ə.Cəfərov adına Tovuz rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı və filialların iştirakı ilə "Hər kəlamın bir məktəbdir" adlı onlayn tədbir keçirilib.

***

Qazax rayon Heydər Əliyev Mərkəzi və Qazax Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi poemaları rəsmlərdə" mövzusunda onlayn rəsm müsabiqəsi keçirilib. Yeniyetmə və gənclər çəkdikləri 20-yə yaxın əl işini müsabiqəyə təqdim ediblər. Qaliblərə diplomlar təqdim olunub.



Rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Nizami irsinin tədqiqində və təbliğində Heydər Əliyevin əvəzsiz xidmətləri" adlı tədbir keçirilib. Mərkəzin direktoru Ceyhunə Hüseynova və digər çıxış edənlər ulu öndərin respublikamıza rəhbərliyi dövründə dahi şairin 840 illiyinin yüksək səviyyədə qeyd olunması, "Nizami" filminin çəkilməsi, Nizami məqbərəsinin təmiri, "Xəmsə"nin yeni tərcümə və nəfis tərtibdə nəşr edilməsi, Bakıda metro stansiyalarından birinə şairin adının verilməsi barədə söhbət açılıb.

Qazax Dövlət Rəsm Qalereyası və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi yaradıcılığı gənc rəssamların fırçası ilə" başlığı altında rəsm müsabiqəsi keçirilib. Müsabiqədə Eşqin Quliyev I, Ema Carçılı II, Ruhin Xasməmmədov və Zülfüqar Abdullayev III yerlərə layiq görülüblər.

Qazax rayon MKS-nin təşkilatçılığı ilə E.Hüseynov adına Mərkəzi Kitabxana və filialları şairin "Sirlər xəzinəsi" poemasının onlayn müzakirəsini keçirib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvi və Şərqdə intibah" adlı tədbir təşkil olunub. M.P.Vaqif və M.V.Vidadinin Xatirə Muzeyi və rayon mədəniyyət müəssisələri əməkdaşlarının iştirak etdiyi tədbirdə Nizami yaradıcılığının Şərqdə ədəbi-mədəni düşüncənin inkişafına verdiyi töhfələrdən söz açılıb. Tarix-Diyarşünaslıq Muzeyində gerçəkləşən "Nizami Gəncəvinin lirikası" mövzusunda dəyirmi masada isə şairin zəngin yaradıcılığının çox az hissəsini təşkil edən lirikasının ideya-bədii dəyəri vurğulanıb.



Barış zamanında döyüş başlayan
Heç ağıllı adam sayılmaz, inan!

*"Xosrov və Şirin"*

Könlündə lovğalığa deyil, hünərə ver yol,
Hər zaman, harda olsan - hünərin ovçusu ol.

*"Sirlər xəzinəsi"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Şəmkir Regional Mədəniyyət İdarəsinin (RMİ) Şəmkir rayon Heydər Əliyev Mərkəzi və rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi – 880" adlı şeir qiraəti müsabiqəsi keçirilib. Mərkəzin qalereya zalında Nizami irsinə həsr olunan kitablar və şagirdlər tərəfindən çəkilmiş rəsm əsərlərindən ibarət sərgi təşkil olunub.**



Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS), Daşkəsən Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Gəncə Heydər Əliyev Mərkəzi əməkdaşlarının iştirakı ilə "Dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyi" başlığı altında videokonfrans keçirilib.

Şəmkir rayon MKS-nin Mərkəzi Kitabxanası və filiallarında "Nizami Gəncəvi İli" münasibətilə "Bədii söz xəzinəsinin incisi", "Şərqin fenomen şairi", "Əsrlərə yadigar qalmış ad", "Sönməz günəşin hikmət dəryası", "Bəşəri ideyalar carçısı", "Poeziyamızın sönməz günəşi", "Nizami irsi və bəşəri dəyərlər" və digər mövzularda sərgilər, ədəbi-bədii gecələr təşkil olunub. MKS-nin Oxuculara xidmət şöbəsi açıq havada "Nizami Gəncəvi – 880" başlıqlı kitab sərgisi təşkil edib. Sərgidə şairin əsərlərinə çəkilmiş rəsm nümunələri də təqdim edilib.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində keçirilən tədbirdə miniatür dərnəyinin rəhbəri Fərman Hüseynov Şərqdə bu sənətin inkişafında Nizami irsinin rolu haqqında məlumat verib. Dərnək üzvləri dahi mütəfəkkirin əsərlərinə həsr edilmiş miniatürlər çəkiblər.

***



Şəmkir RMİ Gədəbəy rayon Slavyanka kənd Uşaq musiqi məktəbində Nizami Gəncəvinin 880 illiyi münasibətilə tədbir təşkil olunub. Tədbirdə dahi şairin həyat və yaradıcılığını əks etdirən rəsmlər və əsərləri nümayiş etdirilib. Daha sonra Nizaminin əsərlərinə yazılmış musiqilərin müşayiəti ilə kompozisiyalar təqdim olunub.

***

Regional idarənin Göygöl rayonu üzrə nümayəndəliyi, Göygöl Rayon İcra Hakimiyyəti və rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin anadan olmasının 880 illik yubileyinə həsr edilmiş "Xəmsə möcüzəsi" adlı rəsm müsabiqəsi keçirilib. Müsabiqədə rayon ümumtəhsil məktəblərinin şagirdləri iştirak ediblər. Qalib iştirakçılara fəxri fərman və xatirə hədiyyələri təqdim olunub.




RMİ-nin Göygöl rayonu üzrə nümayəndəliyi "Nizami ili" münasibətilə açıq havada rəsm sərgisi təşkil edib. Nümayəndəliyin təşkilatçılığı ilə keçirilən daha bir tədbirdə Nizami Gəncəvinin əsərlərindən, böyük şairin həyat və yaradıcılığına həsr olunmuş kitablardan ibarət sərgi və məktəblilərin Nizaminin yaradıcılığını əks etdirən rəsmləri nümayiş etdirilib.

Göygöl rayon MKS-nin Oxuculara xidmət şöbəsində isə Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə "Hər gecəm oldu kədər..." başlığı altında tədbir təşkil olunub. MKS-nin şöbələri tərəfindən Nizami yaradıcılığına həsr olunmuş metodiki vəsait və videoçarxlar hazırlanıb.

***

RMİ-nin tabeliyindəki Daşkəsən rayon Heydər Əliyev Mərkəzi və Daşkəsən MKS-nin birgə təşkilatçılığı ilə "Nizami yaradıcılığında humanitar və demokratik fikirlərin inkişafı, insan haqlarının təbliği və müdafiəsi" mövzusunda videokonfrans keçirilib.

Rayon MKS-nin təşkilatçılığı, kənd kitabxana filialları, eləcə də Daşkəsən rayon S.Vurğun adına 4 saylı tam orta məktəbin şagirdlərinin iştirakı ilə "Nizami və dünya ədəbiyyatı" mövzusunda tədbir keçirilib. Çıxışlarda dahi Azərbaycan şairinin dünya ədəbi fikrinə təsirindən söz açılıb.

Daşkəsən rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə ümumtəhsil məktəbləri arasında bilik yarışı keçirilib. Yarışda fərqlənən iştirakçılara mərkəz tərəfindən diplomlar təqdim olunub. Mərkəz həmçinin Uşaq incəsənət məktəbinin şagirdləri arasında musiqi müsabiqəsi təşkil edib.

*Əlini vurmasa oda bir nəfər.*
*Odun istisini necə hiss edər?*

"Leyli və Məcnun"

*O qədər xəbərsiz yatma hər zaman*
*Ki, birdən sel gəlib aşar başından.*

"İskəndərnamə" ("İqbalnamə")

# Bölgələrimiz "Nizami ili"nin işığında




**Şəki Regional Mədəniyyət İdarəsinin (RMİ) tabe müəssisələri də "Nizami ili" çərçivəsində böyük şairin hikmət xəzinəsinə bir daha nəzər yetirib, çeşidli tədbirlər təşkil ediblər.**

M.F.Axundzadə adına Şəki şəhər Mədəniyyət Mərkəzində "Nizami dünyasına səyahət" adlı ədəbi-bədii kompozisiya təqdim edilib. Mərkəzin tabeliyində fəaliyyət göstərən Kiçik Dəhnə kənd Diyarşünaslıq klubunda "Söz xəzinəsi" adlı ədəbi-bədii axşam, Şəki kənd Folklor evində isə "Nizami irsinə məhəbbət" adlı mühazirə təşkil olunub.

Şəki şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) Mərkəzi Kitabxanasında "Sirlər xəzinəsi" adlı bilik yarışması keçirilib. Şəki şəhər 4 nömrəli Uşaq musiqi məktəbində keçirilən tədbirdə dahi Nizaminin qəzəllərinə yazılmış romanslar ifa olunub, "Yeddi gözəl" poemasından "Xeyir və Şər" hekayəti səsləndirilib.

Biləcik kənd Folklor evi və MKS-nin 24 saylı kitabxana filialının birgə təşkilatçılığı ilə "Dahi Nizaminin söz dünyası" adlı tədbir keçirilib. Kənd məktəbinin şagirdləri Nizaminin qəzəllərindən nümunələr söyləyiblər.

Şəki şəhər Heydər Əliyev Mərkəzində Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə kitab və rəsmlərdən ibarət sərgi keçirilib. Sərgidə şairin kitabları, "Xəmsə"yə çəkilmiş miniatürlər, Heydər Əliyev Fondu tərəfindən mərkəzə hədiyyə edilən nəşrlər nümayiş etdirilib. Şəki Dövlət Dram Teatrının gənc aktyorlarının iştirakı ilə hazırlanmış kompozisiya nümayiş olunub.





Xalq şairi Bəxtiyar Vahabzadənin Şəki şəhərindəki ev-muzeyində Nizaminin yubileyi münasibətilə tədbir keçirilib. Tədbirdə Oxud kənd Əhmədiyyə Cəbrayılov adına tam orta məktəbin şagirdlərinin ifasında şairin əsərləri əsasında hazırlanmış səhnəciklər təqdim olunub.

***

Zaqatala rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Zaqatala nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi İli"nə həsr olunmuş onlayn konfrans keçirilib. Konfransda əlamətdar il çərçivəsində həyata keçirilən tədbirlərdən bəhs olunub. Heydər Əliyev Mərkəzində keçirilən "Dahilik zirvəsi – Nizami" adlı tədbirdə isə şəhər 1 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Zaqatala rayon MKS "İncitək sözlər seç, dünya bəzənsin" adlı onlayn şeir qiraəti müsabiqəsi keçirib. 30-dan çox oxucunun iştirak etdiyi müsabiqədə Hürü Məmmədova I, Aytən Süleymanova II, Gülay Şabanova III yerlərə layiq görülüblər.

***

Şəki RMİ-nin əhatə etdiyi Oğuz rayon M.F.Axundzadə adına Mədəniyyət Mərkəzində "Dahilərlə ucalan dünyamız" adlı ədəbi-bədii gecə keçirilib. Dahi şairin yaradıcılığını əks etdirən kitab və rəsmlərdən ibarət sərgiyə baxışdan sonra "Sənsiz" romansı səsləndirilib. Bədii özfəaliyyət dərnəklərinin üzvləri və rayonda fəaliyyət göstərən mədəniyyət klublarının əməkdaşları Nizami yaradıcılığından nümunələr söyləyib, səhnəciklər təqdim ediblər.

***

Qax rayon Mədəniyyət Mərkəzi nəzdində fəaliyyət göstərən İsmayıl Dağıstanlı adına Xalq teatrında "Yeddi gözəl" poemasından "Xeyir və Şər" əhvalatı əsasında tamaşa göstərilib. Gülşad Paşayevanın quruluş verdiyi tamaşada Xeyir obrazını Şəmsəddin Quliyev, Şər obrazını İbrahim Paşayev canlandırıb, digər obrazları Nəvai Əliyev, Aydan Əhmədova, Əli Yunusov ifa ediblər.

Mədəniyyət Mərkəzində təşkil olunan "Nizami xəzinəsindən incilər" adlı bədii qiraət müsabiqəsində Mələk Mehrablı I, Şəbnəm Bayramzadə və Səbinə Bayramlı II, Sərxan Məmmədli, Aylin Muradlı və Kifayət Şərifova III yerləri tutublar.

Qax Dövlət Kukla Teatrının yaradıcı heyəti Gəncə Dövlət Kukla Teatrının qonağı olub. Qaxlı aktyorların "Xeyir və Şər" tamaşası maraqla qarşılanıb.

***

Balakən rayon Mədəniyyət Mərkəzi teatrsevərlərə "İdrak işığı sönməzdir" adlı tamaşa təqdim edib. Mədəniyyət Mərkəzinin bədii rəhbəri Tural Kərimovun quruluş verdiyi tamaşada rolları mərkəzin "Könüllülər" qrupunun üzvləri Nuray Əsgərova, Emil Hacıyev və Fərhad Əhmədov ifa ediblər.



Bəla görəcəksən pislik etdinsə,
Əvəz verəcəkdir dünya hər kəsə.

*"Xosrov və Şirin"*

Düşməni qanına qərq etmək olar,
Dostla vuruşmağın mənasımı var?

*"Leyli və Məcnun"*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**İsmayıllı Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyi münasibətilə "İncitək sözlər" mövzusunda tədbir keçirilib. Tədbirdə Milli Məclisin deputatı Şahin Seyidzadə, İsmayıllı RMİ-nin rəisi Elçin Nəcəfov, Qobustan Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə Güləliyeva və başqaları çıxış edərək mütəfəkkir şairin yaradıcılığından, əsərlərinin ümumbəşəri səciyyə daşımasından söz açıblar. Tədbirin bədii hissəsində incəsənət ustaları və Qobustan şəhər R.Behbudov adına Uşaq incəsənət məktəbinin müəllim və şagirdlərinin ifasında Nizaminin sözləri əsasında musiqi nömrələri səsləndirilib.**






İsmayıllı Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Nizami Gəncəvi İli" ilə əlaqədar onlayn rəsm müsabiqəsi keçirilib. Rayon MKS tərəfindən isə oxucular arasında "Xəmsə" adlı onlayn şeir qiraəti müsabiqəsi təşkil edilib.

İsmayıllı rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları və fəal oxucuların iştirakı ilə Nizami Gəncəvinin "Sirlər xəzinəsi" poemasından "Kərpickəsən kişinin dastanı" hekayəti əsasında tamaşa təqdim olunub.

***

Ağsu rayon Mədəniyyət Mərkəzində "Nizami Gəncəvi İli" çərçivəsində tədbir keçirilib. Tədbirdə Üzeyir Hacıbəylinin şairin sözlərinə yazdığı "Sənsiz", "Sevgili canan" romansları ifa olunub, şeirlərindən parçalar səsləndirilib, əsərlərindən ibarət kitab sərgisi nümayiş etdirilib.

Ağsu rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Nizaminin 880 illiyi münasibətilə "Dünya adlanan yer" adlı rəsm sərgi-müsabiqəsi gerçəkləşib. Heydər Əliyev adına parkda açıq havada keçirilən tədbirdə yeniyetmə və gənc rəsm həvəskarlarının 100-ə yaxın əl işi nümayiş olunub. Fərqlənən rəsmlərin müəllifləri diplomla təltif olunub.

***

Şamaxı şəhər İncəsənət Təhsili Mərkəzində "Nizami Gəncəvi – 880" adlı rəsm sərgisi keçirilib. Sərgidə dahi Azərbaycan şairinin əsərləri əsasında çəkilmiş nümunələr və söz ustadının portretləri nümayiş olunub.

M.Ə.Sabirin Ev-Muzeyində "Nizami dühası və qadın obrazı" mövzusunda dəyirmi masa təşkil olunub. Ev-muzeyi və Şamaxı YAP Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Şamaxı rayon ümumtəhsil məktəblərinin şagirdləri arasında "Qızıl qələm" adlı onlayn şeir müsabiqəsi keçirilib.



Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Xəmsə" adlı şeir qiraəti müsabiqəsi keçirilib. Muzeyin əməkdaşları tərəfindən Şamaxı şəhər 6 saylı tam orta məktəbdə "Tarixdə iz buraxan dahi şair – Nizami" adlı mühazirə oxunub. Muzey tərəfindən "Sözləri ilə dünyanı fəth edən şair" adlı kitab sərgisi də təşkil olunub.

Şamaxı Dövlət Rəsm Qalereyası "Nizami ili" münasibətilə "Ölməz sənətin yaşadır səni", "Qəlblərdə yaşayan şair" adlı sərgilər keçirib. Rayon Mərkəzi Kitabxanasında isə "Kərpickəsən kişinin dastanı" adlı bədii kompozisiya və kitab sərgisi təşkil olunub. Şamaxı rayon Heydər Əliyev Mərkəzində də sərgi keçirilib, "Nizami" bədii filmi nümayiş etdirilib.

***

Qəbələ rayon Heydər Əliyev Mərkəzi və Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə "Nizami ili" münasibətilə "Söz, kitab və mütaliə" adlı tədbir keçirilib. Heydər Əliyev Mərkəzində həmçinin "Nizami – uşaqların gözü ilə" adlı sərgi, "Nizami Gəncəvi – "Sirlər xəzinəsi" adlı tədbir təşkil olunub.

Qəbələ Dövlət Rəsm Qalereyasında təşkil edilən "Nizami Gəncəvi – 880" adlı sərgidə qalereyanın fondunda saxlanılan dahi şairin portretləri ilə yanaşı, həvəskar rəssamların əl işləri və dekorativ sənət nümunələri nümayiş olunub. Qəbələ rayon MKS-də və filiallarda da "Nizami ili" münasibətilə müxtəlif tədbirlər keçirilib.

*Qamışın hansı otdan baxma göyərdiyinə,*
*Bax, gör onu şəkəri çıxardı nə ağ günə.*

*"Sirlər xəzinəsi"*

*Ciddiyyət gözləmək yüngül adamdan,*
*Gövhər istəməkdir arpa satandan.*

*"İskəndərnamə" ("İqbalnamə")*

# Bölgələrimiz "Nizami ili"nin işığında

**Ağcabədi Regional Mədəniyyət İdarəsinin (RMİ) təşkilatçılığı ilə "Nizami Gəncəvi – bütün bəşəriyyətin şairi" başlığı altında tədbir keçirilib. Tədbirdə şairin bəşəri ideyalarından bəhs edilib, Nizami yaradıcılığına dünya alimləri tərəfindən diqqət göstərildiyi vurğulanıb. Qeyd edilib ki, müxtəlif ölkələrdə Nizaminin heykəlləri ucaldılıb, şairin əsərləri xarici dillərə tərcümə edilib.**




Ağcabədi rayon Heydər Əliyev Mərkəzi və rayonda fəaliyyət göstərən "Ələk" ədəbi məclisinin birgə təşkilatçılığı ilə "Nizami Gəncəvi İli"nə həsr olunan videokonfrans keçirilib. Çıxış edənlər şairin yaradıcılığı haqqında söz açıblar. Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi böyük ədəbi şəxsiyyətlərdən biri olan Nizami Gəncəvinin ölməz əsərləri ilə dünya şöhrəti qazandığı vurğulanıb.

Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Nizaminin sirli xəzinəsi" mövzusunda inşa yazı müsabiqəsi keçirilib. Ağcabədi şəhər ümumtəhsil məktəbləri şagirdlərinin iştirak etdiyi müsabiqədə fərqlənən 5 nömrəli tam orta məktəbdən Fidan Şahverdiyeva və Fəridə Əkbərova, 4 nömrəli məktəbin şagirdi Gülər Abdullayeva diplomla təltif olunublar.

Ağcabədi rayon Heydər Əliyev Mərkəzində Nizaminin 880 illiyinə həsr olunan "Sözün də su kimi lətafəti var" adlı tədbir keçirilib. Tədbirdə Nizami hikmətlərindən, şairin sözə verdiyi qiymətdən danışılıb.

Rayon Tarix-Diyarşünaslıq Muzeyində yazarların, mədəniyyət müəssisələri əməkdaşlarının iştirakı ilə "Nizami ili"ndə ədəbi mühit" mövzusunda dəyirmi masa təşkil edilib.

Ağcabədi rayon MKS-nin əməkdaşları və fəal oxucuları Nizami Gəncəvinin Gəncə şəhərində yerləşən məqbərəsini ziyarət ediblər. Məqbərə ilə tanışlıqdan sonra qonaqlar Nizami Gəncəvi Muzeyinə də baş çəkiblər. Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğu Nizami məqbərə filialının müdiri Gülnarə İsmayılova ziyarətçilərə mütəfəkkir şairin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verib.

***

Regional idarənin əhatə etdiyi Laçın rayon MKS-nin Pircahan kənd kitabxana filialı "Nizami – 880" adlı videoçarx hazırlayıb. Materialda şairin yaradıcılığı haqqında məlumat və mütəfəkkirin aforizmlərindən nümunələr verilib.

***

Ağcabədi RMİ-nin tabe müəssisəsi olan Ağdam rayon Rahib Məmmədov adına Döyüş Şöhrəti Muzeyində "Nizami Gəncəvi İli" münasibətilə tədbir keçirilib. Şairin zəngin ədəbi irsindən söz açılıb, Nizami Gəncəvi haqqında hazırlanan videoslayd nümayiş olunub. R.Məmmədov adına Mahrızlı kənd tam orta məktəbinin şagirdləri şairin şeirlərindən parçalar söyləyiblər. Muzey tərəfindən şagirdlərə fəxri fərmanlar təqdim edilib.

Ağdam rayon Gülablı kənd Uşaq musiqi məktəbinin tar müəllimi İntiqam Oktaylı və tanınmış xanəndə, Xalq artisti Teyyub Aslanovun iştirakı ilə Gəncədə, Nizami Gəncəvinin məqbərəsi önündə bəstəkar Vüqar Camalzadənin dahi söz ustadının qəzəlinə bəstələdiyi mahnı üçün klip çəkilib.

# Yurdun hər yerində hikmət şəfəqi

**AMEA-nın Naxçıvan Bölməsində "Xəmsə"yə daxil olan ilk əsər – "Sirlər xəzinəsi" poeması və "Nizaminin hikmət və nəsihətləri" kitabının müzakirəsi keçirilib. Bölmənin sədri, akademik İsmayıl Hacıyev böyük şairin dünya ədəbiyyatında mövqeyindən danışıb. Bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri Ramiz Qasımovun, filologiya üzrə fəlsəfə doktorları Firudin Rzayev və Aygün Orucovanın çıxışları dinlənilib.**

***

Naxçıvan Dövlət Universiteti (NDU) "Şərq ədəbiyyatında Nizami Gəncəvi yaradıcılığı" mövzusunda onlayn elmi konfrans keçirib. Rektor Elbrus İsayevin açılış nitqindən sonra NDU-nun professoru Sədaqət Həsənova "Nizami Gəncəvinin söz dünyası", Mingəçevir Dövlət Universitetinin dosenti Esmira Cəfərova "Nizami Gəncəvi yaradıcılığında tolerantlıq və çoxmədəniyyətlilik", Naxçıvan Müəllimlər İnstitutunun professoru Yusif Səfərov "Naxçıvan folklorunda "Xosrov və Şirin" poeması ilə səsləşən rəvayətlər" mövzularında çıxış ediblər. Bölmə iclaslarında AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası əməkdaşlarının məruzələri dinlənilib.

***

Naxçıvan MR Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzi və muxtar respublika Yazıçılar Birliyi Nizaminin "Sirlər xəzinəsi" poemasının müzakirəsini keçirib. Tədbiri mərkəzin elmi katibi Nihad Tarverdiyev açıb. NMR Yazıçılar Birliyinin sədri, şair Asim Yadigar, AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutu, Folklorşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Elxan Məmmədov və başqalarının çıxışları dinlənilib.



İstəyirsən evin salamat qala,
Evə yad adamı buraxma əsla.

"Xosrov və Şirin"

Öz qəbiləsinə asi olan şəxs
Onunla bir yerdə yaşaya bilməz.

"Leyli və Məcnun"

# Nizami Gəncəvi: özü və irsi illərdə

**1141** – Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi Azərbaycanın Gəncə şəhərində doğulub və 68 illik ömrünü bu şəhərdə yaşayıb.

**1169** – Dərbənd hökmdarı Nizamini öz sarayına cəlb etmək üçün ona Afaq adlı bir kəniz göndərib.

**1174** – Şairin Afaqdan Məhəmməd adlı bir oğlu olub.

**1175** – "Xəmsə"nin ilk kitabı olan "Sirlər xəzinəsi" poemasını tamamlayıb.

**1179** – Şairin həyat yoldaşı vəfat edib və o, ikinci dəfə Gövhər adlı bir qadınla evlənib.

**1180** – "Xosrov və Şirin" poemasını bitirib, Azərbaycan Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvana hədiyyə göndərib.

**1186** – Məhəmməd Cahan Pəhləvanın ölümündən sonra onun yerinə keçmiş Qızıl Arslan Nizami ilə görüşmək üçün Gəncəyə gəlib.

**1188** – "Xəmsə"nin üçüncü kitabı – "Leyli və Məcnun" poemasını yazıb.

**1197** – Marağa hakimi Ağsunqur Körpə Arslana ithaf etdiyi "Yeddi gözəl" poemasını tamamlayıb.

**1203** – "Xəmsə"nin sonuncu poemasını – yaradıcılığının ən uca zirvəsi sayılan "İskəndərnamə"ni bitirib.

**1209** – Gəncə şəhərində vəfat edib.

**XIII əsr** – Nizaminin Gəncə şəhərinin yaxınlığında – Əhmədli kəndində dəfn olunduğu yerdə ağ əhəngdaşından qəbirüstü türbəsi tikilib.

**XIV–XIX əsrlər** – "Xəmsə"nin Yaxın və Orta Şərqin müxtəlif şəhərlərində köçürülən əlyazmalarına minlərlə miniatür çəkilib. "Xəmsə"nin günümüzə gəlib çatan ən qədim əlyazması 1318-ci ilə aiddir və Tehran Universitetinin kitabxanasında saxlanılır. Bakıda, AMEA-nın



Əlyazmalar İnstitutunda saxlanılan nüsxələrdən ən qədimi 1421-ci ilə aiddir.

**1845** – Nizami Gəncəvinin "Xəmsə"si Tehranda daşbasma üsulu ilə çap edilib.

**1848** – "Xəmsə" Hindistanın Bombey şəhərində fars dilində çap olunub. XIX əsrin ikinci yarısında Tehranda "Xəmsə"nin daha bir neçə dəfə çapı həyata keçirilib.

**1860** – Bombeydə çap olunan Lütfəli bəy Azərin "Atəşkədə" təzkirəsində (XVIII əsrdə yazılıb) Nizami başda olmaqla yüzədək azərbaycanlı ədib haqqında məlumat toplanıb.

**1891** – Anadan olmasının 750-ci ildönümündə Gəncə yaxınlığında şairin türbəsinin yerində məqbərə ucaldılıb.

**1896** – M.Tevinkovun "Qədim Rusiya ilə Xəzəryanı dövlətlərin münasibətlərinin Nizaminin "İskəndərnamə" poemasında bir mənbə kimi xarakteristikası" adlı kitabı Tiflisdə rus dilində çap edilib.

**1907** – Nizaminin "Oğlum Məhəmmədə nəsihət"i M.Hadinin tərcüməsində "Füyuzat" jurnalında nəşr edilib.

**1909** – Mirzə Məhəmməd Axundzadə şair haqqında "Şeyx Nizami" adlı ilk kitabı Gəncədə çap etdirib.

**1932** – Şairin Gəncədəki məqbərəsi üzərində müvəqqəti abidə qoyulub.

**1938, 25 iyun** – Azərbaycan KP MK "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olması-




nın 800 illiyinin bayram edilməsi haqqında" qərar qəbul edib.

**1939, 1 noyabr** – Azərbaycan SSR XKS tərəfindən "Böyük Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr edilən daimi sərgi (ev-muzey) təşkil etmək haqqında" qərar qəbul edilib. Həmin il Nizaminin "Şeirlər" kitabı nəşr edilib.

**1940** – Moskvada Nizamiyə həsr edilmiş elmi sessiya təşkil olunub. Nizami əsərlərinin tərcüməsi üzrə Bakıda ümumittifaq müşavirəsi keçirilib. "Xəmsə"yə daxil olan poemalar ilk dəfə Azərbaycan dilinə tərcümə olunaraq nəşr edilib.

**1941, 29 aprel** – Azərbaycan KP MK Bürosu şairin 800 illik yubileyinin keçirilməsi (1941-ci il 16 oktyabr tarixində) ilə bağlı qərar qəbul edib. Həmin il SSRİ EA Azərbaycan Filialı Nizami adına Dil və Ədəbiyyat İnstitutunun hazırladığı "Nizami lirikası" kitabı çapdan çıxıb.

**1941, 17 oktyabr** – Nizaminin 800 illik yubileyi müharibə şəraitində Sankt-Peterburqda, Dövlət Ermitajında qeyd edilib.

**1945** – Bakıda Nizami Muzeyinin açılışı olub. Sonralar Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi kimi fəaliyyət göstərməyə başlayıb.

**1947** – Nizami Gəncəvinin 800 illik yubileyi dövlət səviyyəsində (Azərbaycan və SSRİ miqyasında) təntənəli şəkildə, silsilə tədbirlərlə qeyd edilib. Gəncədə qədim məqbərənin yerində daş məqbərə inşa edilib, şairin abidəsi ucaldılıb (heykəltəraş Fuad



Əbdürrəhmanov), Moskvada SSRİ Elmlər Akademiyası və Sovet Yazıçıları İttifaqının Nizami Gəncəvinin 800 illiyi ilə bağlı təntənəli iclası, Sankt-Peterburqda, eləcə də Gürcüstan, Özbəkistan, Ermənistan, Türkmənistan, Latviya və digər respublikalarda yubiley tədbirləri keçirilib.

**1949** – Bakıda, Nizami Muzeyi qarşısında şairin abidəsi (müəllifi Fuad Əbdürrəhmanov, memarlar Mikayıl Hüseynov və Sadıq Dadaşov) qoyulub.

**1976, 31 dekabr** – Bakı Metropoliteninin "Nizami" stansiyası istifadəyə verilib.

**1979** – Azərbaycan KP MK "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" qərar qəbul edib. Azərbaycanda ənənəvi Nizami Poeziya Günləri keçirilməyə başlanıb.

Hər kəs zor göstərsə işində əgər,
İşinin nizamı pozulub gedər.

*"Yeddi gözəl"*

Madam ki, sülh ilə göyərər dilək,
Döyüşə at çapmaq daha nə gərək?

*"İskəndərnamə" ("Şərəfnamə")*

**1980** – Bakı şəhərində rayonlardan birinə mütəfəkkir şairin adı verilib.

**1981** – Azərbaycan KP MK Nizami Gəncəvinin 840 illik yubileyinin qeyd edilməsi barədə qərar qəbul edib. Azərbaycan SSR Nazirlər Soveti "Nizami adına medal təsis edilməsi haqqında" qərar qəbul edib. Nizami Gəncəviyə həsr olunmuş SSRİ-nin poçt markası buraxılıb. Şairin 840 illiyi Moskvada, İttifaqlar Evinin Sütunlu Salonunda təntənəli surətdə qeyd edilib. Bakıda, Lenin adına Sarayda təntənəli yubiley tədbiri keçirilib.

**1982** – "Azərbaycanfilm" Kinostudiyasında "Nizami" bədii filmi (ssenari müəllifləri İsa Hüseynov, Eldar Quliyev, quruluşçu rejissor Eldar Quliyev, quruluşçu operator Arif Nərimanbəyov, quruluşçu rəssam Mayis Ağabəyov, bəstəkar Qara Qarayev, baş rolun ifaçısı Müslüm Maqomayev) çəkilib.

**1990** – Azərbaycan KP MK "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi haqqında" qərar qəbul edib.

**1991** – SSRİ Mədəniyyət Nazirliyinin "Nizami Gəncəvinin anadan olmasının 850 illiyi qarşısında yubiley tədbirləri keçirilməsi haqqında" əmri imzalanıb. Moskvada Nizami Gəncəvinin abidəsinin açılışı olub. 850 illik yubiley münasibətilə SSRİ-nin 1 rubl yubiley monetası buraxılıb. Təbriz Universitetində Nizaminin 850 illik yubileyinə həsr olunmuş beynəlxalq elmi konfrans keçirilib.

**1992** – Türkiyənin paytaxtı Ankarada "Azərbaycan şairi Nizami Gəncəvi simpoziumu" keçirilib.

**1993** – Azərbaycan Milli Bankı Nizami Gəncəvinin portreti həkk olunmuş 500 manatlıq əsginası tədavülə buraxıb.

**1996** – Lüksemburqda Rusiya Federasiyası Səfirliyinin ərazisində Nizami Gəncəvinin abidəsi ucaldılıb. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev açılışda çıxış edib.

**1998** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "Nizami Gəncəvinin Sankt-Peterburq şəhərində abidəsinin qoyulması haqqında" sərəncam imzalayıb.

**2002, 9 iyun** – Rusiyanın Sankt-Peterburq şəhərində Nizami Gəncəvinin abidəsinin açılışı keçirilib. Mərasimdə Azərbaycan və Rusiya prezidentləri Heydər Əliyev və Vladimir Putin iştirak ediblər.

**2004, 23 mart** – Daşkənddə Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimovun iştirakı ilə Nizami Gəncəvinin büstünün açılış mərasimi olub.

**2005** - Moldovanın paytaxtı Kişineuda Nizami Gəncəvinin abidəsi ucaldılıb. Prezident İlham Əliyev və Moldovanın dövlət başçısı Vladimir Voronin açılış mərasimində iştirak ediblər.

**2006** – Şairin Gəncə şəhərindəki məqbərəsi və ətrafındakı park yenidən qurulub.

**2008** – Nizami Gəncəvinin xatirəsinə həsr olunmuş 100 manat dəyərində qızıl xatirə sikkələri tədavülə buraxılıb.

**2010** – UNESCO-nun Mərkəzi Asiya Araşdırmaları İnstitutu Səmərqənddə "Nizami və Nəvai: tarixi və mədəni əlaqələr" mövzusunda beynəlxalq elmi konfrans keçirib.



**2011, 23 dekabr** – Prezident İlham Əliyev "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" sərəncam imzalayıb.

**2012** – Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş "Nizami günləri" adlı silsilə tədbirlər keçirilib. Azərbaycan Milli Kitabxanası tərəfindən ilk dəfə olaraq "Nizami Gəncəvi" fundamental biblioqrafiyası nəşr edilib. İtaliyanın Roma şəhərində dahi şairin abidəsinin açılışı (20 aprel) olub. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva mərasimdə iştirak edib. Prezident İlham




Əliyev Gəncədə "Xəmsə" abidə-kompleksinin və Nizaminin heykəlinin açılışında iştirak edib.

**2013** – Oksford Universiteti (Böyük Britaniya) nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi yaradılıb. Mərkəz böyük mütəfəkkirin irsinin təbliği ilə bağlı nəşr layihələri həyata keçirir.

**2014** – Prezident İlham Əliyev Heydər Əliyev Fondunun dəstəyi ilə Gəncədə inşa olunan Nizami Gəncəvi Muzeyinin açılışında (21 yanvar) iştirak edib. Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı təsis (Azərbaycan Respublikasının 2014-cü il 16 may tarixli Qanunu ilə) edilib. Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanı ilə Nizami Gəncəvi adına Qızıl medal ilə təltif etmək səlahiyyəti AMEA Rəyasət Heyətinə verilib.

**2018** – Gəncənin Hacıkənd qəsəbəsində "Nizami Gəncəvi: xələflər və xələflər parkı" istifadəyə verilib.

**2019, 21 noyabr** – Prezident İlham Əliyevin iştirakı ilə Sumqayıt şəhərində "Nizami" kinoteatrının yeni binasının açılışı olub. Binanın qarşısında şairin heykəli qoyulub.

**2020, 10 fevral** – Prezident İlham Əliyev AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin 80 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**2021, 5 yanvar** – Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında sərəncam imzalayıb. "Nizami ili" ölkəmizdə və xaricdə silsilə tədbir və layihələrlə qeyd olunub, o cümlədən 15–26 noyabr tarixində Bakıda və Gəncədə Beynəlxalq Nizami Gəncəvi Festivalı, 24–26 noyabrda Bakıda Nizami Gəncəvi Beynəlxalq Forumu keçirilib.





Az sözün incitək mənası solmaz,
Çox sözün kərpictək qiyməti olmaz.

"Leyli və Məcnun"

Heç kimsəylə yola getmirsə bir kəs,
Ona bel bağlayıb bir iş görülməz.

"Xosrov və Şirin"

# Əbədiyaşar beş söz – hikmət gövhəri

**Dahi şair və mütəfəkkir Nizami Gəncəvi Azərbaycan xalqının dünya ədəbiyyat və mədəniyyətinə bəxş etdiyi nadir şəxsiyyətlərdəndir. Böyük söz, fikir ustadının səkkiz əsr öncə yaratdığı ədəbi irs bu günə qədər olduğu kimi, gələcəkdə də öz ideya-bədii dəyərini qoruyub saxlayacaq.**

Bənzərsiz lirikası ilə könülləri oxşayan Nizami Gəncəvi dünya ədəbi fikrinə öz adını məhz "Xəmsə" (beşlik) ilə əbədi həkk etdirib. Müəllifin "Beş xəzinə" ("Pənc gənc") adlandırdığı bu hikmət toplusu onun yaradıcılıq qüdrətinin, söz-sənət duyumunun hüdudsuzluğunu göstərməklə yanaşı, ədəbi-nəzəri və forma, mövzu, ideya baxımından Nizaminin inqilabi yeniliyi kimi dəyərlidir. "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl" və "İskəndərnamə" adlı poema-məsnəvilər bəşəriyyəti düşündürən, insanları ədalətə, sülhə, birliyə, xeyirxahlığa səsləyən mütərəqqi ideyalar məcmusudur.

### "Sirlər xəzinəsi"

"Xəmsə"nin ilk əsəri "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar") poemasıdır. Şairin 1175-ci ildə yazıb bitirdiyi əsər aruzun səri bəhrindədir. Poema Ərzincan hakimi Məlik Fəxrəddin Bəhram şaha həsr olunub.

Didaktik poema janrının ən qiymətli nümunələrindən hesab olunan "Sirlər xəzinəsi" 2288 beytdən ibarətdir. Əsəri ayrı-ayrı vaxtlarda Azərbaycan dilinə Süleyman Rüstəm, Abbasəli Sarovlu və Xəlil Rza Ulutürk tərcümə edib.

İdeya baxımından Şərq-islam dünyasında məşhur olan "Kəlilə və Dimnə", "Qutadqu-bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Çəhar məqalə" kimi əsərlərə və xalq yaradıcılığı nümunələrinə yaxın olan "Sirlər xəzinəsi" həm də bir sıra xüsusiyyətləri ilə onlardan fərqlənir.




"Sirlər xəzinəsi" poeması müqəddimə, 20 məqalət (söhbət) və bu məqalətləri epik lövhələrlə əks etdirən 20 kiçik mənzum hekayədən ibarətdir. Böyük şair əsərin əvvəlində tovhid, minacat, nət adlı başlıqlar altında Allahın qüdrətindən, peyğəmbərdən söhbət açır.

Əsərdəki bir çox məqalə və hekayələri müəllifi düşündürən problemlərə həsr edilib. "İnsanın mərtəbəsi haqqında" birinci, "Ədalət və insafı gözləmək haqqında" ikinci, "Padşahın rəiyyətə qayğı göstərməsi haqqında" üçüncü məqalətlər, hekayətlərdən isə "Özündən naümid olub bağışlanan padşahın hekayəsi", "Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı", "Bir şahzadənin hekayəsi" və başqaları mütəfəkkir ədibin dövlət və cəmiyyət münasibətlərini, humanist dəyərləri əks etdirir. Dahi şair dövrünün zalım hökmdarlarını bəzən axirətlə qorxudur. Gah da zülmün bu dünyada onlara zərər yetirəcəyini xatırladır. Bəzən də onları xalqın qəzəbi ilə hədələyir...

Nizaminin bu poeması da əsrlər öncədən ölkəmizin hüdudlarından kənarda tanınmağa başlayıb. 1786-cı ildə Hindistanda çap edilən "Səfineyi-Asiyayi" məcmuəsinin ikinci nömrəsində "Sirlər xəzinəsi"nin iyirmi məqaləti dərc edilib. Əsər V.Conson tərəfindən ingilis, L.Hayn tərəfindən isə latın dillərinə tərcümə olunub. Sonra əsər Rusiyada işıq üzü görüb, Avropada təkrar nəşr edilib.

### "Xosrov və Şirin"

"Beşlik"də ikinci poema olan "Xosrov və Şirin" əsəri dahi Nizami tərəfindən eşqə ucaldılan bənzərsiz söz abidəsi kimi səciyyələndirilir. Şair əsəri Sasani şahı II Xosrov Pərviz (570-628) və onun həyat yoldaşlarından biri olan Şirin haqqında Şərqdə geniş yayılan əfsanə əsasında qələmə alıb.

Bu əfsanəyə yazılı ədəbiyyatda ilk dəfə fars şairi Firdovsinin "Şahnamə"sində qısa şəkildə toxunulub. Nizami Gəncəvi isə bu mövzuya ayrıca əsər həsr edib. Müəllifin 1180-ci ildə bitirdiyi poema Atabəy Məhəmməd Cahan Pəhləvana (1136-1186) həsr edilib. Əsərdə eyni zamanda Azərbaycan atabəylərindən Toğrul ibn Arslan Səlcuqi və Qızıl Arslanın da adları çəkilir. 12 min 112 misradan ibarət olan poema əruz vəzninin həzəc bəhrindədir.




Böyük şair əsərdə saf məhəbbəti tərənnüm etməklə yanaşı, onu daim düşündürən ədalətli şah probleminə də geniş yer ayırıb. Müəllif mütərəqqi ideyalarını poemada yaratdığı Hürmüz şah, Məhin Banu və nəhayət, Şirin kimi ədalətli şah obrazları vasitəsilə ifadə edib.

Dahi şair ilahi eşqin fonunda bir çox ictimai mətləblərdən bəhs edib. Fərhadın Şirinə olan pak sevgisi əsasında əsl məhəbbətin insanı ucaltmaq qüdrətini göstərib. Xosrovla Şirinin macəraları işığında isə eşqin hökmdarı dəyişdirmək və kamilləşdirmək imkanlarını isbat edib. Mahir daşyonan Fərhadın timsalında isə əməkçi insanın fədakar obrazı yaradılıb.

"Xosrov və Şirin" poemasının maraqlı və orijinal quruluşu var. Əsər bütün Orta əsr poemaları kimi minacat, nət, kitabın yazılma səbəbi, Toğrul Arslan, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın tərifi, eşq haqqında şairin mülahizələri kimi giriş fəsillərlə başlanır.

Poema ilk dəfə cüzi ixtisarla Əvəz Sadıqov tərəfindən dilimizə sətri tərcümə edilib və 1941-ci ildə "Azərnəşr"də çap olunub. Əsərin Azərbaycan dilinə poetik tərcüməsi isə Xalq şairi Rəsul Rza tərəfindən həyata keçirilib.

"Xosrov və Şirin" əsəri Şərqdə məhəbbət poemalarının yaranmasına böyük təsir göstərib. Nizami ədəbi məktəbindən layiqincə bəhrələnən XIII əsrin türkəsilli hind şairi Əmir Xosrov Dəhləvi 1298-ci ildə "Şirin və Xosrov", XIV əsrdə Azərbaycan şairi Arif Ərdəbili "Fərhadnamə", görkəmli özbək şairi Əlişir Nəvai "Fərhad və Şirin" poemalarını, Xalq şairi Səməd Vurğun "Fərhad və Şirin" (1941) mənzum dramını yazıblar.

"Xosrov və Şirin" əsəri Orta əsrlərdən üzü bəri Şərq aləmində təsviri sənətin inkişafına da mühüm töhfə verib.

### "Leyli və Məcnun"




"Xəmsə"yə daxil olan üçüncü əsər "Leyli və Məcnun" poemasıdır. Belə bir mövzuda əsər yazmağı şairdən Şirvanşah I Axsitan (1160-1197) xahiş edib. Buna baxmayaraq




*Bərk daşlar içində gizlənər gövhər,*
*Gövhər çətinliklə əldə edilər.*

**"İskəndərnamə" ("İqbalnamə")**

*Bilir bu hikməti hər arif kişi,*
*Pis nəticə verməz yaxşının işi.*

**"Yeddi gözəl"**

Nizami heç də dövrün şahlarını təmin edəcək əsər yaratmır. O daha çox öz narahat düşüncələrini qələmə alır. Axsitan şairdən bu "gəlin"i (mövzunu) fars, ərəb əfsanə və rəvayətləri ilə bəzəməyi istəyir. Şair mövzu ətrafında ciddi axtarışlar aparır və bənzərsiz bir söz abidəsi ucaldır. Söz ustadı "Leyli və Məcnun"u 1188-ci ildə yazıb bitirib.

4600 beytdən ibarət, həzəc bəhrində olan poema Yaxın Şərq xalqlarının folklorunda geniş yayılmış bir dastan-rəvayəti əks etdirir. Nizami bu şifahi nümunəni yazılı ədəbiyyata gətirən ilk şairdir.

Əsər VII əsrdə indiki Səudiyyə Ərəbistanı ərazisində yaşamış Qeys ibn Muləvvəh adlı gəncin həyatı və Leyli adlı qıza olan nakam sevgisindən bəhs edir. Qeys Leyliyə sevgisini ifadə edən şeir və nəğmələr yazır. Leylinin atasından qızını ona ərə verməyi xahiş edir. Ata bunun qəbilə qaydalarına zidd olduğunu bildirir. Bundan sonra Leyli başqa birinə ərə verilir. Əsas hadisələr də bundan sonra cərəyan edir. Qeys səhraya üz tutur, öz eşqi yolunda Məcnuna çevrilir...

Poemadan kiçik bir parça ilk dəfə İngiltərə şərqşünası, tərcüməçi Ceyms Atkinson tərəfindən ingilis dilinə tərcümə edilərək 1836-cı ildə yayımlanıb, 1894 və 1915-ci illərdə təkrar nəşr olunub. Əsərin rus dilinə tərcüməsi isə Y.Bertels (kiçik prozaik tərcümə) və T.Forş tərəfindən edilib. Poemanın fars dilindən rus dilinə prozaik tərcüməsini isə professor Rüstəm Əliyev gerçəkləşdirib. "Leyli və Məcnun" bütöv halda Azərbaycan dilinə Xalq şairi Səməd Vurğun tərəfindən tərcümə edilib.

Nizamidən sonra bir çox şairlər rəvayəti öz baxışlarına uyğun müxtəlif variantlarda qələmə alıblar. 1298-ci ildə Ə.X.Dəhləvi fars dilində ikinci "Leyli və Məcnun" poemasını yazıb. Azərbaycan şairi Həqiri Təbrizi 1426-cı ildə ana dilimizdə eyniadlı poema qələmə alıb. Bundan əlavə, Ə.Cami farsca, Ə.Nəvai isə özbəkcə Nizami təsiri ilə bu mövzuda poemalar yazıblar. Böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 1536-cı ildə qələmə aldığı eyniadlı poema ideya-bədii xüsusiyyətləri və təbii ki, ana dilimizdə olması ilə bütün "Leyli və Məcnun"ların başında dayanır.

N.Gəncəvinin "Leyli və Məcnun" məsnəvisi Yaxın Şərq xalqlarının incəsənətinə də dərin təsir göstərib. Dahi bəstəkar Qara Qarayev 1969-cu ildə əsərin motivləri əsasında "Leyli və Məcnun" simfonik poeması və biraktlı balet yazıb.

### "Yeddi gözəl"




Nizami "Xəmsə"nin dördüncüsü olan "Yeddi gözəl" ("Həft peykər") poemasını 1197-ci ildə qələmə alıb. Marağa hakimi Əlaəddin Körpə Arslana ithaf edilən "Yeddi gözəl" müxtəlif hesablamalara görə, 4637-5136 beytdən ibarətdir.

Hökmdar və xalq problemi poemanın ana xəttini təşkil edir. Əruzun xəfif bəhrində olan əsərin mövzusu Sasanilər sülaləsinin beşinci hökmdarı Bəhram Gur (406-439) haqqında rəvayətlərdən alınıb. Şair əsərdə Bəhram şahın həyatını əks etdirmək adı altında öz dövrü haqqında tənqidi fikirlərini ifadə edib.

Əsər əsasən Hindistan, Türküstan, Xarəzm, Rus, Çin, Rum (Bizans) və İran ölkələrindən gətirilən və rəngli saraylarda yaşayan yeddi gözəlin hekayələrindən ibarətdir. Maraqlı nağıl və məhəbbət macəralarının içərisində şair zülmkar şahları xalqın qayğısına qalmağa, dövləti, ölkəni ədalətlə idarə etməyə çağırır...

Dünyanın bir neçə aparıcı dilinə tərcümə olunan "Yeddi gözəl" rus dilinə tam şəkildə Vladimir Derjavin (nəzmlə, 1959, Moskva) və Rüstəm Əliyev (nəsrlə, 1983, Bakı) tərəfindən tərcümə edilib. Poemanın Xalq şairi Məmməd Rahim tərəfindən Azərbaycan dilinə bədii tərcüməsi 1983, 2004, 2006 və 2013-cü illərdə Bakıda nəşr olunub.

Onu da qeyd edək ki, əsrlər boyu "Yeddi gözəl" əsərinin əlyazma nüsxələrini bəzəyən Təbriz, Şiraz, Herat, İsfahan, Yəzd, Buxara və digər şəhərlərdən olan miniatürçü rəssamlar poemanın müxtəlif səhnələrini əks etdirən əsərlər yaradıblar. Dahi Nizaminin bu əsərinin dünyada şöhrət qazanmasında böyük bəstəkar Qara Qarayevin "Yeddi gözəl" baleti (1952) mühüm rol oynayıb.

### "İskəndərnamə"

Nizamiyə dünya şöhrəti qazandıran hikmət xəzinəsi "Xəmsə" "İskəndərnamə" poeması ilə tamamlanır. Bu əsərlə şairin məfkurə və yaradıcı təxəyyülü özünün ən yüksək zirvəsinə yüksəlir.

Böyük şair illərin yaradıcılıq təcrübəsindən sonra poemanı heç kimdən sifariş almadan, öz arzusu ilə qələmə alıb. Müəllifin 1203-cü ildə bitirdiyi, əruzun mütəqarebe-məqsur (məhzuf) bəhrində yazılan "İskəndərnamə" poeması iki hissədən ibarətdir: "Şərəfnamə" ("Şərəf kitabı", 6835 beyt) və "İqbalnamə" ("Bəxt kitabı", 3625 beyt). "İqbalnamə"yə "Xirədnamə" ("Ağıl kitabı") də deyilir.




"Şərəfnamə" Azərbaycan Atabəylərindən Nüsrətəddin Əbubəkr ibn Məhəmmədə, "İqbalnamə" isə Mosul hakimi Məlik İzzəddinə ithaf edilib. "Şərəfnamə" Abdulla Şaiq, "İqbalnamə" Mikayıl Rzaquluzadə tərəfindən farscadan ana dilimizə tərcümə edilib.

Dahi şair poemanı yazarkən qədim dünyanın böyük sərkərdəsi Makedoniyalı İskəndəri əsəri üçün qəhrəman seçib. Haqqında müxtəlif mənbələrdən material toplayıb.




Onları öz həyat idealına, istək və arzularına uyğun şəkildə işləyib.

Əsərdə qəhrəmanın mənşəyinə dair müxtəlif rəvayətlərin təsviri verilir. Mütəxəssislər qeyd edir ki, Nizami İskəndərlə bağlı hadisələri araşdırarkən yunandilli mənbələrdən də yararlanıb.

Poemada mərd, iradəli və bacarıqlı Bərdə hökmdarı Nüşabə obrazı diqqəti cəlb edir. Əsərdə yeni tipli dövlət və onun başçısından, ədalətli quruluşdan söhbət açılır. Şair eyni zamanda qədim Bərdənin zənginlikləri haqqında da bəhs edir...

Poema ideal cəmiyyət quruluşunun təsviri ilə kulminasiya nöqtəsinə çatır. Sonra qəhrəmanın xəstəliyi və ölümü ilə əlaqəli olaraq oxucuya kədərli səhnələr, təbiət səhnələri təqdim edilir. İskəndərin ölümünü göstərən səhnələr və sonrakı final hissədə filosofların, hətta Nizaminin özünün ölümü təsvir olunur.

"İskəndərnamə" poeması da yüksək ideya-bədii dəyəri ilə Yaxın Şərq xalqları ədəbiyyatına güclü təsir göstərib. Ə.X.Dəhləvinin "Ayineyi-İskəndər", Ə.Caminin "Xirədnameyi-İskəndər", Ə.Nəvainin "Səddi-İskəndər" və başqa əsərlər Nizami poemasının təsiri ilə yazılan ədəbi nümunələrdəndir.

Müxtəlif dövrlərdə Təbriz, Şiraz, Herat, İsfahan, Yəzd, Buxara və digər şəhərlərdən olan miniatürçü-rəssamlar "İskəndərnamə"nin əlyazma nüsxələrini bəzəyən əsərlər yaradıblar.



Bir şah öz ölkəsini görmək istəsə abad,
Etsin rəiyyətini gərək məsud, qəlbi şad.

*"Sirlər xəzinəsi"*

Çarə qapısını bağlı qoyma, gəl,
O, fayda verərsə, daha da gözəl.

*"İskəndərnamə" ("Şərəfnamə")*

# Nizami Gəncəvi poeziyası miniatürlərdə

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

**Orta əsrlərdən başlayaraq Azərbaycan miniatür sənətinin inkişafında poeziyanın güclü rolu olmuşdur. Miniatürlər həmin dövrlərdə ərsəyə gətirilən əlyazmaları bəzəmişlər. XIII-XIX əsrlərdə xəttatlar tərəfindən üzü köçürülmüş əlyazmaların bizim dövrümüzə gəlib çatmış nümunələri göstərir ki, rəssamların yaratdıqları bu ecazkar miniatürlər həmin əsərlərin bədii-estetik dəyərini duyulası dərəcədə artırmışdır. Onların arasında dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərinə çəkilmiş miniatürlər xüsusi yer tutur.**

Tədqiqatlar göstərir ki, Nizami "Xəmsə"sinin müxtəlif əsrlərə aid edilən və səhifələri miniatürlərlə bəzədilmiş nüsxələrinə dünyanın ən müxtəlif ölkələrində rast gəlmək mümkündür. Həmin əlyazmalardakı miniatürlər say etibarilə yalnız Firdovsinin "Şahnamə"sindən bir qədər azdır. Keçmiş SSRİ-nin və xarici ölkələrin muzey və şəxsi kolleksiyalarında 338 mövzu üzrə XIV-XIX əsrlərdə çəkilmiş 3500-ə qədər belə miniatür qorunur.

"Xəmsə"yə daxil olan bütün poetik incilər rəssamların yaradıcılıqlarında yer alsa da, hesablamalar Yaxın Şərqdə didaktik-fəlsəfi şeirin ən yaxşı nümunəsi sayılan "Sirlər xəzinə"sinə nisbətən az müraciət edildiyini təsdiqləyir. Bəzi tədqiqatçılar bunu poemanın həcmi ilə əlaqələndirirlər. Ancaq əsərdəki hər bir mənzum hekayənin nəsihət xarakteri daşıması rəssamlara şairin düşüncələrini obrazlı tutumda ifadə etməyə imkan vermişdir.



Bütünlükdə əsərdəki 23 süjetə rəsmlər çəkilmişdir. Hökmdar və onu ədalətə səsləyən rəiyyətin qarşılaşdığı səhnə miniatürçülərin daha çox diqqətini cəlb etmişdir. Bağdad, Herat, İsfahan və Şiraz miniatür məktəbləri nümayəndələrinin çəkdikləri əsərlərdə bu qabarıq göstərilmişdir. Onların arasında 1539-1543-cü illərdə üzü köçürülmüş "Xəmsə"yə (London, Britaniya Muzeyi) çəkilmiş miniatür illüstrasiyalar yüksək bədii məziyyətinə görə fərqlənir.

Yüksək bədii dəyərinə görə Azərbaycanla yanaşı, həm də Yaxın və Orta Şərq kitab mədəniyyətinin unikal nümunələrindən hesab olunan və məşhur xəttat Şah Mahmud Nişapurinin incə "nəstəliq" xətlə yazılmış əlyazmasını altı müəllifin çəkdiyi çoxsaylı miniatür bəzəyir. Onlardan dördünü Sultan Məhəmməd, qalanlarını isə onun yetirmələri olan Mirzə Əli, Müzəffər Əli, Mir Seyid Əli, eləcə də həmin dövrün tanınmış fırça ustaları sayılan Ağa Mirək və Mir Müsəvvir işləmişdir. 792 səhifədən ibarət olan əlyazmanı bəzəyən 17 miniatürdən 14-ü "Xəmsə"nin üzünün köçürüldüyü vaxtda hazırlanmış, 3-ü isə XVII əsrdə Məhəmməd Zaman tərəfindən işlənmişdir. Yaradıcılığı Azərbaycan təsviri sənətinin zirvəsi hesab olunan Sultan Məhəmmədin bu əlyazmada yer almış dörd miniatürü ilk növbədə orijinal kompozisiya və obrazlı – dekorativ həlli ilə diqqət çəkir. Onlardan biri "Sirlər xəzinəsi"nə çəkilmiş "Sultan Səncər və qarı" miniatürüdür.

Sultan Məhəmmədin "Xosrov və Şirin" poemasına çəkdiyi miniatürdə Xosrovun çimən Şirini seyr etməsi təsvir olunub. Şərq incəsənətində çox geniş yayılan və rəssamların da dəfələrlə müraciət etdikləri bu motivə onun bədii münasibəti dolğunluğu və özünəməxsusluğu ilə fərqlənir. Miniatürdə atlı Xosrovun yad baxışı altında özünün çılpaqlığını gizlətməyə çalışan Şirinin həyəcanı qabarıq göstərilib. Bununla belə, insan təsvirlərini təbiətlə əlaqəli şəkildə təqdim edən müəllif nəticədə motivin duyulası dərəcədə lirik tutum almasını şərtləndirmişdir.



Sultan Məhəmmədin bu əlyazmada yer almış digər iki əsəri isə "Yeddi gözəl" poemasına çəkilmiş "Bəhram Gur ovda" və "Peyğəmbərin meracı" illüstrasiyalarıdır. Əvvəlki iki miniatürdən fərqli olaraq bu qrafika nümunələrində kompozisiyaların xüsusi dinamikliyinə nail olan böyük sənətkar, miniatür üslublu Şərq rəngkarlığının çox geniş bədii ifadə potensialına malik olduğunu təsdiqləmişdir.



Mirzə Əli sözügedən əlyazmaya iki miniatür üslublu illüstrasiya çəkmişdir. Miniatürlər Şapurun Xosrovun portretini Şirinə göstərməsi və Xosrovun musiqiçi Bərbədin musiqisini dinləməsi səhnələrini əks etdirir.

Mir Müsəvvirin "Sirlər xəzinəsi"nə çəkdiyi "Ənuşirəvan və bayquşların söhbəti" miniatürünü təşkil edən şah və vəzirin, eləcə də heyvanların və bayquşların təsvirləri mənzərə ilə sıx əlaqədə verildiyindən əsər çox cəlbedici baxılır.

Ağa Mirəkin "Xosrov və Şirin" ünvanlı "Şapurun Arandan qayıtması" çoxfiqurlu illüstrasiyası, eləcə də "Xosrov və Şirin qulluqçuların əhvalatlarını dinləyir" miniatürü təsvirə gətirilən məkan və baş verənlər barəsində əhatəli bilgi vermək gücündədir. Rəssamın bu əlyazmada yer alan daha bir miniatürü "Məcnun səhrada vəhşi heyvanlar arasında" ("Leyli və Məcnun" poeması) adlanır.

Dərinlik, sonsuzluq varsa dəryada,
Arxların suyundan yaranmış o da.

"Leyli və Məcnun"

Yatma, qoca kimi bu yolda, aman,
Zalımdan özünü qoru hər zaman.

"Yeddi gözəl"

Müzəffər Əlinin əlyazmadakı yeganə əsəri "Yeddi gözəl" poeması ilə bağlıdır. İllüstrasiyada Bəhram Guru yabanı uzunqulaqları ovlayan vəziyyətdə görürük. Burada onun Fitnənin arzusu ilə oxla vəhşi heyvanın ayağını qulağına "tikdiyi" məqam bədii görkəm alıb.

Rəssamların "Leyli və Məcnun" poemasına çəkdikləri çoxsaylı rəsmlər əfsanəyə dönmüş məhəbbətlə Nizami poeziyası arasında obrazlı bir körpüyə bənzəyir. Əsərlərdə bəzən rəssamların mövzunun konkret poetik çərçivəsindən kənara çıxmaq, ona öz hiss və duyğularını əlavə etməklə daha da zənginləşdirmək meyli duyulmaqdadır. Bu mənada Təbrizli Mir Seyid Əlinin Britaniya əlyazmasında yer alan "Məcnun Leylinin çadırı qarşısında" adlı yeganə əsərinin adını çəkmək istərdik. Bu miniatür psixoloji yaşantıların obrazlı ifadəsi ilə diqqət çəkir.



Məhəmməd Zaman isə bu əlyazmaya sonralar daxil edilmiş üç – "Çiyni öküzlü Fitnənin pillələri qalxması", "Bəhram Gurun əjdahanı öldürməsi" və "Bəhram Gur aylı gecədə bağda şahzadə ilə şam edir" miniatürlərini işləmişdir.

Nizami Gəncəvi ünvanlı digər əlyazmalarda da "Xəmsə"nin daşıdığı dərin məna-məzmunu əyaniləşdirən çoxlu miniatürlərə rast gəlinir. Buxaralı Mahmud Müzəhhibin "Sirlər xəzinəsi" poeması ilə bağlı çəkdiyi əsərdə isə şərtiliyə daha çox üstünlük verilmişdir. Təbrizli Mir Müsəvvirin "Ənuşirəvan və bayquşların söhbəti"ndə zülmkar padşahın islahı, Mirzə Əlinin "İki aqilin yarışı" əsərində psixoloji emosiyaların təzadı ön plana çəkilmişdir.

Qeyd etmək lazımdır ki, bizim dövrə "Xosrov və Şirin" poemasında tərənnüm olunan yüksək hisslərin obrazlı ifadəsi kimi qəbul olunan xeyli sənət nümunəsi gəlib çatıb. Təkcə onu demək lazımdır ki, əsərdəki 75 ayrı-ayrı motiv poema qəhrəmanlarının məhəbbət tarixçəsini açıqlayır, Fərhadın sədaqətindən söz açır.



"Xosrovun çimən Şirini görməsi" epizodu poemanın ən çox fırçaya alınan məqamıdır. Ümumiyyətlə, bu səhnə "Xəmsə"nin 120 əlyazmasını bəzəyir. Onların ən qədimi 1420-ci ildə Şiraz sənətkarları tərəfindən işlənib, sonrakı illərdə digər miniatürlər yaradılıb. Onlardan biri İstanbulun Topqapı Sarayında qorunan 19 miniatürlü "Xəmsə"ni (1481) bəzəyir. Bu motivin Bakıdakı Nizami Muzeyində saxlanan nümunəsi də bədii məziyyətlərinə görə diqqət çəkir. Vaşinqtondakı Frir Qalereyasındakı miniatür də yüksək icra sənətkarlığı ilə göz oxşayır.



Poemanın Orta əsrlər miniatürçülərini ən çox cəlb etmiş epizodları bilavasitə Xosrovla bağlıdır. Sultan Məhəmmədin oğlu Mirzə Əlinin "Şapurun Xosrovun şəklini Şirinə göstərməsi", "Xosrovun musiqiyə qulaq asması" Herat məktəbinin nümayəndəsi Mirək Nəqqaşın "Şirin Xosrovun şəklini alır", təbrizli Ağa Mirəkin "Şapurun Xosrovun yanına qayıtması", "Xosrovun taxta çıxması", "Xosrov və Şirin xidmətçilərin nağılına qulaq asırlar" miniatürlərində saray həyatının dəbdəbəli təsviri əlvan boyalarla orijinal biçimli kompozisiyalarda əbədiləşib.

"Yeddi gözəl" poemasından "Bəhram Gur Fitnə ilə ovda" süjeti təsviri və dekorativ-tətbiqi sənətin müxtəlif növlərində geniş yayılıb. Öküzü çiyninə almış Fitnənin pillələrlə qalxması səhnəsi də rəssamların diqqətini çox cəlb edən motivlərdəndir. Demək olar ki, əlyazmalarının əksəriyyətində ona rast gəlinir. "Bəhram Gurun əjdahanı öldürməsi" anı Behzad, Qasım Əli, Talıb, Məhəmməd Zaman və digər sənətkarlar tərəfindən həm klassik miniatür estetikasına müvafiq, həm də Avropa rəssamlığına yaxın – "Qacar üslubu"nda bədii görkəm alıb.

"İskəndərnamə" poeması mürəkkəb süjetinə görə təsvir üçün də geniş imkanlar açmışdır. İskəndərin çobanla söhbəti, ölüm ayağında olan Dara ilə görüşü, Nüşabə ilə qarşılaşması səhnələri özünün məna-məzmun yükünə görə müxtəlif duyğular aşılayır.

Yuxarıda adları çəkilən miniatürlərin əksəriyyəti dünyanın nüfuzlu muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. Lakin Bakı muzeylərində, o cümlədən də Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Azərbaycan Milli İncəsənət Muzeyində, Milli Azərbaycan Tarixi Muzeyində və M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunan çoxsaylı əlyazmalarda da özünəməxsus estetikaya malik əsərlər mövcuddur. Vaxtilə M.F.Axundzadənin kolleksiyasında olan və hazırda Əlyazmalar İnstitutunda qorunan "Xəmsə"ni (1627-ci il) 18 miniatür bəzəyir.

Ümumiyyətlə, muzeydə Nizami Gəncəvi ünvanlı digər miniatürlərin əksəriyyəti "İskəndərnamə" ilə bağlıdır. Onlar ilk növbədə motiv müxtəlifliyi ilə fərqlənir. Bu mənada rəssamların seçimlərini "Xıdır peyğəmbər dirilik suyunun yanında", "Makedoniyalı İskəndərlə Ərəstunun görüşü", "İskəndər və Ərəstun məktəbdə", "İskəndər Hindistanda", "Makedoniyalı İskəndər Bərdə hökmdarı Nüşabənin sarayında", "İran şahı Daranın öldürülməsi" və "Makedoniyalı İskəndərin anadan olması" adları ilə ifadə etməsini qeyd etmək olar.

Nizami "Xəmsə"sindən ilhamlanmanın nəticələri olan çoxsaylı miniatürlərin təhlili göstərir ki, bu əsərlərdə dahi söz xiridarının aşıladığı bəşəri ideyalara yaddaqalan, çox vaxt da şaşırdıcı bədiilik-əyanilik gətirilmişdir. Önəmlisi isə, "Xəmsə"nin özü kimi, bu miniatürlərin də zamansızlığa qovuşmasıdır...





Torpağa mərhəmət xeyirdir, inan,
Lütf etsən gül verər, zülm etsən tikan.

"Leyli və Məcnun"

Ancaq öz varınla ol coşqun ümman,
Götür öz faydanı öz varlığından.

"İskəndərnamə" ("Şərəfnamə")

# Kitablara sığmayan söz dühası

**Kərim TAHİROV**
**Milli Kitabxananın direktoru, professor**

**Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi ən böyük ədəbi şəxsiyyətlərdən biri – dahi şair və mütəfəkkir Nizami Gəncəvi ölməz əsərləri ilə dünya şöhrəti qazanmışdır. Şərqdən ədəbiyyat günəşi kimi doğan Nizami özünün böyük və əbədiyaşar sənəti ilə Dante, Servantes, Şekspir, Əlişir Nəvai, Viktor Hüqo, Lev Tolstoyla bir sırada duraraq, mənsub olduğu xalqın milli iftixarı olmaqla yanaşı, bəşəriyyətə məxsus qüdrətli Azərbaycan şairidir.**

Nizaminin yubileylərinin geniş şəkildə qeyd edilməsində, əsərlərinin kütləvi tirajla müxtəlif dillərdə çap olunmasında xalqımızın böyük oğlu Heydər Əliyevin xüsusi xidmətləri var. Hələ sovetlər dövründə Kommunist Partiyasının ideoloqları ilə mübahisə edərək "...Nizami Gəncəvi elə bir dahi şəxsiyyətdir ki, onun yubileylərini nəinki beş ildən bir, hətta hər il keçirmək lazımdır" deyən ulu öndər dahi şairin 840 illik yubileyinin nəinki Azərbaycanda, Moskvada və UNESCO-da da keçirilməsinə nail olmuşdu.

Mədəniyyətimizə, ədəbiyyatımıza böyük qayğını uğurla davam etdirən Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında" 5 yanvar 2021-ci il tarixli sərəncamı dahi şairin yubiley tədbirlərinin ölkəmizdə və dünya miqyasında, UNESCO-da keçirilməsi, əsərlərinin müxtəlif dillərdə nəşrinə əlavə zəmin yaratmışdır.

Dövlət başçımızın sərəncamına müvafiq olaraq, bu il yanvarın 22-də Milli Kitabxanada "Böyük Azərbaycan şairi və mütəfəkkiri – Nizami Gəncəvi" adlı geniş kitab sərgisinin açılışı, Yevgeni Bertelsin "Böyük Azərbaycan şairi Nizami" və "Azərbaycan əlyazmaları Praqa Milli Kitabxanasında" adlı qədim əlyazmalar kataloqunun təqdimat mərasimi keçirilmişdir.

Martın ilk günlərində mədəniyyət naziri Anar Kərimovun başçılıq etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri çərçivəsində Ankarada və İstanbulda "Nizami ili" çərçivəsində tədbirlər keçirilmişdir. Martın 2-də TÜRKSOY-un iqamətgahında "Nizami ili"nin açılışı olmuş, TÜRKSOY, Azərbaycan Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə təşkil etdiyi "Dahi Azərbaycan şairi Nizami Gəncəvi" mövzusunda kitab və Nizami irsi ilə bağlı rəsmlərin fotoreproduksiyalarından ibarət sərgi nümayiş etdirilmişdir.

Mədəniyyət naziri Anar Kərimov səfər çərçivəsində İstanbul Topqapı Sarayını ziyarət edərkən sarayın kitabxanasında mühafizə olunan Nizami irsi ilə bağlı əlyazmalarla tanış olmuş və onların digital nüsxələrinin Azərbaycan Milli Kitabxanasına verilməsini xahiş etmişdir. Milli Kitabxana və Topqapı Sarayı arasında bağlanan müqavilə əsasında 9 əlyazmanın digital nüsxələri kitabxanaya gətirilmişdir.

Səfər zamanı Türkiyə Milli Kitabxanasında keçirdiyimiz görüşün nəticəsi olaraq orada saxlanılan türk və fars dillərində Nizami əlyazmalarının elektron versiyalarının tam şəkildə Azərbaycan Milli Kitabxanasına verilməsi təmin olunmuşdur.

Əlamətdar il çərçivəsində martın 29-da Milli Kitabxanada "Nizami Gəncəvinin əlyazmaları dünya kitabxanalarında" mövzusunda videokonfrans keçirilmişdir.

Aprelin 7-də Milli Kitabxanada Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin ingilis dilində nəşr etdirdiyi "The interpretation of Nizami's cultural heritage in the contemporary period" ("Müasir dövrdə Nizami mədəni irsinin təfsiri") adlı kitabın təqdimat mərasimi olmuşdur. Təqdimat mərasiminə İngiltərə, Almaniya, Misir və digər ölkələrdən nizamişünas alimlər videobağlantı ilə qoşulmuşlar.

İyulun 15-də Milli Kitabxanada Türkiyə Milli Kitabxanasının direktoru Əli Odabaşın rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə "Nizami Gəncəvi və Yunus Əmrə: ortaq milli dəyərlərimiz" mövzusunda dəyirmi masa təşkil olunmuş, həmçinin "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi", "Yunus Əmrə" adlı virtual sərgilər və "Böyük Azərbaycan şairi Nizami Gəncəvi" adlı elektron məlumat bazasının təqdimatı keçirilmişdir.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 6-10 oktyabr tarixində keçirilən VII Bakı Beynəlxalq Kitab Sərgisi çərçivəsində Milli Kitabxananın hazırladığı "Nizami Gəncəvi əlyazmaları dünya kitabxanalarında" adlı sərginin açılışı və eyniadlı elektron məlumat bazasının, həmçinin Mədəniyyət Nazirliyinin və Milli Kitabxananın birgə nəşri olan "Nizami Gəncəvi. Biblioqrafiya" kitabının təqdimatı keçirilmişdir. Milli Kitabxananın ərsəyə gətirdiyi bu fundamental nəşrin daha bir təqdimatı Nizami Gəncəvi Beynəlxalq Festivalı çərçivəsində, noyabrın 22-də Beynəlxalq Muğam Mərkəzində olmuşdur.

## "Nizami ili"nin nəşrləri

**Bizi Nizamidən ayıran səkkiz əsrdən artıq bir zamanda dahi şairin yaradıcılığı həmişə diqqət mərkəzində olub. İlk dəfə şairin vəfatından bir əsr sonra – 1318-ci ildə "Xəmsə"nin üzü köçürülüb. Sonralar Nizaminin hikmət xəzinəsinə dəfələrlə qayıdılıb, daşbasma üsulundan ta müasir çap texnologiyasınadək yüzlərlə kitab işıq üzü görüb.**




Şairin 800 illik yubileyi ilə əlaqədar 1940-cı illərdə ilk dəfə əsərlərinin akademik nəşri hazırlanıb, poema və qəzəlləri Azərbaycan dilinə tərcümə olunub. Sonrakı illərdə "Xəmsə"nin poemaları ana dilimizdə ayrı-ayrılıqda çapdan çıxıb.

Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamına əsasən, Nizami əsərlərinin 7 cilddə nəşri həyata keçirilib.

Dahi söz ustadının 880 illiyində də diqqətəlayiq layihələr reallaşıb. Azərbaycan Dövlət Tərcümə Mərkəzinin layihəsi üzrə "Yeddi gözəl" İspaniyada, "Leyli və Məcnun" Almaniya, Gürcüstan və Ukraynada nəşr edilib. Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi əsasında isə "Xəmsə"nin özbək dilində nəşri həyata keçirilib.

Bundan əlavə, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutu, Folklor İnstitutu, habelə akademiyanın Gəncə regional bölməsi də əlamətdar ilə töhfə olacaq kitab və monoqrafiyalar ərsəyə gətiriblər.

Yaxşılıqla çatdırsa hər kəs işini sona,
Yaxşı üz göstərəcək öz yaxşılığı ona.

*"Sirlər xəzinəsi"*

Oğrunun əlində olsa yüz dəhrə,
Bir qışqırsan qorxub yıxılar yerə.

*"Xosrov və Şirin"*

# Müasir təsviri sənətdə Nizami mövzusu

**Ötən əsrlərdə olduğu kimi, müasir rəssamlar da vaxtaşırı qüdrətli söz ustadımız Nizami Gəncəvinin poetik irsinə müraciət ediblər. "Xəmsə"nin aşıladığı duyğular rəssamların müxtəlif nəsillərinin ilhamını qanadlandırmış, nəticədə rəngkarlıq, heykəltəraşlıq, qrafika və dekorativ-tətbiqi sənət sahəsində bir-birindən baxımlı əsərlər yaradılmışdır. Onların bir qismi şairin 800 illik yubileyinin qeyd olunduğu dövrdə ərsəyə gəlmişdir.**

1939-cu ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə respublika İncəsənət İşləri İdarəsi Nizami Gəncəvinin obrazını yaratmaq üçün ümumittifaq miqyaslı açıq müsabiqə elan etmişdi. Müsabiqəyə 1940-cı ilin sonlarında yekun vuruldu və



Qəzənfər Xalıqovun yağlı boya ilə yaratdığı Nizami obrazı birinci mükafata layiq görüldü.

Elə həmin ildə respublika hökumətinin qərarı ilə Bakıda və Gəncədə ucaldılacaq Nizami abidələrinin layihəsi üçün də müsabiqə elan olunmuşdu. Altmışa yaxın layihənin içərisində gənc heykəltəraş Fuad Əbdürrəhmanovun hazırladığı iki variant daha uğurlu hesab olundu. Sonralar onlardan biri şairin vətəni Gəncədə (1947), digəri isə Bakıda (1949) ucaldıldı.

Nizamiyə həsr olunmuş heykəltəraşlıq əsərləri arasında T.Məmmədovun ağacdan yonduğu portret özünün romantik biçimi ilə diqqəti cəlb edir. C.Qaryağdının "Fərhadın Bisütun dağını çapması", İ.Zeynalovun "Fərhad qayada Şirinin portretini yaradır", Q.Sücəddinov, A.Rüstəmov və A.Mustafayevin birgə hazırladıqları "Bəhram Gurun əjdaha ilə vuruşu" kompozisiyalarında Nizami süjetləri obrazlı ifadəsini tapmışdır.

Şairin yubileyi ilə əlaqədar çap olunmuş "Xəmsə"nin akademik nəşrinə çəkilən müxtəlif biçimli illüstrasiyaları qrafika sənətimizin uğurlu səhifələrindən hesab etmək olar. Q.Xalıqov, İ.Axundov, K.Kazımzadə, Ə.Hacıyev, Ə.Məmmədov və M.Vlasovun əsərlərində ayrı-ayrı poemaların əsas qayəsi, ədəbi qəhrəmanların daxili aləmi yaddaqalan təfsirlərlə açıqlanmışdır. Sonrakı illərdə M.Rəhmanzadə, O.Sadıqzadə, T.Nərimanbəyov, N.Məmmədov və A.Hüseynov şairin ayrı-ayrı kitablarına verdikləri tərtibat və illüstrasiyalarında Nizami poeziyasının aşıladığı duyğular müasir forma-biçimdə əks etdirilmişdir.

Nizami mövzusu görkəmli fırça ustası Mikayıl Abdullayevin yaradıcılığında mühüm yer tutmuşdur. O, "Xəmsə" motivlərinə həsr etdiyi ilk əsərini – "Vəsiyyət" tablosunu 1941-ci ildə tamamlamışdı. "İskəndərnamə" poeması əsasında çəkilmiş kompozisiya Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin açılışı münasibətilə işlənmişdi. Sonralar o, dəfələrlə bu mövzuya qayıtmış, uğurlu əsərlər yaratmışdır. Onun Bakı metrosunun "Nizami" stansiyasını bəzəyən çoxsaylı mozaik pannoları bu məkanı "yeraltı saray"a çevirmişdir.

Nizaminin həyatı və yaşadığı təzadlı dövr bir çox süjetli tabloların leytmotivini təşkil edir. S.Şərifzadə və B.Mirzəzadənin birgə işlədikləri "Nizami Qızıl Arslanın yanında", N.İsmayılovun "Nizami və Xaqani", B.Əliyevin "Nizami xalq arasında", V.Ucatayın "Nizami işığında" tabloları tarixilik



baxımından maraq doğurur. "Nizami işığında" əsəri həm də şairin 800 illik yubileyinin blokada şəraitində olan Leninqradda qeyd olunmasını əks etdirdiyindən böyük əhəmiyyət kəsb edir.

"Xəmsə" motivlərinə çəkilən süjetli tablolar rəssamların şairin poetik dünyasında qərar tutan müxtəlif məqamları dərk etmək istəyindən irəli gəlmişdir. B.Mirzəzadənin "İki bayquşun söhbəti", G.Mustafayevanın "Leyli və Məcnun", Ə.Kazımovun "İskəndərin Midiya ordusu ilə vuruşu", S.Şərifzadənin "Şapur və Şirin" lövhələri bu qəbildəndir.

Heykəltəraş Həyat Abdullayevanın çinidən hazırladığı "Yeddi gözəl və Bəhram şah" adlı çoxfiqurlu kompozisiyanı dekorativ-tətbiqi sənət sahəsində Nizami mövzusunda yaradılmış uğurlu əsərlərdən hesab etmək olar. R.Xələfovun "Bəhram Gur əjdahanı öldürür" dekorativ fiquru və O.Şıxəliyevin "Xosrov və Şirin" vazası (hər ikisi çini), H.Ələsgərovun "Məcnun ahu ilə", C.Əyyubov və F.Seyidovun "Xəmsə" (mis), Ə.Bayramovun "Yeddi gözəl" dekorativ lövhələri və gəncəli rəssam S.Məmmədovun "Nizami və Afaq" bədii nimçəsi (hər ikisi çini) əsərlərində humanist ideallar, romantik arzular, nakam məhəbbət duyğuları özünün uğurlu ifadəsini tapmışdır.

Dahi şairin 800 illik yubileyi ilə əlaqədar yaradılan sənət əsərləri arasında Azərbaycanda toxunan beş xalça həm də özündə çağdaş ənənələri yaşatması ilə maraq doğurur. Görkəmli xalçaçı L.Kərimovun, habelə rəssamlardan Q.Xalıqov, K.Kazımzadə, M.Şirinov və Ə.Hacıyevin eskizləri əsasında hazırlanan süjetli xalçalar "Xəmsə"nin poemalarına həsr olunmuşdur. K.Əliyevin "Nizami" xalçasında məna-məzmun yükünü real biçimli portretlə yanaşı, labirintəbənzər naxış örtüyü daşıyır. İstedadlı xalça ustaları E.Mikayılzadənin "Xəmsə", A.Kərimovanın "Xosrov və Şirin" xalçalarını isə ənənə və müasirliyin vəhdəti səciyyələndirir.



Son onilliklərdə Xalq rəssamı Ə.Heybətov, təsviri sənət ustaları E.Aslanov, S.Qurbanov, R.İsmayılov, Ə.Bayramov, R.Hüseynov və başqalarının əsərlərində Nizami mövzularının obrazlı təsviri özünəməxsus bədii həlli ilə göz oxşayır.

Gəncədə də Nizami ünvanlı əsərlər kifayət qədərdir. Q.Sücəddinovun "Nizami dünyası", Ş.Şərifovun "Xəmsə", A.Həsənovun "Şairin sələfləri və xələfləri", M.Rüstəmovun "N.Gəncəvi" kimi müxtəlif materiallarda ərsəyə gətirilmiş plastika nümunələrində şairin ömür yoluna yaddaqalan münasibət bildirildiyini görmək mümkündür.



*Çox da acıqlanma, bərk savaş olar,*
*Torpaq bərkidikcə dönüb daş olar.*

"Xosrov və Şirin"

*Gecəni, gündüzü çox vermə bada,*
*Yaxşı ad uğrunda çalış dünyada.*

"Leyli və Məcnun"

**Cəmilə HƏSƏNOVA**
**sənətşünaslıq üzrə elmlər doktoru, professor**

# Bəstəkarların yaradıcılığında

**Prezident İlham Əliyevin dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci ili "Nizami ili" elan etməsi bəstəkar və musiqişünasları da çox sevindirmişdir. Onlar bu əlamətdar yubileyə öz töhfələrini vermək üçün yeni əsərlər üzərində çalışırlar.**

Nizami mövzuları bəstəkarlarımızın yaradıcılığına ötən əsrin 40-cı illərindən daxil olmuşdur. Nizami Gəncəvinin 800 illik yubileyinin keçirilməsi ilə bağlı, demək olar ki, o dövrün bütün bəstəkarları Nizami irsinə müraciət etmiş və müxtəlif janrlarda əsərlər yaratmışlar. 1941-1945-ci illər müharibəsi bu yubileyi bir qədər təxirə salsa da, 1947-ci ildə keçirilmiş yubiley tədbirləri musiqi aləmində böyük əks-səda doğurdu, Azərbaycan bəstəkarlarının musiqi mədəniyyətimizdə yeni səhifə açan və dünya musiqi irsini zənginləşdirən bir sıra əsərləri yarandı. Nizami mövzuları bundan sonra Azərbaycan musiqisinə əbədi daxil olaraq, nəsil-nəsil bütün bəstəkarların yaradıcılığına ilham vermişdir.

Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin Nizaminin qəzəlləri əsasında yazdığı "Sənsiz" və "Sevgili canan" romansları vokal musiqidə yeni bir janrın – romans-qəzəl janrının əsasını qoyaraq, Azərbaycan bəstəkarlarının vokal əsərlərinin yaranmasına təkan verdi. Nizaminin qəzəllərinə Fikrət Əmirovun, Tofiq Quliyevin, Cahangir Cahangirovun, Ədilə Hüseynzadənin, Ağabacı Rzayevanın, Hacı Xanməmmədovun, Şəfiqə Axundovanın və başqa bəstəkarların yazdıqları vokal əsərlər müğənnilərin repertuarına daxil olmuşdur. Son illərdə gənc bəstəkarlar da bu janra maraq göstərərək bir sıra vokal əsərlər yaratmışlar.

Nizami mövzularına musiqili-səhnə və simfonik əsərlərdə də müraciət olunmuşdur. Hətta bir neçə bəstəkarın yaradıcılığında Nizami mövzularının dəfələrlə müxtəlif əsərlərdə əks olunduğunu qeyd edə bilərik.



Böyük bəstəkar Qara Qarayev Nizami mövzularına davamlı olaraq müraciət etmiş, Nizaminin sözlərinə səs və orkestr üçün üç təsnif ("Leyli", "Şirin", "Sarənc"), a kapella xoru üçün "Payız" əsəri, "Leyli və Məcnun" simfonik poeması, "Yeddi gözəl" baleti və onun musiqisi əsasında iki simfonik süita yaratmışdır. Bu əsərlərin hər birinin öz səhnə həyatı olmuş, dünyanın bir sıra dirijorlarının idarəsi ilə orkestrlər tərəfindən ifa olunaraq, konsert repertuarlarını bəzəmişdir. Xüsusilə "Yeddi gözəl" baleti bir çox ölkələrdə səhnəyə qoyulmuş, Nizaminin humanist ideyalarını musiqi və xoreoqrafiyanın vəhdətində tamaşaçılara çatdırmışdır. Balet bu günə kimi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının repertuarında xüsusi yer tutur. Bəstəkarın "Leyli və Məcnun" simfonik poemasının musiqisi əsasında eyniadlı birpərdəli balet tamaşası da səhnəyə qoyulmuşdur.

Görkəmli Azərbaycan bəstəkarı Fikrət Əmirov da Nizami irsinə müraciət edərək, "Nizami" baletini, "Nizami" simfoniyasını, "Nizaminin xatirəsinə" simfonik poemasını bəstələmişdir ki, bu əsərlər dahi şairin dövrünün, yaradıcılığının, obrazlarının füsunkar musiqi dili ilə təcəssümünü yaratmışdır.

Nizaminin mövzuları əsasında yaranmış balet əsərlərinin sırasında Tofiq Bakıxanovun "Xeyir və Şər", Aqşin Əlizadənin "Nizaminin xatirəsinə", Qalib Məmmədovun "Sirlər xəzinəsi" baletlərini də qeyd edə bilərik ki, bunlar 1980-

## Sənsiz

*Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,*
*Hər nəfəs çəkdim, hədər getdi o saət sənsiz!*

*Sənin o cəlb eyləyən vəslinə and içdim inan,*
*Hicrinə yandı canım, yox daha taqət sənsiz!*

*Başqa bir yarı necə axtarım, ey nazlı sənəm?*
*Bilirəm sən də dedin: "Yox yarə hacət sənsiz!"*

*Sən mənim qəlbimə hakim, sənə qul oldu könül,*
*Sən əzizsən, mən ucuz, mən heçəm, afət, sənsiz!*

*Nə gözüm var – arayım mən səni, bəxtim də ki yox,*
*Nə də bir qaçmağa var məndə cəsarət sənsiz!*

*Sən Nizamidən əgər arxayın olsan da, gülüm,*
*Gecə-gündüz arayıb olmadı rahət sənsiz!*

## Sevgili canan

*Hüsnün gözəl ayətləri, ey sevgili canan!*
*Olmuş bütün aləmdə sənin şəninə sayan.*

*Gəl eylə inayət, mənə ver busə ləbindən,*
*Çünki gözəlin busəsidir aşiqə ehsan.*

*Sordum ki, "könül hardadır" aldım bu cavabı.*
*"Heç sorma, tapılmaz onu axtarsa da insan".*

*Rəhm eylə, deyib, sel kimi göz yaşımı tökdüm*
*Kim, qanım ilə əl yuma, ey afəti-dövran!*

*İnsafın əgər varsa, açıq de, bu Nizami,*
*Sənlə necə rəftar eləsin, ey mahi-taban?*

*Gəl söylə, cavabın nə olar, sorğu zamanı,*
*Əhvalımı səndən soruşarsa Qızıl Arslan?*




Dostluq iddiası edən bir ürək
Sözdən başqa çox şey bildirə gərək.

"İskəndərnamə" ("İqbalnamə")

Dost ona deyərlər ki, sirr saxlar, pərdə tutar.
Düşmənsə ruzigartək hər zaman pərdə yırtar.

"Sirlər xəzinəsi"

# Nizami mövzuları

1990-cı illərdə meydana gəlmişdir.

Nizami mövzuları öz əksini opera əsərlərində də tapmışdır. Niyazinin "Xosrov və Şirin", Əfrasiyab Bədəlbəylinin "Nizami", Ramiz Mustafayevin "Şirin" operalarını, Soltan Hacıbəyovun "İskəndər və çoban" uşaq operasını qeyd etmək olar. Bu əsərlərdən bəzisi 1940-50-ci illərdə Opera və Balet Teatrında tamaşaya qoyulsa da, onların səhnə həyatı uzun olmamışdır. Bəzisi hələ də səhnələşdirilməmişdir. Ötən əsrin 90-cı illərində və sonrakı illərdə də bir sıra opera əsərləri yaransa da, tamaşaya qoyulmamışdır. Oqtay Rəcəbovun "Xeyir və Şər" operası, Rəşid Şəfəqin "Bayquşların söhbəti" nağıl-operası, "İskəndərin sirri" uşaq radio-operası, Eldar Mansurovun "Yeddi gözəl" rok-operası Nizami mövzularının müxtəlif təfsirlərini yaradan əsərlər kimi musiqimizə daxil olmuşdur və səhnə təcəssümünü gözləyir.

Bəstəkarlarımız simfonik musiqinin müxtəlif janrlarında Nizami mövzularının təcəssümünü vermişlər. Qara Qarayev və Fikrət Əmirovdan sonra Məmməd Quliyev, Midhət Əhmədov, Nəriman Məmmədov, Tofiq Bakıxanov, Məmmədağa Umudov və başqaları simfoniyalar, simfonik poemalar, simfonik süitalar, xoreoqrafik şəkillər, balet süitaları yaratmışlar. Bu sahədə yaradıcılıq işi bu gün də davam edir və inanırıq ki, "Nizami ili" bəstəkarlarımızın yeni simfonik əsərlərlə konsert səhnələrinə çıxmasına zəmin olacaqdır.

Bu xüsusda görkəmli bəstəkar Firəngiz Əlizadənin yaradıcılığında Nizami irsinə həsr olunmuş əsəri qeyd etmək istərdik: "Gottes ist der Qrient" oratoriyası alman şairi Y.V.Hötenin "Şərq-Qərb divanı"na əsaslanaraq, Nizaminin poeziyası ilə əlaqələri əks etdirir (Azərbaycan və alman dillərində). Əsər ilk dəfə 2000-ci ildə Almaniyanın Köln şəhərində "Triennale" festivalında, daha sonra ABŞ-da, İsveçrədə ifa olunmuşdur və istərdik ki, bu əsər Azərbaycanda da öz təfsirini tapsın.

Nizaminin qəzəlləri əsasında yazılmış xor əsərlərindən Cahangir Cahangirovun "Qəzəl", Cövdət Hacıyevin "Ey gül", Məmməd Quliyevin "İki dastan" və s. ilə yanaşı, son illərə aid Məmməd Cəfərovun "Dahi Nizami", Mehriban Əhmədovanın "Ey səba" xor əsərlərini də qeyd etmək olar.

İnstrumental musiqi sahəsində bir sıra bəstəkarlar Nizaminin obrazlarına müraciət etmişlər. Qalib Məmmədovun simli kvartet, solo fleyta və fortepiano üçün "Nizaminin xatirəsinə" elegiyası, Sərdar Fərəcovun orqan üçün "Qəsidə" sonatası və s. diqqətəlayiq əsərlərdir.

Nizami yaradıcılığı musiqişünasların da tədqiqat obyektinə çevrilmişdir. Səadət Abdullayevanın "Nizamidə musiqi, musiqidə Nizami", Sevda Qurbanəliyevanın "Nizami Gəncəvinin yaradıcılıq irsi və Azərbaycan bəstəkarlarının vokal əsərləri", "Nizami Gəncəvi və Fikrət Əmirovun musiqi dünyası" və s. kitabları, musiqişünaslar tərəfindən yazılmış onlarla məqalələr şairin yaradıcılığının musiqi ilə əlaqələrinin tədqiqi məsələlərinə həsr olunmuş və nizamişünaslığa öz töhfəsini vermişdir.

Bununla yanaşı, Nizaminin sözlərinə yazılmış əsərlər əsasında müxtəlif alətlər və ansambllar üçün işləmələr meydana gəlmiş və not məcmuələri çap olunmuşdur. Bütün bunlar musiqi ifaçılarının konsert və tədris proqramlarında Nizami irsinin mühüm yer tutduğunu və hər yeni gələn musiqiçilər nəslinin bu zəngin irsdən bəhrələndiyini sübut edir.

Göründüyü kimi, Nizami mövzuları Azərbaycan bəstəkarlarının və musiqişünaslarının yaradıcılığında mühüm yer tutur. "Nizami ili" bu istiqamətdə qarşıya yeni yaradıcılıq məqsədləri qoymuşdur. Azərbaycan Bəstəkarlar İttifaqı da bununla bağlı tədbir və layihələr həyata keçirmişdir. İttifaqın təşəbbüsü və təşkilatçılığı ilə Nizaminin sözlərinə qəzəl-romans müsabiqəsinin keçirilməsi bu xüsusda önəmli layihədir. Müsabiqədə müxtəlif nəsillərdən olan bəstəkarların iştirak etməsi onların yaradıcılıq diapazonunun rəngarəngliyini nümayiş etdirir. Əminik ki, bəstəkarlarımızın "Nizami ili"nə töhfə olan əsərləri də dahi şairin obrazını, onun qəhrəmanlarının dili ilə söylədiyi bəşəri ideyaları musiqimizdə əbədiləşdirəcək.

## Etmədədir

*Yenə tövbə evimi eşq xərab etmədədir,*
*Aşiq iftarını sevda meyi-nab etmədədir.*

*Könlümə bir mələyin sevgisi od saldı, adı*
*Günü də, Zöhrəni də göydə sərab etmədədir.*

*Onun eşq atəşi hər qəlbə girər, amma nədən*
*Tək mənim qəlbimi atəşdə kəbab etmədədir?*

*Gözlərin baxdı mənə, söylədi: "Səbr et, səninəm,*
*Doğrusu, səbr edərəm, ömr şitab etmədədir.*

*Ahu gözlüləri yatmış zaman ovlar ovçu,*
*Ömür röyada şikar olmağa tab etmədədir.*

*Məsləhətdir, məni qovmaqdan isə, versin əzab,*
*Yar bunu yaxşı düşünmüşdür, əzab etmədədir.*

*Gər Nizamini xəta isə həlak etdirmək,*
*Aşiqəm, yar məni öldürsə, səvab etmədədir.*

## Gülüm

*Aşiqəm, əmrini ver aşiqi-nalanə, gülüm,*
*Yanına ya gəlim əql ilə, ya divanə, gülüm?*

*Sevirəm qəlbilə canım kimi cananımı mən,*
*Ölərəm, ya yetərəm sən kimi canana, gülüm.*

*Sənə dost olmağıma cümlə şəhər düşmən olub,*
*Məni əfv eylə, baxıb bir belə düşmənə, gülüm.*

*Harda görsəm səni, zülfündən öpüb yalvararam,*
*Aşiqəm, aşiqə yoxdur yazı, divan, a gülüm!*

*Sənsizəm, səndən uzaq kimsəni düşsün deməram,*
*Yetməyir əl sənə, yox səbr də hicranə, gülüm.*



Yenilməz ürəklə çıx yola görüncə xəzan,
Ürək qorxaq olanda odlanıb alışar can.

"Sirlər xəzinəsi"

Dost qəlbi torpaqdır, ona əl vursan,
Əlin pak olacaq o zaman, inan.

"Xosrov və Şirin"

# Nizami və kino

**Aydın KAZIMZADƏ**
**Əməkdar incəsənət xadimi**

**Dünya ədəbiyyatı və mədəniyyəti xəzinəsinə çox qiymətli töhfələr vermiş Nizami Gəncəvi söz sənətinin sönməz günəşidir. Onun yaradıcılığı xalqımızın mənəvi həyatının əvəzolunmaz bədii nailiyyəti kimi qədim Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin ən parlaq səhifələrini təşkil edir. Təsadüfi deyil ki, Nizami irsi ədəbiyyat və incəsənət xadimlərinin bir çox nəsillərini ruhlandırmış və onlar şairin həyat və yaradıcılığına dair əsərlər yaratmışlar.**

1941-ci ildə Sovet İttifaqı böyük şair Nizami Gəncəvinin anadan olmasının 800 illik yubileyinə geniş hazırlıq gördüyü vaxt sənədli kino ustaları da dahi söz ustadına film həsr etməyi qərara almışdılar. Lakin həmin il başlanan müharibə yubileyin müvafiq səviyyədə təşkilinə imkan vermədi. Respublikamızda isə dahi şairin yubileyi milli poeziya bayramı kimi keçirildi. Yubiley şənlikləri Ə.Ələkbərov və Ə.Minskinin ssenarisi üzrə rejissor A.Naroditskinin çəkdiyi "Nizami" (1941, operator Ə.Ələkbərov) kinooçerkində öz əksini tapmışdır. Filmin bəstəkarı Rauf Hacıyevdir.

Film əsasən şairin həyat və yaradıcılığına həsr olunmuş yubiley gecəsindən, həmin günlərdə keçirilən ədəbi gecələrdən, ədəbiyyat və incəsənət xadimlərinin Nizami əsərləri üzərində işləmələrindən və digər tədbirlərdən danışır.

Bundan sonra kino işçiləri böyük mütəfəkkirin yubileyinin ümumittifaq səviyyəsində geniş qeyd olunduğu 1947-ci ildə "Xalq şairi" sənədli oçerkini yaratdılar. Filmin ssenari müəllifi və rejissoru Ş.Şeyxov, operatorları M.Mustafayev, S.Bədəlovdur.




Tarixi-bioqrafik kinooçerk dahi Azərbaycan şairi Nizami Gəncəviyə həsr olunmuş, burada şairin yubileyi ilə bağlı mühüm tədbirlər lentə alınmışdır.

Filmdə dahi şairin 800 illik yubileyinin yenidən qeyd edildiyi günlər, Moskvada keçirilən təntənəli yığıncaq, qonaqların Bakı vağzalında qarşılanması, Nizami adına muzeyin açılışı haqqında söhbət gedir. Yaradıcı qrup şairin yaşayıb-yaratdığı dövrü canlandırmağa, Nizaminin həyat və fəaliyyətinin əsas mərhələlərini açmağa çalışmışdır. Filmin mətnini aktyor Əli Zeynalov oxumuşdur.

Qocaman kinorejissor M.Mikayılov da Nizami dühasından ruhlanaraq, 1958-ci ildə yazıçı Ə.Muğanlının ssenarisi əsasında "Nizami" sənədli filmini yaratmışdır.

Film Nizami Gəncəvinin həyat və yaradıcılığının ayrı-ayrı mərhələlərini ekranda canlandırır. Filmdə belə bir fikir təsdiq olunur ki, şairin yaradıcılığı xalqımızın mənəvi həyatının əvəzolunmaz bədii nailiyyəti, qədim Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin ən parlaq səhifələridir. Filmə musiqini bəstəkar Z.Bağırov yazmışdır.

...Gözəl mənzərə planlarının biri digərini əvəz edir. Kəpəz dağının zirvəsi qarla örtülmüşdür. Dağın altından çay axır. Qarşımızda Gəncənin gözəl mənzərəsi, Nizami abidəsi, yaşıl küçələr, çarhovuz, fontan canlanır...

Diktor deyir: "Əziz dostlar, mən sizi vətənimizin gözəl guşələrindən birinə səyahətə çağırıram. Uşaq yaşlarından mən Nizami və Gəncəni bir-birindən ayrı təsəvvür edə bilməmişəm.



Həmişə düşünmüşəm ki, əgər Nizami dünya mədəniyyəti zirvəsində sönməyən ulduzdursa, qədim Gəncə mənim doğma, əziz şəhərimdir. Bu şəhər xalqımızın ölməz qəhrəmanlıq ənənələrini qoruyub əsrlərdən əsrlərə ötürür. Dostlar, dünya tarixçiləri Gəncəni çinarlar səltənəti adlandırırlar. Gəlin, əbədi gənc olan şəhərimizin keçmişinə nəzər salaq, bugünkü günü ilə tanış olaq və onun parlaq gələcəyini təsəvvür edək".

Bu sətirlər yazıçı-jurnalist N.Babayevin ssenarisi üzrə rejissor-operator S.Bədəlovun lentə aldığı "Nizami yurdu" sənədli (1968) filmində səslənir. Sonrakı kadrlarda tamaşaçılar qarşısında Gəncə şəhəri ilə bağlı müxtəlif tarixi və müasir abidələr, Nizami məqbərəsi, yeni mehmanxana, F.Əmirov və Q.Hüseynli kimi tanınmış bəstəkarlar yetişdirmiş musiqi məktəbi, xalça kombinatı, hətta stadionda futbol oyunu, Hacıkəndə səyahət, gül yığımı və s. nümayiş etdirilir, Nizami yurdunda aparılan quruculuq işlərindən məhəbbətlə söhbət açılır.

1976-cı ildə Azərbaycan Maarif Nazirliyinin sifarişi ilə "Nizami Gəncəvi" tədris filmi çəkilmişdir. Filmi rejissor E.Qasımov jurnalist T.Əhmədovun ssenarisi üzrə lentə almışdır. Filmin operatoru Sərdar Vəliyevdir. Film yuxarı sinif şagirdlərinə bədii söz ustasının həyat və yaradıcılığı ilə yaxından tanış olmağa, Nizami irsinin Yaxın və Orta Şərq xalqlarının ədəbiyyatına təsirini öyrənməyə kömək edir.

Mütəfəkkir şair Nizami Gəncəvinin anadan olmasının 840 illiyi 1981-ci ildə təkcə respublikamızda deyil, Sovet İttifaqının hər yerində təntənəli şəkildə qeyd edilmiş, poeziyanın, beynəlmiləlçiliyin gözəl bayramına çevrilmişdir. Bu mədəniyyət bayramı kinosalnamədə öz əksini tapmışdır. Bir il sonra rejissor T.Mütəllimov Q.Xəlilovun ssenarisi əsasında "Poeziya bayramı" sənədli filmini

Adına yaxşılıq sikkəsini çal,
Böyük şöhrət qazan, göylərə ucal!

"Yeddi gözəl"

Zülmü birdəfəlik eylə sən kənar,
Çünki zülmkarlıq ömrü azaldar.

"İskəndərnamə" ("İqbalnamə")

(operatorlar T.Sultanov, K.Məmmədov, Y.Abramov, F.Qasımov) çəkmişdir. 80-dən çox xalqı və milləti təmsil edən sovet şairləri Sovet İttifaqının hər yerindən Azərbaycana poeziya bayramına qonaq gəlmişdilər. Film məhz həmin görüşlər haqqında tamaşaçılara məlumat verir.

Budur, poeziya elçiləri respublikamızın paytaxtını gəzdikcə Nizami və Füzulinin, Sabir və Müşfiqin abidələri önündə dayanır, sanki onlara hesabat verir, sözün, şeirin yüksək mənasını bir daha nümayiş etdirirlər. Qədim Gəncənin sənət məbədgahı - Şıx düzündə Nizaminin məqbərəsi önündəki görüşü əks etdirən kadrlar da yaddaqalandır.







Tanınmış yazıçı, kinodramaturq İ.Hüseynov Azərbaycan xalqının coşqun ilhamlı nəğməkarı haqqında "Nizami" adlı kinossenarini yazıb, C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasına təhvil verəndə nəinki kino işçiləri, həm də minlərlə kino tamaşaçıları arasında böyük marağa səbəb oldu. Çünki dahi şairin həyatı haqqında məlumat çox olmadığına görə, filmin necə alınacağı, kino işçilərinin Nizami barədə yeni söz deyə bilib-bilməyəcəkləri hamını düşündürürdü. Bu çətin və məsuliyyətli filmə quruluş verməyi rejissor E.Quliyev öhdəsinə götürdü və eyniadlı tarixi-bioqrafik janrda kinoroman yaratdı. Filmdə baş rolda SSRİ Xalq artisti, məşhur müğənni və bəstəkar Müslüm Maqomayev çıxış etdi.

Müəlliflər bu film-pritçada ilk növbədə şair Nizaminin dolğun obrazını yaratmağa çalışmış, o uzaq illərdə Azərbaycan xalqının siyasi və sosial həyatının abhavasını, insan münasibətlərinin mürəkkəb dünyasını canlandırmağa səy göstərmişlər. Bəşəri-fəlsəfi ümumiləşdirmə yolu ilə gedən film insanın tarixdə rolu, onun xalq qarşısında borcu haqqında düşüncələridir. Nizaminin mənəvi idealı ilə reallıq arasındakı uyğunsuzluq şairin insana və ədalətə inamını qıra bilməmişdir.

Vətənpərvərlik, öz torpağına, xalqına məhəbbət, qadına hörmət, tərəqqiyə, sülhə meyl, poeziyanın qüdrətli gücü - Nizami əsərlərinin bu motivlərindən müəlliflər bütünlüklə istifadə edərək orijinal və müasir təfsirli, dərin fikirli, miqyaslı əsər yaratmışlar.

Nizami Gəncəvi elə şəxsiyyətdir ki, o, nəinki Azərbaycan, həm də dünya mədəniyyətində böyük yer tutur. Müəlliflər filmdə şairin həyatının müəyyən bir dövrünü canlandırmış, lakin bu zaman kəsiyində Nizami yaradıcılığının əsas bədii və fəlsəfi motivlərini yerləşdirmişlər. Burada xronologiya əsas götürülməmişdir. Çünki Nizami bir sənətkar kimi daha maraqlıdır. Filmdə də söhbət onun yaradıcılığından gedir.

"Azərbaycanfilm" və "Mosfilm" kinostudiyalarının birgə istehsalı olan ikiseriyalı "Nizami" bədii filmi 1983-cü ildə Leninqradda (Sankt-Peterburq) keçirilən XVI Ümumittifaq kinofestivalında uğur qazanmış, Nizaminin humanist pafosunun ekran təcəssümünə görə rejissor E.Quliyevə mükafat verilmişdi. 1984-cü ildə Daşkənddə beynəlxalq kinofestivalda film Özbəkistan Yazıçılar İttifaqının və Nazirlər Sovetinin diplomları ilə təltif olunmuşdu.

Filmin operatoru Arif Nərimanbəyov, rəssamı Mayis Ağabəyov, bəstəkarı Qara Qarayevdir. Rollarda H.Ömərova, H.Turabov, Ə.Abbasov, Ş.Ələkbərov, H.Xanızadə, Ə.Səmədov və başqaları çəkilmişlər.

Azərbaycan animatorları da Nizami poeziyasının hikmətamiz misralarından ruhlanaraq, dahi şairin əsərlərinin motivləri əsasında "Fitnə" (1970, rejissor A.Axundov), "Şah və xidmətçi" (1976, rejissor N.Məmmədov), "Xeyir və Şər" (1980, rejissor N.Məmmədov) filmlərini yaratmışlar. Bu gün nəinki uşaqlar, hətta böyük yaşlı tamaşaçılar da tərbiyəvi əhəmiyyətə malik həmin animasiya filmlərinə maraqla baxırlar.



Bütün bu görülən işlərə baxmayaraq, Azərbaycan kinematoqrafçıları dahi şairin həyat və yaradıcılığına az müraciət etmişlər. Bu baxımdan kino işçilərimiz böyük Nizamiyə borcludurlar. Sənətkarlarımız bütün dövrlərin mütəfəkkir şairi və filosofu Nizami Gəncəvinin yaradıcılığına bundan sonra da dönə-dönə müraciət etməli, onun həyat və yaradıcılığından ilhamlanaraq dəyərli sənət əsərləri yaratmalıdırlar.



Döyüşdən yaxşıdır barışıq, şəfqət,
Biri dərd gətirir, biri səadət.

"İskəndərnamə" ("Şərəfnamə")

Kiçik sanma onu kim düşmənindir,
Nərdi xam adamdan udmaq çətindir.

"Xosrov və Şirin"

# Nizami adına...

**Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi nəinki milli ədəbiyyatımızın, eyni zamanda dünya ədəbi fikrinin önündə gedən şəxsiyyətlərdəndir. Bu gün Azərbaycanda Nizami Gəncəvinin adını daşıyan onlarla mədəniyyət, elm-təhsil ocağı, küçə və parklar, eləcə də dünyanın bir sıra ölkələrində böyük mütəfəkkirin abidəsi, adını yaşadan təhsil müəssisəsi və mərkəzlər fəaliyyət göstərir. Onlardan bir neçəsi haqqında söz açmaq istərdik.**

## Ədəbiyyat Muzeyi

Böyük söz ustadının adının yaşadıldığı ünvanlardan biri AMEA-nın Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyidir. Paytaxtımızın memarlıq simasında xüsusi yeri və tarixi olan binada yerləşən muzeyin əsası 1939-cu ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin Nizami Gəncəvinin 800 illiyinə həsr olunmuş daimi sərgi – xatirə muzeyinin təşkili haqqında sərəncamı ilə qoyulub. Mədəniyyət ocağı sonradan Azərbaycan ədəbiyyatını əhatə edən muzeyə çevrilib.

1860-cı illərdə ikimərtəbəli karvansara kimi inşa olunan, XX əsrin əvvəllərində mehmanxana ("Metropol") kimi fəaliyyət göstərən, zamanla mərtəbələrinin sayı artan bina muzeyə çevriləndən sonra fasadı və interyeri 1943-cü ildə milli üslubda işlənib, eyvan-lociyada Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri – M.Füzuli (heykəltəraş – F.Əbdürrəhmanov), M.P.Vaqif (C.Qaryağdı), M.F.Axundzadə (P.Sabsay), Natəvan (E.Tripolskaya), C.Məmmədquluzadə (N.Zaxarov) və C.Cabbarlının (E.Klyatskin) heykəlləri qoyulub. Binanın qarşısında isə Nizaminin möhtəşəm abidəsi (heykəltəraş Fuad Əbdürrəhmanov, memarlar Mikayıl Hüseynov, Sadıq Dadaşov) qərar tutub.



Muzeydə qorunub saxlanılan və nümayiş etdirilən qədim əlyazmalar, böyük ediblərin rəsm-portretləri, əsərlərinə çəkilmiş miniatürlər, görkəmli şəxsiyyətlərlə bağlı nadir sənədlər, digər qiymətli eksponatlar ziyarətçilərdə ədəbiyyatımızın keçdiyi tarixi yol barədə dolğun təsəvvür formalaşdırır. Dövlət başçısının sərəncamı ilə 2020-ci ildə 80 illik yubileyi qeyd olunan muzeyin ədəbiyyatşünas və muzeyşünasların yeni nəslinin yetişməsində də təqdirəlayiq xidmətləri var.

## Elm ocağı

"Qüvvət elmdədir" deyən dahi Nizaminin adını AMEA ən böyük elmi tədqiqat müəssisələrindən olan Ədəbiyyat İnstitutu da yaşadır. Elmi qurum 1933-cü ildə SSRİ EA-nın Azərbaycan Filialının tabeliyində yaradılıb, 1945-ci ildə Azərbaycan SSR EA təşkil olunduqdan sonra onun tərkibinə daxil edilib. 40-cı illərin sonunda akademiyanın Dilçilik İnstitutu ilə birləşdirilir. 1969-cu ildən isə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu adı altında fəaliyyət göstərir.

İnstitutda ayrıca Nizami Gəncəvi şöbəsi mövcuddur. Şöbənin əməkdaşları tərəfindən dahi şairin həyatı, dövrünün ictimai-ədəbi və mədəni mənzərəsi, mühiti və müasirləri, eləcə də əsərlərinin ideya-bədii xüsusiyyətləri, Nizami irsinin tarixi, ədəbi-bədii, fəlsəfi, dini və şifahi qaynaqları və s. istiqamətlər üzrə araşdırmalar aparılır.

## Beynəlxalq mərkəz

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən keçirilən dahi şairin 870 illik yubiley tədbirləri çərçivəsində, 30 sentyabr 2012-ci il tarixində Gəncə şəhərində təsis edilib. Prezident İlham Əliyevin bilavasitə himayəsi ilə fəaliyyətini davam etdirən Mərkəz beynəlxalq qeyri-hökumət təşkilatı olaraq ətrafında müxtəlif ölkələrin keçmiş dövlət və hökumət başçılarını və nüfuzlu beynəlxalq ekspertləri birləşdirir. Mərkəz Bakı şəhərində yerləşir. Rəhbər orqanı dünyanın nüfuzlu ictimai və siyasi xadimlərindən ibarət İdarə Heyətidir. Mərkəz 2013-cü ildən etibarən Bakı şəhərində keçirilən Qlobal Bakı Forumunun əsas təşkilatçısı kimi çıxış edir.

## Bakıda və Gəncədə rayonlar

Bakı şəhərinin rayonlarından biri dahi şairin adını daşıyır. Rayon Azərbaycan SSR Ali Sovetinin 21 noyabr 1980-ci tarixli qərarı ilə indiki Xətai və Nərimanov rayonlarının ərazilərinin bir hissəsində yaradılıb. Rayon ərazisində çoxsaylı mədəniyyət və təhsil müəssisələri fəaliyyət göstərir. XVII əsrə aid tarixi abidə – Şah Abbas məscidi Keşlə qəsəbəsində yerləşir.

Dahi şairin doğma yurdu Gəncədə də adını daşıyan rayon var. Azərbaycan SSR Ali Sovetinin 21 noyabr 1980-ci il tarixli qərarı ilə o vaxt Kirovabad adlanan şəhərin Gəncə rayonu yaradılıb. 1989-cu ildə Gəncənin tarixi adı bərpa olunduqdan sonra həmin rayon "Nizami" adlandırılıb.



## Növbəti stansiya: "Nizami"...

Bakı Metropoliteninin "Nizami" stansiyası 31 dekabr 1976-cı ildən fəaliyyət göstərir. Stansiya görkəmli memar, akademik Mikayıl Hüseynovun layihəsi

Bir xərabə görsən, qurmağa tələs,
Məsləhət belədir, əməyin itməz.

*"Leyli və Məcnun"*

Hünərli dünyada taxtü-tac alar,
Alçalmaz heç zaman, başı ucalar.

*"Yeddi gözəl"*



əsasında tikilib və Bakı Metropoliteninin ən gözəl stansiyalarından biridir. Qatarlar stansiyaya daxil olarkən Üzeyir Hacıbəylinin dahi Nizaminin sözlərinə bəstələdiyi "Sənsiz" romansından parça səslənir. Stansiyanın memarlığı da Nizami yaradıcılığını əks etdirir. Sözün həqiqi mənasında, yeraltı sarayı xatırladan bu stansiyanı Xalq rəssamı Mikayıl Abdullayevin müəllifi olduğu "Nizami" mozaik portreti və "Xəmsə" mövzularında pannoları bəzəyir. "Nizami" stansiyası 2015-ci ildə dünyanın 17 ən gözəl metro stansiyası sırasına adını yazdırıb.

### Kinoteatr

Uzun illər paytaxtda kino həvəskarlarının sevimli məkanı "Nizami" kinoteatrı olub. Hazırda Nizami Kino Mərkəzi adlanan bu ünvanın maraqlı tarixçəsi var. Kinoteatr yarandığı ilk illərdə "İncəsənət" adı ilə fəaliyyət göstərib. Bülbül prospektində yerləşən və 1934-cü ildə inşa edilən binanın memarları Sadıx Dadaşov və Mikayıl Hüseynovdur. Bina 1935-ci ildən respublika Yeyinti Sənayesi Komissarlığının binası olub.

1939-cu ildə binada ilk dəfə film nümayiş olunur. 1940-cı ildə Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıq görülərkən kinoteatra Nizaminin adının verilməsi nəzərdə tutulmuşdu. Müharibə bu işi ləngidir. 1947-ci ildə Nizaminin 800 illik yubiley tədbirləri çərçivəsində kinoteatr indiki adını alır.

2011-ci ildə bina əsaslı təmir və yenidənqurmadan sonra Nizami Kino Mərkəzi adı ilə fəaliyyətini davam etdirir.



### Bakının məşhur küçəsi

Bakılılar və şəhərimizin qonaqlarının çox sevdiyi bir məkan var – Nizami küçəsi və ya keçmiş adı ilə "Torqovı". 3 km uzunluğunda küçə şəhərin mərkəzini kəsərək qərbdən şərqə doğru uzanır. Küçənin mərkəzi hissəsi yalnız piyadalar üçün nəzərdə tutulub və avtomobillər üçün bağlıdır. Paytaxtın bəzi bayram şənlikləri və yarmarkaları əsasən bu küçədə təşkil edilir.

### Mədəniyyət parkı

Azərbaycanın müxtəşlif şəhər və rayonlarında dahi şairin adını daşıyan mədəniyyət ocaqları, istirahət parkları var. Paytaxtın Xətai rayonunda yerləşən Nizami adına mədəniyyət və istirahət parkı onlardan biridir. Park XIX əsrin sonlarında Bakının neft milyonçularından L.Nobelin təşəbbüsü ilə yaradılıb və "Villa Petrolea" adlanıb. Ötən əsrin 40-cı illərində parka Nizami adı verilib.

Qeyd edək ki, Prezident İlham Əliyev 19 aprel 2021-ci il tarixində Nizami adına mədəniyyət və istirahət parkında abadlıq işlərinin həyata keçirilməsi ilə əlaqədar sərəncam imzalayıb. Sərəncama əsasən, parkda geniş abadlıq-quruculuq işləri həyata keçirilir. Açıq havada xalqımızın görkəmli şəxsiyyətlərinin heykəllərindən ibarət "Şəxsiyyətlər muzeyi" yaradılıb. Burada həmçinin Nizami Gəncəvinin əsərlərinin reproduksiyası əsasında pannolar qurulub.

### Özbəkistanda universitet

1935-ci ildə Özbəkistanın Orta Asiya Dövlət Universitetinin bazası əsasında Daşkənd Dövlət Pedaqoji İnstitutu (sonradan universitet) yaradılıb. 1947-ci ildə təhsil ocağına Nizaminin adı verilib. 2004-cü ildə Prezident İlham Əliyev və Özbəkistanın dövlət başçısı İslam Kərimovun iştirakı ilə universitetin qarşısındakı meydanda Nizaminin büstünün açılışı keçirilib.

### İngiltərədə mərkəz...

2013-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Bakı filialının rektoru, akademik Nərgiz Paşayevanın və Oksford Universiteti Şərqşünaslıq İnstitutunun professoru Robert Hoylandın birgə təşəbbüsü ilə dünyanın ən nüfuzlu tədris ocaqlarından olan Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi yaradılıb.

### və qalaktikada asteroid

Nizami Gəncəvi astronomiya elmi ilə peşəkar səviyyədə məşğul olmasa da, poemalarında səma cisimlərinin sirləri barədə çox maraqlı nüanslar var. Bəlkə də bu səbəbdən 1974-cü ildə Krım Rəsədxanasının kəşf etdiyi asteroidə dahi şairin adı verilib.



1994-cü ildə isə Şamaxı Astrofizika Rəsədxanası Yer qrupu planetlərindən sayılan Merkuridə tədqiq etdiyi bir krateri dahi şairin şərəfinə adlandırıb.



Həm hünər göstərmək, həm də mal üçün
Çalışmaq bir borcdur istiqbal üçün.

"İskəndərnamə" ("Şərəfnamə")

Hər qorxu içində bir ümid də var,
Ümid zamanında qorxu da olar.

"Leyli və Məcnun"

# Dünyanı bəzəyən Nizami abidələri

880 illik yubileyini qeyd etdiyimiz dahi Azərbaycan şairi və mütəfəkkiri Nizaminin sözü, ideyaları hələ əsrlər öncə dünyaya yayılıb və insanlığın diqqətini cəlb edib. Əsərləri onlarla dilə tərcümə edilən Nizaminin bənzərsiz yaradıcılığı bəşəriyyəti sülhə, bərabərliyə, birliyə çağırdığına görə o, bir dünya şairidir. Dünyanın müxtəlif ölkələrində Nizaminin adının əbədiləşdirilməsi, abidələrinin ucaldılması da buna sübutdur.






## Rusiya

Böyük söz ustadının ölkəmizdən kənarda bir neçə abidəsinin ucaldıldığı ölkə Rusiyadır. Bunlardan biri 30 il öncə – 1991-ci ildə paytaxt Moskvada ucaldılıb. Dahi şairin 850 illik yubileyi münasibətilə qoyulan abidənin heykəltəraşları T.Zeynalov və E.Zeynalov, memarları R.Əsgərov və P.Əliyevdir.

Şimal qonşumuzun ikinci böyük şəhəri Sankt-Peterburqda da Nizaminin heykəli qoyulub.




2002-ci il iyunun 9-da heykəlin təntənəli açılış mərasimi keçirilib. Abidənin açılışında Azərbaycan Prezidenti Heydər Əliyev və Rusiya Prezidenti Vladimir Putin iştirak ediblər. Abidənin müəllifi tanınmış heykəltəraş, Əməkdar rəssam Görüş Babayev, postament layihəsinin müəllifi isə Rusiyanın Əməkdar rəssamı Feliks Romanovskidir.

Rusiyada dahi şairimizə daha bir abidə Çuvaşıstan Respublikasının paytaxtı Çeboksarı şəhərində ucaldılıb. Açılışı 2004-cü il fevralın 24-də gerçəkləşən heykəlin müəllifi Xalq rəssamı, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovdur.

## Moldova

Nizami abidəsinə ev sahibliyi edən şəhərlərdən biri də Moldovanın paytaxtı Kişineudur. 2005-ci ildə bu şəhərdə mütəfəkkir şairin büstünün təntənəli açılışı olub. Mərasimdə Prezident İlham Əliyev və Moldovanın dövlət başçısı Vladimir Voronin iştirak ediblər. Müəllifi Xalq rəssamı Akif Əsgərov olan abidənin



postamenti Moldovanın Əməkdar memarı Semyon Şoyxet tərəfindən hazırlanıb.

## Ukrayna

Ukraynanın ikinci böyük şəhəri olan Xarkovda Nizami Gəncəvinin abidəsi ucaldılıb. Abidə "Nizami Gəncəvi İli"ndə Azərbaycanın Ukraynadakı Səfirliyi, Xarkovdakı Fəxri Konsulluğumuz və Xarkov Şəhər Şurasının birgə dəstəyi ilə qoyulub. Heykəlin müəllifi həmvətənimiz, Ukraynanın Xalq rəssamı Katib Məmmədovdur.

Azərbaycanın dahi şairinin Ukraynada daha bir abidəsi olacaq. Abidə Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə paytaxt Kiyevdə – Taras Şevçenko adına Kiyev Milli Universitetinin Nəbatat bağında qoyulacaq.

## İtaliya




2012-ci il aprelin 20-də İtaliyanın paytaxtı Roma şəhərindəki "Villa Borghese" parkında Nizami Gəncəvinin abidəsi qoyulub. Abidə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli "Azərbaycanın dahi şair və mütəfəkkiri Nizami Gəncəvinin 870 illiyi haqqında" sərəncamına əsasən, Heydər Əliyev Fondunun dəstəyi ilə ucaldılıb. Abidənin müəllifləri Xalq rəssamları Səlhab Məmmədov və Əli İbadullayevdir.

## Çin

Nizami Gəncəvi ünvanlı abidənin qərar tutduğu şəhərlərdən biri də Pekindir. 2012-ci il dekabrın 6-da Çin Xalq Respublikasının paytaxtında sakinlərin və qonaqların daha çox ziyarət etdikləri Çaoyan parkında qoyulub. Tuncdan qoyulmuş büstün müəllifi müxtəlif xalqların dahilərinin abidələrini hazırlamaqla məşhurlaşan heykəltəraş-rəssam, Pekindəki Cintay İncəsənət Mərkəzinin direktoru, professor Yüen Sikundur.

## Özbəkistan

Nizami Gəncəvi dühasına, keçmişdə olduğu kimi, bu gün də Özbəkistanda böyük sevgi və ehtiram var. Bu ehtiramın ifadəsidir ki, dahi şairə paytaxt Daşkənddə abidə qoyulub. 2004-cü il martın 23-də Azərbaycan və Özbəkistan prezidentləri İlham Əliyev və İslam Kərimovun iştirakı ilə Nizaminin büstünün açılışı olub. Abidə Nizami Gəncəvinin adını daşıyan Daşkənd Dövlət Pedaqoji Universitetinin qarşısındakı meydanda yerləşir. Büstün müəllifi özbək heykəltəraşı İlham Cabbarovdur.

***

Dünyadakı Nizami abidələri bunlarla bitmir. Lüksemburq, Təbriz və s. şəhərlərdə, habelə Misirin İskəndəriyyə Kitabxanasında və digər qurum və mərkəzlərdə də qüdrətli söz ustadının büst və heykəlləri var.

Dünya zirəklərin karvan yoludur,
Düz və təmizlərin sadiq quludur.

"Yeddi gözəl"

İndi ki bildiyini saxlaya bilməyirsən,
Özgədən öz sirrini saxlamağı umma sən.

"Sirlər xəzinəsi"



# Əbədi məkan

**Gəncədə, Nizaminin qəbri üzərində ucaldılmış məqbərə şairə yüksək ehtiramın ifadəsidir. XIII əsrin əvvəllərində məqbərə inşa olunan vaxtdan bura elm və irfan əhlinin ziyarətgahına çevrilib, təkcə yerli əhali üçün deyil, Şərqin görkəmli mütəfəkkirləri, müxtəlif ölkələrdə nizamisevərlər üçün müqəddəs məkan hesab edilib.**

Vaxtilə görkəmli ədəbiyyatşünas, Nizami irsinin tanınmış tədqiqatçısı, akademik Həmid Araslı "Nizaminin vəqfi haqqında yeni sənəd" məqaləsində məqbərənin keçmişi ilə bağlı maraqlı məlumatları diqqətə çatdırmışdı: "Nizami öldükdən sonra qəbri ziyarətgaha çevrilmiş, onun öz kəndinin gəlirlərindən başqa bizə məlum olmayan hökmdarlar və ya bivaris ölən adamlar tərəfindən bu məqbərəyə vəqflər edilib. XVI əsrdə məqbərə çox gəlirli vəqfi olan, gəlib-gedənlərə və yoxsullara hər gün yemək verən, müdərrisləri (müəllim) təmin edən bir xeyriyyə ocağı olub".

Məqbərə Azərbaycan Atabəylər dövlətinin hökmdarı Qızıl Arslan tərəfindən Nizamiyə hədiyyə edilmiş Həmdünyan (indiki Əhmədli) kəndinin ərazisindədir. Hazırda yerli sakinlər bu əraziyə "Şeyx düzü", yaxud "Şıx düzü" deyir. Şıx düzündə aparılan arxeoloji qazıntılar sübut edir ki, bu ərazi vaxtilə Gəncə şəhərinin bir növ fəxri xiyabanı olub. Nizaminin məqbərəsinin ətrafında Gəncənin başqa hörmətli şəxslərinin də məqbərələri olub.

1826-cı ildə (II Rusiya-İran müharibəsi) Şıx düzündə baş verən döyüş zamanı məqbərə ciddi zədələnir və təmir edilmədiyindən xarabalığa çevrilir. 1840-cı illərdə tamamilə dağılmaq təhlükəsi qarşısında qalan məqbərəni Qarabağ xanlığının tarixçisi Mirzə Adıgözəl bəy təmir etdirir. Uçmuş günbəzin yerində yenisi tikilir. Bir müddətdən sonra abidə yenidən yararsız vəziyyətə düşür.

1879-cu ildə Məkkə ziyarətinə gedən görkəmli şair və maarif xadimi Seyid Əzim Şirvani Nizaminin məqbərəsini ziyarət edir və onun acınacaqlı vəziyyətindən təsirlənərək məşhur rübaisini söyləyir:

*Ey Şeyx Nizami, ey nizamı dağılan,*
*Ey Gəncədə izzü-ehtişamı dağılan.*
*Olmayıbdır cahanda bir səninlə məntək,*
*Beyti, evi, məktəbi, kəlamı dağılan...*

XX əsrin əvvəllərində Mirzə Adıgözəl bəyin nəslindən olan və Gəncənin polis rəisi işləyən Əjdər bəy Adıgözəlov günbəzi təmir etdirir.

1939-cu ildə Nizami Gəncəvinin 800 illik yubileyi ərəfəsində Nizami məqbərəsi yenidən gündəmə gəlir. 1940-cı ildə Şıx düzündə arxeoloji qazıntı işləri aparılarkən məqbərənin qədim qalıqları üzə çıxarılır. Müəyyən edilir ki, XIII əsrdə tikilən türbənin ümumi sahəsi 100 kvadratmetrdən çox olub. Şairin məzarı üzərində məqbərənin ucaldılması məqsədilə Moskvadan arxeoloji ekspedisiya gəlir. İkinci Dünya müharibəsi səbəbindən bu məsələdə bir qədər fasilə yaranır. 1947-ci ildə Nizaminin məzarı üzərində yerli ağ daşlardan ucaldılan məqbərənin açılışı keçirilir.

70-ci illərin sonunda, Nizaminin 840 illik yubileyinə hazırlıq görülərkən respublikamıza rəhbərlik edən ulu öndər Heydər Əliyev dahi şairin məzarı üzərində ona layiq bir abidənin ucaldılması ilə bağlı mərkəzi hökumət – Moskva qarşısında məsələ qaldırsa da, tarixi-siyasi proseslər üzündən bu istiqamətdə işlər uzun müddət ləngiyir. Nəhayət, 1991-ci ildə Ukraynadan gətirdilmiş qırmızı qranit və yerli tikinti materiallarından istifadə edilməklə Əməkdar memar Fərman İmamquliyevin layihəsi əsasında şairin 22,5 metr hündürlüyündə 8 guşəli əzəmətli məqbərəsi inşa edilir.

Prezident İlham Əliyevin Nizami Gəncəvinin 870 illik yubileyinin qeyd olunması haqqında 23 dekabr 2011-ci il tarixli sərəncamına əsasən, məqbərə ətrafında yenidənqurma işləri aparılıb. Həmçinin Gəncə Şəhər İcra Hakimiyyəti tərəfindən Şıx düzündə "Nizami şəhərciyi" salınıb. 35 hektar ərazidə istirahət və ziyarət kompleksi qurulub. Şıx düzü ərazisində yerləşən qədim qəbiristanlıqda Nizami Gəncəvinin atası Yusifin və anası Rəisə xanımın qəbirləri aşkar olunaraq bərpa edilib.

Kompleksin həyətində "Xəmsə" qəhrəmanları" adlı bədii-monumental kompozisiya qurulub. Əməkdar rəssam, mərhum Qorxmaz Sücəddinovun müəllifi olduğu kompozisiyalarda "Xəmsə"yə daxil olan poemalardakı qəhrəmanların obrazları yüksək peşəkarlıqla işlənib.

Məqbərə ilə üzbəüz Nizami Gəncəvi Muzeyi yerləşir. Heydər Əliyev Fondunun dəstəyi ilə 2013-cü ildə inşa olunan muzey məqbərəni ziyarətə gələnlərə dahi şair haqqında geniş məlumat almağa imkan yaradır. Muzeydə elektron məlumat köşkü quraşdırılıb, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvi ilə bağlı sərəncam və qərarları, şairin yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar, müxtəlif ölkələrin kitabxana və muzeylərində qorunan "Xəmsə" əlyazmalarının və miniatürlərinin nüsxələri nümayiş olunur.

Məqbərə kompleksi ölkə başçısının sərəncamı ilə 2019-cu ildən Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun tərkibinə daxil edilib.


**"Mədəniyyət" qəzetinin xüsusi buraxılışı**

**Baş redaktor:**
Vüqar Əliyev

**Ünvan:**
AZ 1012, Moskva pr, 1D,
Dövlət Film Fondu,
5-ci mərtəbə

**Telefon:** (012) 4312879
(012) 4315772

"CBS-PP" MMC-nin
mətbəəsində çap olunub
7 dekabr 2021-ci il
**Tiraj:** 1200

**Buraxılışa məsul:**
Fariz Yunisli

**Dizayner:**
Cavid Sərxanbəyli

**Nəşrin hazırlanmasında iştirak ediblər:**
Səbinə Məmmədova
Lalə Ələkbərova
Həmidə Rüstəmova
Savalan Fərəcov
Nurəddin Məmmədli
Həbib Hüseynov



# Böyük dühanın tükənməyən ziyası

Qüdrətli söz ustadı Nizami Gəncəvinin 880 illiyi münasibətilə reallaşan layihələrdən biri də 2021-ci il 14–16 oktyabr tarixində Bakıda təşkil edilən "İşıq festivalı" oldu. Üç gün ərzində axşam saatlarından başlayaraq paytaxtın sakinləri və qonaqları Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin fasadında şairin portret rəsminin və "Xəmsə" motivləri üzrə miniatürlərin 3D audiovizual proyeksiya formatında təsvirlərini izlədilər.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı və bir sıra qurumların dəstəyi ilə ərsəyə gələn layihənin məqsədi müxtəlif ölkələrin elm və mədəniyyət ocaqlarında – Rusiya Milli Kitabxanası, İstanbul Topqapı Sarayı Muzeyi, Kembric Universiteti Fitzuilyam Muzeyi, Harvard İncəsənət Muzeyi kimi məkanlarda qorunub saxlanılan "Xəmsə" miniatürləri vasitəsilə Nizami irsini bir daha diqqətə çatdırmaq idi.

Yüzilliklər öncə məşhur rəssamlar tərəfindən Nizaminin əsərlərinə çəkilmiş təsvirlərin işıq selindən keçən görüntüləri, ecazkar mənzərə yaratmaqla yanaşı, dahi Azərbaycan şairinin tükənməyən söz işığının bundan sonra da bəşəri düşüncəni aydınladacağını simvolizə edirdi.





